# DİKTATURADAN

# DEMOKRATİYAYA

# DOĞRU

## Azadlıq üçün Konseptual Çərçivə

Cin Şarp

Albert Eynşteyn adına İnstitut

## ALBERT EYNŞTEYN ADINA İNSTITUTUN MISSIYASI

Albert Eynşteyn adına İnstitutun başlıca missiyası münaqişələr zamanı tətbiq olunan dinc mübarizə metodunun dünya miqyasında öyrənilməsini və onun məqsədəuyğun şəkildə istifadə olunmasını genişləndirməkdir.
Bu institutun bu kimi öhdəlikləri var:

- Demokratik institutarın və azadlıqların qorunması
- Zülmkarlıq, diktatura rejimi və genosidə qarşı mübarizə
- Zorakılığın siyasi alət kimi istifadəsini məhdudlaşdırmaq

Missiya 3 istiqamətdə həyata keçirilir:

- Dinc mübarizə metodları və onların müxtəlif münaqişələrdəki ilkin istifadə yolları ilə bağlı siyasi elmlərin və araşdırmaların aparılmasına imkan yaratmaq
- Bu araşdırmaların nəticələrini nəşrlər, mətbuat və konfranslar vasitəsilə ictimaiyyətə çatdırmaq və
- Mübarizə aparan qruplarla dinc mübarizənin strateji imkanları ilə bağlı məsləhətləşmələr aparmaq.

The Albert Einstein Institution
427 Newbury Street
Boston, MA 02115-1802, USA

# DİKTATURADAN

# DEMOKRATİYAYA

# DOĞRU

## Azadlıq üçün Konseptual Çərçivə

Bu kitab Razi Nurullayevin rəhbərliyi altında tərcümə və redaktə edilmişdir

## ETİRAF VƏ TƏŞƏKKÜR

Bu kitabin Azərbaycan dilində ərsəyə gəlməsində göstərdiyi köməyə görə zəmanəmizin böyük alimi və strategi, özümün müəllimim hesab etdiyim müəllif, ABŞ-ın Albert Eynşteyn adına İnstitutunun böyük elmi işçisi, professor, dostum Cin Şarpa dərin minnətdarlığımı bilidirirəm. Etiraf edirem ki, onun məsləhətləri və qayğısı olmadan bu kitabın ərsəyə gəlməsi çətin olardı.

Ümid edirəm ki, bir il ərzində çəkdiyimiz əmək hədər getməyəcək və siyasi partiyalar, hökumət və digər aidiyyatı qurumlar bundan vətənin - Azərbaycanın mənafeyi naminə səmərəli istifadə edəcəklər.

**Norveç Krallığının ölkəmizdəki səfirliyinə göstərdikləri köməyə görə dərin minnətdarlığımı bildirirəm.**

Razi Nurullayev

"YOX" Hərəkatının üzvü, DİUC həmsədri

İÇİNDƏKİLƏR


## ÖN SÖZ

## BİR
### DİKTATURALARIN GERÇƏK ÜZÜ

Qurtarmaq bilməyən problem ________________________________________

Azadlığı zor yolu ilə almalı? ___________________________________________

Çevrilişlər, seçkilər, xarici xilaskarlar? _________________________________

Acı həqiqətlə üzbəüz _______________________________________________

## İKİ
### DANIŞIQLARDA TƏHLÜKƏLİ MƏQAMLAR

Danışıqların dəyəri və məhdudiyyətlər _________________________________

Razılaşdırılmış təslim? ______________________________________________

Danışıqlarda güc və ədalət ___________________________________________

"Razılaşa bilən" diktatorlar __________________________________________

Hansı sülh? ___________________________________________________

Ümidverici səbəblər ________________________________________________

## ÜÇ

### GÜCÜN MƏNBƏYİ

"Meymun sahibi" haqqında hekayə ____________________________________

Siyasi qüvvənin vacib mənbələri ______________________________________

Demokratik qüvvə mərkəzləri _________________________________________

## DÖRD
### DİKTATURANIN ZƏİF CƏHƏTLƏRİ


"Axilles dabanı"nın tapılması ____________________________________

Diktaturaların zəif cəhətləri _____________________________________________

Diktaturaların zəif cəhətlərinə hücum ___________________________________


## BEŞ
### GÜCDƏN  İSTİFADƏ


Dinc mübarizənin tətbiqi  _________________________________

Dinc silahlar və nizam-intizam _________________________________________

Şəffaflıq, məxfilik və yüksək standartlar _______________________________

Qüvvələr nisbətinin dəyişməsi __________________________________________

Dəyişmənin dörd mexanizmi ____________________________________________

Siyasi itaətsizliyi demokratikləşdirən təsirlər ___________________________

Dinc mübarizənin mürəkkəbliyi __________________________________________


## ALTI

### STRATEJİ PLANLAŞDIRMAYA EHTİYAC


Gerçək planlaşdırma ___________________________________________________

Planlaşdırma zamanı maneələr __________________________________________

Strateji planlaşdırmanın dörd əsas termini ______________________________


## YEDDİ
### STRATEGİYANIN PLANLAŞDIRILMASI


Vasitələrin seçilməsi ___________________________________________________

Demokratiya üçün planlaşdırma________________________________________

Xarici dəstək ________________________________________________________
Böyük strategiyanın hazırlanması ____________________________________
Kampaniya strategiyalarının planlaşdırılması __________________________
Əməkdaşlıqdan imtina ideyasınının yayılması __________________________
Repressiya və ona qarşı tədbirlər _____________________________________
Strateji plana riayət olunması _______________________________________

## SƏKKİZ
### SİYASİ İTAƏTSİZLİYİN TƏTBİQİ

Seçilmiş müqavimət ___________________________________________________
Rəmzi çağırış _________________________________________________________
Məsuliyyətin bölünməsi _______________________________________________
Diktatura hakimiyyətini hədəfə alma
_______________________________________________
Strategiyada dəyişikliklər ____________________________________________

## DOQQUZ
### DİKTATURANIN DAĞILMASI

Azadlığın yüksəlişi ___________________________________________________
Diktaturanın içindən parçalanması
______________________________________________
Müvəffəqiyyətin məsuliyyətlə idarə olunması_____________________________

## ON
### DAVAMLI DEMOKRATİYANIN TƏMƏLİ

Yeni diktatura təhlükəsi _____________________________________________
Çevrilişlərin qarşısının alınması _____________________________
Konstitutsiyanın tərtib edilməsi________________________________________
Demokratik müdafiə siyasəti _______________________________________

Layiqli məsuliyyət ____________________________________________________

ƏLAVƏ

DİNC MÜBARİZƏNİN METODLARI

## ÖN SÖZ

Məni illər boyu maraqlandıran suallardan biri insanların hansı yollarla diktaturaların qarşısını ala və məhv edə bilməsi olub. İnsan varlığının bu kimi rejimlər tərəfindən idarə olunmasının və dağıdılmasının düzgün olmaması haqqında inam bu marağı daha da artırıb. Bu inam insan azadlıqlarının zəruriliyi, diktaturanın təbiəti (Aristotel- totalitarizmin təhlili) və diktaturanın tarixi (xüsusilə Nasizm ve Stalinizm sistemləri) kimi yazıların vasitəsi ilə guclənirdi.

Mən illər boyu nasizm hakimiyyəti altında yaşayıb əziyyət çəkən və ölüm düşərgələrindən xilas olan insanlarla rastlaşmalı olmuşam. Mən Norveçdə faşist hakimiyyətinə qarşı çıxan və sağ qalan insanlarla görüşmüş və eyni zamanda ölənlər haqqında da eşitmişəm. Mən Nasizm zorakılığından xilas olan yəhudilərlə və onlara yardım edən insanlarla söhbət etmişəm.

Kommunist hakimiyyətinin fərqli ölkələrdə həyata keçirdiyi terror haqqında bilgilərim daha çox kitablardan, bir qədər isə şəxsi əlaqələrdən olub. Bu sistemlər mənə xüsusilə qəddar görünüb, çünki bu diktaturalar xalqları istismardan və təzyiqdən azad etmək adı altında onlara sırınıb.

Son onillikdə diktatura üsulu ilə idarə olunan Panama, Polşa, Çili, Tibet və Birma kimi ölkələrə səfər edən şəxslərin vasitəsilə bugünkü diktatura reallıqları daha da aydın olub. Tibetlilərin Çin kommunist təcavüzünə qarşı mübarizəsi, rusların 1991-ci il avqust dövlət çevrilişinin qarşısını alması, tayların zorakılığa yol vermədən hərbi hakimiyyətin qayıdışını əngəlləməsi haqqında aldığım məlumatlarla, diktaturanın qəddar təbiətinin tez-tez törətdiyi acı perspektivlər barədə təsəvvür əldə etdim.

Vəhşiliklərə qarşı pafos və qəzəb hissim, inanılmaz dərəcədə cəsur kişi və qadınların sakit qəhramanlığına heyranlığım, bəzən təhlükənin hələ də böyük olduğu və cəsur insanların hələ də tabe olmadığı yerlərə edilən səfərlərim vasitəsilə daha da guclənirdi. Bura Noriyeqanın hakimiyyəti altında olan Panama, Litvada davamlı Sovet repressiyalarının altında olan Vilnüs, Tyananmın meydanında azadlığın bayram nümayişi zamanı birinci zirehli piyada

daşıyıcılarının həmin həlledici gecədə daxil olduğu Pekin və "Azad olmuş Birmada" demokratik müxalifətin Manerplavdakı cəngəllik gərargahları da daxil edilə bilər.

Bəzən mən yıxılmış teleqüllənin, Vilnüsdəkı qəbiristanlığın, Riqada insanların güllələndiyi ictimai parkın, Şimali İtaliyada faşistlərin partizanları cərgəyə düzüb güllələdiyi Ferraranın mərkəzi və Manerplavdakı çox gənc ikən ölən insanların bədəni ilə dolu olan qəbiristanlıq kimi faciələrin baş verdiyi yerlərə baş çəkdim. Bu çox kədərli bir gerçəklikdir ki, hər faşizm öz arxasınca belə ölümlər və dağıntılar buraxır.

Bu nigarançılıq və təcrübələrdən müəyyən bir ümid əmələ gəlir ki, tiraniyanın qarşısını almaq imkanları var, diktaturalara qarşı uğurlu mübarizələri qarşılıqlı kütləvi qırğınlar olmadan da aparmaq, diktatura üzərində qələbə çalmaq və yeni diktatorların meydana çıxmasının qarşısını almaq olar.

Mən diktaturanın mümkün qədər az itki və ölüm ilə dağıdılması yolları haqqında çox düşünməyə çalışmışam. Bunun üçün mən illər boyu diktatura, müqavimət hərəkatları, inqilablar, siyasi düşüncələr, hakimiyyət sistemləri və xüsusən zor işlətmədən aparılan mübarizə ilə bağlı araşdırmalarıma üz tutdum.

Bu yazı da onun nəticəsidir. Mən əminəm ki, bu mükəmməllikdən uzaqdır. Lakin, ola bilər ki, bu başqa hallardan fərqli olaraq, daha güclü və effektli azadlıq hərəkatını əmələ gətirən düşüncə və planlaşdırma üçün yardım edəcək istiqamətlər təklif edə bilər.

Bu ehtiyacdan və düşünülmüş seçimdən irəli gələn, bu yazının mahiyyəti, diktaturanın necə dağıdılması və yenisinin ortaya çıxmasının qarşısının alınması kimi ümumi problemə əsaslanıb. Mən hər hansı bir spesifik ölkə üçün təhlil və ya göstəriş vermək üçün kifayət qədər bacarıqlı deyiləm. Ancaq, ümid edirəm ki, bu ümumi təhlil, diktatura hakimiyyəti ilə üzləşən çoxlu sayda ölkələrin insanları üçün xeyirli ola bilər və təəssüf edirəm ki, bu belədir. Bu təhlilin onların düşdükləri vəziyyət üçün əsaslı olduğunu öyrənmək onlara lazım olacaq. Xüsusilə, bu təhlilin əsas tövsiyyələrinin azadlıq uğrunda onların apardığı mübarizəyə uyğun olduğunu və ya uyğunlaşdırıla biləcəyini öyrənmək lazım gələcək.

Bu yazının yazılmasında mən bir çox insanlara borcluyam. Redaktə işlərinin, struktur dəyişikliklərinin, mürəkkəb ideyaların (xüsusilə strategiya ilə bağlı) daha aydın və dəqiq təqdimatı üçün kəskin tövsiyyələrin və problemlərin müəyyənləşdirilməsində mənim xüsusi köməkçim Brus Cenkinsin dəyərli xidməti var. Mən həmçinin nəşrlə bağlı etdikləri köməyə görə Stifin Koudi,

Doktor Kristofer Krügler və mühüm tənqid və məsləhətlər verdiyinə görə Robert Helveyə öz dərin minnətdarlığımı bildirirəm. Doktor Hazel MkFerson və Doktor Patrisiya Pekman məni Afrikadakı mübarizələrlə bağlı lazımi məlumatlarla təmin ediblər. Bu iş kifayət qədər səxavətli dəstəkdən yararlandığına görə, onun tərkibindəki təhlillər və rəylər məni məsuliyyətli olmağa vadar edir.

Bu təhlillərin heç birində mən diktatorlarla hesablaşmamağın asan və itkisiz bir cəhd olacağını fərz etmirəm. Bütün növ mübarizələrdə itki olur, və diktatorlarla mübarizədə də təbii ki, itkilər olacaq. Mən sadəcə ümid edirəm ki, bu təhlil liderlərin effektiv gücünü artıracaq, strategiyaları müəyyən etmək üçün onların müqavimətini daha da stimullaşdıracaq.

Cin Şarp

6 Oktyabr 1993-cü il
Albert Eynşteyn İnstitutu
Newbury kuç. 427
Boston, Massaçusets 02115-1801

## *BİR*
## *DİKTATURALARIN GERÇƏK ÜZÜ*

Son illər ərzində həm daxili, həm də xarici mənbəli müxtəlif diktaturalar itaətsiz və səfərbər olan insanlarla üzləşdikdə dağılıb və ya sarsılıb. Hətta möhkəm kök atmış və sabit kimi görünən diktaturaların belə insanların birləşmiş siyasi, iqtisadi və ictimai müqaviməti qarşısında aciz qaldığı dəfələrlə sübuta yetirilib.

1980-ci ildən bəri Estoniya, Latviya, Litva, Polşa, Şərqi Almaniya, Çexoslovakiya, Sloveniya, Madaqaskar, Mali, Boliviya və Filippində diktaturalar insanların üstünlük verdiyi dinc mübarizə nəticəsində dağıdılıb. Dinc müqavimət Nepalda, Zambiyada, Cənubi Koreyada, Haitidə, Argentinada, Braziliyada, Urugvayda, Maliviyada, Tailandda, Bolgarıstanda, Macarıstanda, Zairdə, Nigeriyada və keçmiş Sovetlər Birliyinin müxtəlif yerlərində (1991- ci ilin avqustunda dövlət çevrilişinə cəhdin məğlub edilməsində mühüm rol oynayan) demokratiyaya doğru hərəkata imkan yaratdı.

Əlavə olaraq qeyd edək ki, son illərdə kütləvi siyasi itaətsizlik[1] Çin, Birma və Tibetdə də baş verib. Baxmayaraq ki, həmin mübarizələr diktatura üsullarına və işğallarına son qoymadı, lakin onlar həmin zalım təbiətli repressiv rejimləri dünya ictimaiyyətinə açıb göstərdi və əhaliyə bu cür dəyərli mübarizə təcrübəsi verdi.

---

[1] Mövzuda istifadə olunan bu termin Robert Helvey tərəfindən təqdim olunub. "Siyasi itaətsizlik" tabeсизликдян siyasi niyyətlər üçün istifadə edən динж, aktiv mübarizədir (etiraz, müdaxilə və əməkdaşlıq etməmək). Qarışıqlıq və əyriliklərə cavab olaraq yaradılan bu termin dinc mübarizənin pasifizm (sülhpərvərlik) və mənəvi, yaxud dini "qeyri – zorakılıq"ла bərabərləşdirilməsi nəticəsində ortaya çıxıb. "İtaətsizlik" tabeçiliyə heç bir yer qoymadan, hakimiyyətə tabe olmamaqla qabaqcadan düşünülmüş çağırışı bildirir. "Siyasi itaətsizlik" elə bir mühiti təsvir edir ki, orada hərəkət (siyasi) hədəf (siyasi hakimiyyət) ilə birgə tətbiq olunur. Bu termin prinsipcə insanların fəaliyyətlərini təsvir etmək, hakimiyyət mənbələrinə qəddar hücum vasitəsi ilə dovlət təsisatlarının üzərində olan diktatura nəzarətini эери qaytarmaq və strateji planlaşdırma və əməliyyatların düşünülmüş şəkildə həyata keçirilməsi üçün istifadə olunmuşdur. Bu məqalədə siyasi itaətsizlik, dinc müqavimət və dinc mübarizə kimi terminlər eyni mənada işlədiləcək. Baxmayaraq ki, sonuncu iki termin ümumən daha geniş yayılmış məqsədlи mübarizəyə (ictimai, iqtisadi, psixoloji və s.) əsaslanır.

Sözsüz ki, yuxarıda qeyd edilən ölkələrdə diktaturaların dağıdılması həmin cəmiyyətlərdə mövcud olan başqa problemləri aradan qaldırmadı: yoxsulluq, cinayətkarlıq, bürokratik səmərəsizlik, ətraf mühitin məhv edilməsi - əsasən zalım rejimlərin miras qoyduğu problemlərdir. Lakin bu dikrtaturaların yıxılması, təzyiqlərin qurbanı olanların əziyyətlərini minimal olaraq azaltdı və cəmiyyətlərin fərdi azadlıq, ictimai ədalət və daha böyük siyasi demokratiya ilə yenidən qurulmasına yol açdı.

## Qurtarmaq bilməyən problem

Son onillik ərzində dünyada həqiqətən böyük demokratikləşmə və azadlıq meylləri əmələ gəlib. Siyasi hüquqlar və vətəndaş azadlıqlarının vəziyyəti haqqında illik hesabat hazırlayan Azadlıq Evinə istinad etsək, dünyada "azad" ölkə kimi təsnifatlandırılan ölkələrin çoxu əsasən son onillik ərzində yaranıb:[2]

| İl | Azad | Qismən azad | Qeyri azad |
|---|---|---|---|
| 1983 | 55 | 76 | 64 |
| 1993 | 75 | 73 | 38 |

Baxmayaraq ki, bu müsbət tendensiyasdır, lakin hələ də çox insanlar tiraniya rejimi altında yaşayır. 1993-cü ilin yanvar ayında olduğu kimi dünyanın 5.45 milyard əhalisinin 31%-i "qeyri azad"[3] kimi müəyyən edilmiş və siyasi hüquqların və vətəndaş azadlıqlarının kəskin məhdudlaşdırıldığı ölkələrin ərazisində yaşayırlar. "Qeyri-azad" kateqoriyasına aid 38 ölkə və 12 ərazi hərbi diktaturalar silsiləsi ilə (Birma və Sudanda olduğu kimi), ənənəvi repressiv monarxiya ilə (Səudiyyə Ərəbistanı və Butanda), hakim siyasi partiyalar tərəfindən (Çin, İraq və Şimali Koreya) və xarici işğalçılar (Tibet və ya Şərqi Timor) tərəfindən idarə olunurlar və ya, keçid dövrünü yaşayırlar.

Dünyada bir çox ölkələr sürətli iqtisadi, siyasi və ictimai dəyişiklik vəziyyətindədirlər. "Azad" ölkələrin sayının son onillik ərzində artmasına baxmayaraq, bir çox millətlər üçün bu cür sürətli dəyişikliklər qarşısında, əks istiqamətə yönələrək yeni diktatura formalarını yaşamaq təhlükəsi var. Hərbi

---

[2] Azadlıq Evi, Dünyada Azadlıq: Siyasi Haqlar və Vətəndaş Azadlıqları haqda İllik Hesabat, *1992-1993* (Nyu York: Azadlıq Evi, 1993), səh.. 66 (1993 göstəricilər yanvar ayının göstəriciləri ilə uyğun gəlir). Azadlıq Evinin "azad", "qismən azad" və "qeyri azad" ölkələrin siyahısı üçün bah. səh. 79-80.

[3] Azadlıq Evi, *Dünyada Azadlıq*, p. 4.

çağırışlar, iddialı şəxslər, seçilmiş məmurlar, doktrinaya aid olan siyasi partiyalar öz niyyətlərini möhkəmləndirmək üçün dayanmadan çalışacaqlar.

Təəssüflər olsun ki, biz hələ də keçmişdən ayrlmamışıq. Diktaturalar problemi olduqca dərindir. Çox ölkələrin insanları daxili və ya xarici mənşəli sıxışdırılmaların onillik və hətta əsrlər boyu davam edən təcrübəsini yaşayıblar. Uzun illər dövlət məmurlarına və başçılarına qeyd-şərtsiz itaət, təlqin olunmuşdur. Ekstremal hallarda cəmiyyətin ictimai, siyasi, iqtisadi və hətta dini təsisatları - dövlət nəzarətindən kənar - düşünülmüş olaraq zəiflədilib, tabe etdirilib və hətta cəmiyyəti idarə etmək üçün dövlət və ya hakim partiyanın istifadə etdiyi yeni rejim təsisatları ilə əvəz olunmuşdur. Əksər hallarda insanları elə hissələrə (təcrid olunmuş şəxslər kütləsinə çevirirdilər) parçalayırdılar ki, onlar azadlığa nail olmaq üçün nə birgə iş görə, nə bir-birilərinə etibar edə, nə də öz təşəbbüslərini yerinə yetirmək üçün bir şey edə bilirdilər.

Nəticəni öncədən proqnozlaşdırmaq mümkündür: əhali zəifləyir, öz məxfiliyində çatışmamazlıq hiss edir və mübarizə etmək iqtidarında olmur. Insanlar bir çox hallarda diktaturaya nifrətini və azadlığa olan aclığını hətta ailə üzvləri və dostları ilə belə bölüşməyə qorxurlar. Insanlar ictimai mübarizə haqqında düşünməyə belə qorxurlar. İstənilən halda, bunun nə xeyri? Bunun əvəzində onlar hər cür sonsuz əziyyət çəkməyə və ümidsiz gələcəyə məhkum olunurlar.

İndiki diktaturalardakı şərait bundan öncəkilərdən qat-qat çətin ola bilər. Keçmişdə insanların bir qismi mübarizəyə cəhd göstərə bilirdi. Qısa müddətli kütləvi etirazlar və ya nümayişlər baş verirdi. Ola bilər ki, insanların ruhu müvəqqəti olsa da yüksəlirdi. Başqa zamanlarda fərdlər və kiçik qruplar hansısa prinsipləri yaxud sadəcə itaətsizliyi önə sürərək, cəsur, lakin zəif cəhdlər göstərirdilər. Bu cür mühüm motivlərə baxmayaraq keçmişdə baş verən həmin qarşıdurmalar çox vaxt diktaturaların dağıdılmasına yardımçı ola, insanların qorxusuna və tabe olmaq vərdişlərinə qalib gələ bilmirdilər. Kədərli haldır ki, həmin fəaliyyətlərin nəticəsində, əzablar və ölümlərin sayı daha da artırıldı və bunların əvəzində nəinki qalibiyyət, heç ümid belə əldə edilmədi.

## Azadlığı zor yolu ilə almalı?

Bu vəziyyətdə nə etməli? Aydın görünən imkanlar qeyri-mümkün hesab olunur. Adətən diktatorlar konstitusiyon və qanuni baryerlərə, hüquqi qərarlara və ictimai fikirə əhəmiyyət vermirlər. Məlum olan vəhşiliklər, işgəncələr, itkin düşənlər və qətllərə görə insanlar elə qərara gəlmişdilər ki, yalnız zorakılıq vasitəsilə diktaturaya son qoyula bilər. Qəzəbli qurbanlar bəzən onlara qarşı

olan fərqli mövqelərə baxmayaraq, vəhşi diktatorlara qarşı yığa bildikləri hər növ güclü və hətta hərbi səviyyəli mübarizələr təşkil edirdilər. Çox vaxt bu insanların mübarizəsi kifayət qədər cəsur olurdu və işgəncə və həyat bahasına başa gəlirdi. Bəzən onların qazancları diqqətçəkici olub, lakin nadir halda onlar azadlıq qazanmağa müvəffəq olublar. Güclü üsyanlar insanları bundan da köməksiz vəziyyətə sala biləcək daha qəddar repressiyalar yarada bilər.

Güclü seçimin qazancı hər nə olursa olsun, bir məqam artıq aydındır. Güc vasitələrində məxfiliyi tətbiq edən kəs elə bir mübarizə yolu seçir ki, bu mübarizənin nəticəsində demək olar ki, zülmkarlar hər zaman üstünlük qazanırlar. Diktatorlar zorakılıq tətbiq etmək üçün hər cür texniki imkana malik və hazırdırlar. Lakin demokratlar fəaliyyətlərini uzun və ya qısa zaman ərzində davam etdirsələr də, sonda əsasən kəskin hərbi gerçəkliklər qaçılmaz olur. Diktatorlar demək olar ki, hər zaman hərbi təchizat, nəqliyyat vasitələri, döyüş sursatları və döyüş qüvvələrinin həcminə görə üstünlük təşkil edrilər. Cəsurluqlarına baxmayaraq demokratlar (demək olar ki, hər zaman) güc etibarilə onlarla bərabər ola bilmirlər.

Əgər adi hərbi üsyan qeyri real hesab edilirsə, bəzi dissidentlər partizan müharibəsinə üstünlük verməyə meyllənirlər. Lakin partizan müharibəsi çox nadir hallarda zülm çəkən əhaliyə ya xeyir gətirir, ya da gətirmir və yaxud demokratiyanın yaranmasına gətirib çıxarır. Partizan müharibəsi heç də mübahisəsiz və aşkar həll yolu deyil, çünki, o, əlalxüsus öz xalqın arasında çoxsaylı itkilərə səbəb olur. Nəzəriyyələrin, strateji təhlillərin və bəzən beynəlxalq himayədarların dəstəyinə baxmayaraq, bu yanaşma heç də uğursuzluğun qarşısının alınması üçün zəmanət deyil. Partizan müharibəsi çox vaxt uzun müddət çəkir. Mülki əhali tez-tez iqtidar tərəfindən köçürülür və beləliklə insanlar kütləvi şəkildə əziyyətə və sosial-ictimai yerdəyişmələrə məruz qalırlar.

Hətta uğurlu partizan mübarizəsi belə, bir çox hallarda, dağıdıcı və uzun sürən mənfi nəticələrə gətirib çıxarır. Dərhal, hücum olunan rejim, əks tədbirlər görmək üçün daha da quduzlaşır. Əgər partizanlar, sonda qələbə qazanarlarsa, onda onlar özlərindən qabaqkı rejimdən də qəddar diktatora çevrilirlər. Buna səbəb, genişlənmiş hərbi qüvvələrin mərkəzləşdirilmiş təzyiqi və demokratik cəmiyyətin qurulması və qorunmasında mühüm rol oynayan cəmiyyətin müstəqil qruplarının və təsisatlarının mübarizə zamanı zəifləməsi və dağılmasıdır. Diktaturaların rəqibləri başqa bir seçim axtarışında olmalıdırlar.

## Çevrilişlər, seçkilər, xarici xilaskarlar?

İlk baxışdan diktaturaya qarşı hərbi çevriliş, bu cür mənfur rejimin aradan qaldırılması üçün ən asan və qısa müddətli bir yol kimi görünə bilər. Lakin, bu texnika ilə bağlı ciddi problemlər mövcuddur. Ən vacib olan odur ki, bu, əhali və elitanın arasında olan güc paylanmasını, hakimiyyətin və onun hərbi qüvvələrinin nəzarəti alltına qoyur. Xüsusi  şəxslərin dövlət vəzifələrindən azad edilməsi çox güman ki, başqa bir qrupun onların yerini tutması ilə nəticələnəcək. Nəzəri olaraq, bu qrup öz davranışında daha zəif və demokratik islahatlara yönələn məhdudiyyətli yollar üçün daha açıq ola bilərdi. Lakin çox vaxt əksinə olur.

Öz niyyətlərinə nail olandan sonra yeni rejimin köhnədən daha zalım və şöhrətpərəst olduğu ortaya çıxa bilər. Uyğun olaraq, böyük ümidlər bəslənən yeni hakimiyyət dəstəsi, demokratiya və insan huquqlarına məhəl qoymadan istədiyini etməyə qabil olacaq. Bu diktatorluq probleminin həlli üçün qəbulolunası cavab deyil.

Diktatorların hakimiyyəti altında keçirilən seçkiləri əhəmiyyətli siyasi dəyişiklik yaradan alət kimi istifadə etmək mümkün deyil. Keçmiş Sovetlər Birliyi ilə idarə olunan Şərqi blok kimi bəzi diktatura rejimləri demokratik görünmək üçün namizədlərin irəli sürülməsinə icazə verirdilər. Lakin həmin seçkilər, artıq diktatorlar tərəfindən seçilmiş namizədlərin, xalq səsverməsində seçilməsinə xidmət edirdi. Bəzən diktatorlar təzyiqlər altında yeni seçkilərə razı ola bilərlər. Lakin sonra öz adamları olan vətəndaşları dövlət vəzifələrinə yerləşdirmək üçün hiylə qururlar. Əgər müxalifətdən olan namizədlərə irəli getməyə imkan verilibsə və ya onlar gerçəkdən seçkilərdə qalib gəliblərsə, bu zaman seçkilərin nəticələrinə məhəl qoyulmur və 1990-cı ildə Birmada və 1993-cü ildə Nigeriyada olduğu kimi “qaliblər” hədə-qorxulara, həbslərə və hətta edama məruz qalırlar. Diktatorlar onları öz taxtlarından sala biləcək seçkilərə yol vermək fikrində deyillər.

Hal hazırda zalım diktatura hakimiyyəti altında əzab çəkən və ya onun mütəmadi hücumlarından yaxa qurtarmaq üçün qaçqın düşən bir çox insanlar, inanmırlar ki, təzyiq altında olanlar özlərini azad edə biləcəklər. Onlar öz millətlərinin yalnız başqalarının fəaliyyəti nəticəsində xilas ediləcəyini gözləyirlər. Bu insanlar xarici qüvvələrə inam bəsləyirlər. Onlar inanırlar ki, yalnız beynəlxalq yardım diktatorları yıxmaq üçün kifayət qədər güclü ola bilər.

Təzyiq altında olanların effektiv fəaliyyət göstərməsinin imkansız olması haqqında anlayış xüsusi dövrlər üçün düzgün sayıla bilər. Qeyd olunduğu kimi, çox vaxt təzyiqə məruz qalan insanlar amansız diktatura ilə bacarmaq imkanlarına inanmırlar və özlərini qorumaq üçün hər hansı bir yol tanımadıqlarına görə mübarizə aparmaq istəmirlər və yaxud mübarizə etməyə

qadir olmurlar. Buna görə də bir çox insanların azadlığa nail olmaq ümidlərini başqalarına həvalə etməsi başa düşüləndir. Bu kənar qüvvə "ictimai fikir", Birləşmiş Millətlər Təşkilatı, xüsusi bir ölkə və beynəlxalq iqtisadi və siyasi sanksiyalar ola bilər.

Bu ssenari sakitləşdirici görünə bilər, lakin kənar xilaskarlara arxalanmaqla bağlı da ciddi problemlər mövcuddur. Belə ümid, tamamilə yersiz ola bilər. Adətən, heç bir xarici xilaskar gəlmir və əgər hər hansı bir xarici dövlət müdaxilə edirsə, buna çox güman ki, etibar edilməməlidir.

Xarici müdaxiləyə olan ümidlərlə bağlı bəzi kəskin realliqlar burada öz əksini tapmışdır:

- Əksər hallarda xarici dövlətlər öz iqtisadi və ya siyasi maraqlarını inkişaf etdirmək məqsədilə diktaturaya göz yumacaqlar və hətta dəstəkləyəcəklər;

- Xarici dövlətlər, həmçinin zülm altında olan insanları, digər məqsədlərini həyata keçirmək üçün, hətta sata və onları azad etmək haqqında olan vədlərinə xilaf da çıxa bilərlər;

- Bəzi xarici dövlətlər həmin ölkə üzərində yalnız öz iqtisadi, siyasi və hərbi nəzarətinə nail olmaq üçün diktaturaya qarşı tədbir görəcəklər;

- Xarici dovlətlər yalnız o zaman müsbət niyyətlərlə fəal müdaxilə edə bilərlər ki, daxili müqavimət hərəkatı artıq diktaturanı yerindən oynatmağa başlasın və beynəlxalq diqqəti həmin rejimin vəhşiliyinə yönəldə bilsin.

Diktaturalar, adətən ölkə içində daxili hakimiyyətin bölüşdürülməsi sayəsində mövcud olurlar. Əhali və cəmiyyət diktaturaya ciddi problemlər yaratmaq üçün çox zəifdirlər, güc və sərvət isə çox az saylı insanların əlində cəmlənib. Diktaturaların davamlılığı birinci növbədə daxili faktorlardan asılıdır, baxmayaraq ki, onlar beynəlxalq fəaliyyətdən faydalana və yaxud onun vasitəsilə zəifləyə bilər..

Beynəlxalq təzyiqlər yalnız o zaman faydalı olur ki, onlar güclü daxili müqavimət hərəkatını dəstəkləyirlər. O zaman, məsələn, beynəlxalq iqtisadi boykotlar, embarqolar, diplomatik əlaqələrin dayandırılması, beynəlxalq təşkilatlardan çıxarılma, Birləşmiş Millətlər Təşkilatı organlarının mühakiməsi və başqalarının böyük köməyi ola bilir. Lakin, güclü daxili müqavimət hərəkati olmasa, başqalarının belə hərəkətlərə əl atması ehtimalı çox azdır.

## Acı həqiqətlərlə üz- üzə

Nəticə çox ağırdır. Əgər kimsə diktaturanı ən effektiv yolla və ən az itkilərlə dağıtmaq istəyirsə, onun qarşısında dörd məsələ dayanır:

- Həmin kəs zülm altında olan insanların cəsarətini, özlərinə inamını, müqavimət bacarıqlarını gücləndirməlidir;

- Zülm altında olan əhalinin müstəqil ictimai qruplarını və təsisatlarını gücləndirməlidir;

- Əzəmətli daxili müqavimət gücü yaratmalıdır; və

- Azadlığa nail olmaq üçün müdrik fikirlərə əsaslanan böyük strateji plan inkişaf etdirməlidir və onu ustalıqla həyata keçirməlidir.

Azadlıq uğrunda mübarizə zamanı özünəinam hissi və ölkə daxilində mübarizlər qrupunun gücləndirilməsi vacibdir. Çarlz Stüart Parnellin 1879 və 1880-ci illərdə İrlandiyada davam edən icarə tətili ilə bağlı mübarizə kampaniyası zamanı dediyi kimi:

Dövlətə arxayın olmağın heç bir faydası yoxdur....... Yalnız öz cəsarətinizə arxayın ola bilərsiniz.... Özünüzə birgə işinizlə yardım edin....Aranızdakı zəif olan kəsləri də gücləndirin..., birlikdə cəmlənin, Sizi təşkil edin, və o zaman siz qazanmalısınız .....

O zaman ki, siz bu məsələni tənzimlənmək üçün yetişdirəcəksiniz, onda və yalnız onda məsələ tənzimlənəcək.[4]

Müdrik strateqiyanın, özünə tam inanan qüvvənin, nizam-intizamlı, cəsur fəaliyyətin və həqiqi gücün qarşısında diktatura, nəhayət, dağılacaq. Lakin, ən azından yuxarıda qeyd edilən dörd tələb yerinə yetirilməlidir.

Yuxarıdakı müzakirələrin göstərdiyi kimi, sonda insanların diktaturalardan azad olması, insanların özlərini azad etmək qabiliyyətlərindən asılıdır. Qeyd olunan uğurlu siyasi itaətsizlik və ya - siyasi məqsədlər üçün dinc mübarizələr göstərir ki, insanların özlərini azad etmək üçün vasitələri var, lakin bu variant lazimi şəkildə inkişaf etdirilməyib. Biz bu seçimi növbəti fəsillərdə

---

[4] Patrik Sarsfild O'Hegarti, ittifaq altında İrlandiyanın Tarixi, *1880-1922* (London: Metuen, 1952), səh.490-491.

tədqiq edəcəyik. Lakin, öncə biz diktaturaları parçalamağın bir vasitəsi kimi danışıqlar məsələsinə nəzər salaq.

## İKİ
## DANIŞIQLARIN TƏHLÜKƏLƏRİ

Diktatura ilə qarşılaşarkən ciddi problemlərə rast gələndə (Birinci fəsildə təsvir edildiyi kimi) bəzi insanlar passiv mövqeyə çəkilə bilərlər. Başqaları isə demokratiyaya nail olmaq üçün heç bir perspektiv görmədiklərindən, "barışıq", "kompromis" və "danışıqlar" yolu ilə bəzi müsbət elementləri qorumaq və qəddarlıqlara son qoymaq ümidi ilə elə bir nəticəyə gələ bilərlər, onlar, həmişə davamedəcək diktatura ilə razılıq əldə etməlidirlər. Real variantların çatışmamazlığı üzündən həmin fikirlər, zahirən cəlbedici görünə bilər.

Qəddar diktaturalara qarşı ciddi mübarizə heç də xoşagələn perspektiv deyildir. Nəyə görə, məhz bu yolla getmək vacibdir? Sadəcə hər bir kəs müdrikcəsinə öz sözünü deyib, diktaturaya tədricən son qoymaq üçün danışıqlar üsulu tapa bilməzmi? Məgər, demokratlar diktatorların ümumi humanist hisslərini oyandırıb onların hökmranlığını yavaş-yavaş azaldaraq, sonda tamamilə demokratiyanın qurulmasına yol aça bilməzlərmi?

Bəzən sübut edilir ki, həqiqət heç də ancaq bir tərəfə məxsus deyil. Ola bilər ki, demokratlar, çətin şəraitdə müsbət niyyətlərdən irəli gələrək hərəkət edən diktatorları düzgün anlamayıblar? Ya da ola bilər ki, bəziləri düşünürlər ki, ölkəni düşdüyü vəziyyətdən çıxartmaq üçün diktatorları təşviq etməklə və ya inandırmaqla hakimiyyətdən xoşluqla əl çəkməyə vadar edə bilərlər. O fikir də irəli sürülə bilər ki, diktatorlar "heç-heçəyə" də razılaşa bilərlər və bu zaman hər bir kəs nə isə qazanır. Gələcək mübarizənin riski və ağrıları gərəksiz ola bilərdi. Bu o, zaman önə çəkilə bilər ki, demokratik müxalifət münaqişəni sülh və danışıqlar yolu ilə həll etmək niyyətində olsun (hətta buna bəzi bacarıqlı şəxslər və yaxud başqa bir dövlət də yardım edə bilərdi). Məgər, bu çətin və məşəqqətli

mübarizəyə nisbətən, hətta bu hərbi müharibə yolu ilə deyil, dinc mübarizə metodu ilə aparılsa belə, üstün hal deyilmi?

## Danışıqların dəyəri və məhdudiyyətlər

Danışıqlar münaqişələr zamanı bəzi problemlərin həllində çox faydalı alət ola bilər və münasib halda onlardan imtina edib əhəmiyyət verməmək düzgün olmazdı.

Kompromis mümkün olan çox nadir situasiyalarda köklü problemlər təhlükə altında olmadığı halda, danışıqlar münaqişəni həll etmək üçün çox əhəmiyyətli vasitə ola bilər. Daha yüksək əmək haqqı uğrunda aparılan əmək mübarizəsi, danışıqların münaqişədəki rolu üçün yaxşı nümunədir: danışıqlar yolu ilə tənzimlənmə nəticəsində hər iki tərəf arasında öncədən təklif edilən məbləğin artırılması hardasa təmin oluna bilər. Qanuni həmkarlar ittifaqları çərçivəsində aparılan əmək münaqişələri, zalım diktaturanın davamlı mövcudluğuna şərait yaradan və ya siyasi azadlığın qurulmasını təhlükə altına alan münaqişələrdən qat-qat fərqlənir.

Təhlükə altında olan problemlər dini prinsiplərə, insan azadlığı məsələsinə və ya bütünlüklə cəmiyyətin gələcək inkişafına təsir göstərəcək dərəcədə ciddidirsə, danışıqlar qarşılıqlı qaneedici həll yolunu təmin edə bilmir. Bəzi mühüm məsələlərə əsaslanaraq burada heç bir kompromis olmamalıdır. Bu cür dəyişmə danışıqlar vasitəsilə deyil, mübarizə vasitəsilə baş verəcək. Bu o demək deyil ki, danışıqlardan heç vaxt istifadə olunmamalıdır. Göstərilən məqam budur ki, danışıqlar qüvvətli demokratik müxalifətin mövcud olmadığı halda, güclü diktaturanın aradan qaldırılması üçün real yol deyil.

Təbii ki, ancaq danışıqları seçmək olmaz və mövqelərində yaxşıca möhkəmlənib özlərini təhlükəsiz hiss edən diktatorlar demokratik rəqibləri ilə danışıqlara razı olmaya da bilərlər və ya danışıqlar başlayan andan onları aparan bəzi demokratik şəxslər yoxa çıxar və onlar haqda bir də heç vaxt eşidilməz.

## Razılaşdırılmış təslim?

Diktaturaya rəqib olan, danışıqlara üstünlük verən və diktatura əleyhinə olan ayrı-ayrı şəxslər və qrupların çox vaxt müsbət motivləri olacaq. Xüsusilə, aydındır ki, illər boyu qalibiyyətsiz davam edən vəhşi diktaturaya qarşı hərbi mübarizə zamanı, siyasi mənsubiyyətindən asılı olmayaraq hər kəs sülh tərəfdarı olacaq. Danışıqlar xüsusən o zaman demokratlar tərəfindən qəbul ediləcək ki, diktatorlar açıq-aydın hərbi üstünlüyə malikdir və xalq arasında

dağıntılar və qurbanlar atrıq dözülməz həddə çatıb. O zaman zorakılığın dayandırılması və demokratların bəzi məqsədlərinin qorunub saxlanılması məqsədilə hər hansı bir başqa yolu araşdırmaq lazım olacaq.

Diktaturanın danışıqlar yolu ilə demokratik müxalifətə "sülh" təklif etməsi təbii ki, riyakarlıqdan başqa bir şey deyil. Zorakılığa, sadəcə dikatatorların öz millətinə qarşı olan müharibənin dayandırılması ilə dərhal son qoyula bilər. Onlar öz təşəbbüsləri ilə sövdələşmədən, insan ləyaqətinə və haqlarına hörməti bərpa edib, siyasi məhbusları azad edib, işgəncələrə son qoyub, hərbi əməliyyatları dayandırıb, hakimiyyətdən geri çəkilib və millət qarşısında üzr istəyə bilərlər.

Əgər diktatura güclüdürsə, lakin narahatlıq yaradan müqavimət mövcuddursa, diktatorlar sanki "sülh" yaratmaq məqsədilə təslim haqqında müxalifətlə danışıqlar apara bilərlər. Danışıqlara çağırış müraciət kimi də səslənə bilər, lakin, danışıqlar otağında ciddi təhlükələrin gizlənməsi ehtimalı da yox deyildir.

Digər tərəfdən əgər müxalifət həddindən artıq güclüdürsə və diktaturaya ciddi təhlükə yaradırsa bu zaman diktatorlar mümkün qədər nəzarətlərini və sərvətlərini qoruyub saxlamaq niyyətilə danışıqlara əl ata bilərlər. Lakin demokratlar heç bir halda diktatorlara niyyətlərinə nail olmaq üçün yardım etməməlidirlər.

Demokratlar, diktatorların danışıqlar prosesində qura biləcəyi tələlərdən ehtiyat etməlidirlər. Diktaturanın zorakılığının hələ də davam etdiyi halda, əsas siyasi azadlıqlar məsələlərinin daxil edildiyi danışıqlara çağırış, diktatorların demokratları sülh yolu ilə təslim etmək məqsədi daşıya bilər. Bu tip münaqişələrdə danışıqların yeganə münasib rolu yalnız o vaxt ortaya çıxa bilər ki, həlledici mübarizənin sonunda diktatorların hakimiyyəti effektiv olaraq dağıdılıb və indi onlar beynəlxalq hava limanına təhlükəsiz şəxsi keçid yolu axtarırlar.

## Danışıqlarda güc və ədalət

Əgər bu mühakimə danışıqlar üçün həddindən artıq kəskin bir təsvirə oxşayırsa, yəqin ki, bununla bağlı romantizm bir az azaldılmalıdır. Danışıqların necə işləməsi ilə bağlı aydın düşünmək tələb olunur.

Danışıqlar o demək deyil ki, hər iki tərəf bərabərlik əsasında birlikdə əyləşib söhbət edir və onların arasında münaqişəyə səbəb olan fikir ayrılıqlarını həll edirlər. Burada iki faktı yada salmaq vacibdir. Birincisi, danışıqlar, qəbul

olunan razılaşmanın tərkibini müəyyən edən əks baxışların və məqsədlərin nisbi ədaləti deyil. Ikincisi, əldə edilmiş razılaşmanın məzmunu hər bir tərəfin hakim qüvvəsi tərəfindən artıq dərəcədə müəyyən edilir.

Bəzi mürəkkəb suallar da nəzərə alınmalıdır. Əgər bir tərəf danışıqlar masası arxasında razılaşmaya gələ bilmirsə, o biri tərəf sonda öz məqsədinə çatmaq üçün nə edə bilər? Tərəflərdən biri razılaşma əldə olunandan sonra, onun şərtlərini pozaraq məqsədlərinə nail olmaq üçün malik olduğu qüvvələrdən istifadə edərək razılaşmanı pozursa, o biri tərəf nə etməlidir?

***Danışıqlarda tənzimlənmə*** təhlükə altındakı məsələlərin düzgünlüyü və yanlışlığını araşdırmaqla əldə edilmir. Bunların kifayət qədər müzakirə olunmasına baxmayaraq, danışıqlarda real nəticəni mübarizə aparan qrupların mütləq və nisbi hakimlik situasiyalırını qiymətləndirməsindən əldə etmək olar. Demokratlar onların minimal tələblərinin yerinə yetirliməsinə təminat verilməsi üçün nə edə bilərlər? Diktatorlar isə nəzarəti saxlayıb demokratları neytrallaşdırmaq üçün nə edə bilərlər? Başqa cür desək, əgər razılaşma əldə edilirsə, bu çox güman ki, tərəflərin hər ikisinin öz güclərini müqayisə edib, açıq mübarizənin nə ilə qurtaracağını hesablayaraq əldə etdiyi nəticədir.

Eyni zamanda, hər bir tərəfin razılaşma əldə etmək üçün nədən imtina etmək niyyətində olduğuna diqqət yönəlməlidir. Uğurlu danışıqlarda kompromis əldə olunur və fikir ayrılıqları ortadan qaldırılır. Hər tərəf istədiklərinin bir hissəsini əldə edib, məqsədlərinin o biri hissəsindən əl çəkir.

Bəs ekstremal diktaturaların mövcud olduğu hallarda demokratik qüvvələr diktatorlara nəyi qurban verə bilərlər? Diktatorların hansı niyyətlərini demokratik qüvvələr qəbul etməlidirlər? Demokratlar diktatorlara (ya siyasi partiya ya da ki, hərbi mübahisə) gələcək dovlətdə konstitusiya ilə təsdiq edilmiş daimi rolu təqdim etməlidirlərmi? Bunun harası demokratiyadır?

Hətta danışıqlarda hər şeyin yaxşı getdiyini fərz etsək belə, ortaya çox mühüm bir sual çıxır: Nəticədə hansı növ sülh əldə ediləcək? Demokratların mübarizəyə başlayıb və davam edəcəyi halda yaşam, olduğundan daha yaxşı, yoxsa pis olacaq?

## “Razılaşa bilən” diktatorlar

Diktatorların hökmranlığının arxasında çoxsaylı məqsədlər və niyyətlər dura bilər: hakimiyyət, vəzifə, sərvət, cəmiyyətin dəyişilməsi və s. Bunu yadda saxlamalıyıq ki, əgər onlar hakim vəzifələrdə qalsalar bunların heç biri

dəyişilməyəcək. Danışıqlar zamanı diktatorlar çalışacaqlar ki, öz məqsədlərini qorusunlar.

Hər hansı bir sülh tənzimlənməsi zamanı diktatorların verdiyi vədlərə baxmayaraq heç kəs heç bir zaman unutmamalıdır ki, diktatorlar demokratik müxalifətin tabeliyini təmin etmək məqsədilə hər şey vəd verə və sonra isə həmin razılaşmanı həyasızcasına poza bilərlər.

Əgər demokratlar repressiyanı durdurmaq məqsədilə qarşıdurmanı dayandırmağa razı olsalar, onlar çox məyus ola bilərlər. Qarşıdurmanın dayandırılması çox nadir hallarda repressiyanın azalmasına gətirib çıxarır. Daxili və beynəlxalq müxalifətin cilovlanan gücü aradan qaldırılan kimi, diktatorlar öz təzyiq və zorakılıqlarını öncəkindən daha kobud şəkildə həyata keçirə bilərlər. Əksər hallarda, xalq qarşıdurmasının dağıdılması diktaturanın nəzarətini və sərtliyini məhdudlaşdıran tarazlaşdırılmış qüvvəni aradan qaldırır. Bu zaman tiranlar kimə qarşı istəsələr hərəkət edə bilərlər. Krişnalal Şridharaninin sözləri ilə desək, "Belə ki, tiran yalnız bizim o yerimizə zərbə vura bilər ki, bizim orada müqavimət göstərmək üçün gücümüz kifayət deyil".[5]

Fundamental məsələlərin təhlükə altında olduğu münaqişələrdə dəyişikliklər etmək üçün mühüm olan danışıqlar yox, müqavimətdir. Demək olar ki, bütün hallarda diktatorları hakimiyyətdən uzaqlaşdırmaq üçün müqavimət davam etməlidir. Çox zaman uğur, tənzimlənmənin razılaşdırılması ilə müəyyən edilmir, mümkün olan müqavimətin ən münasib və güclü vasitələrinin ağılla istifadəsi nəticəsində əldə olunur. Azadlıq uğrunda mübarizə aparanlar üçün mümkün olan ən güclü vasitələrin siyasi itaətsizlik və ya qeyri-zorakı mübarizə olduğu barədə iddiamızı qarşıda daha geniş detallarla tədqiq edəcəyik.

## Sülhün hansı növü?

Əgər demokratlar və diktatorlar ümumiyyətlə sülh haqqında danışmalıdırlarsa, bura aid olan təhlükələri nəzərə alıb, onlara son dərəcədə aydın baxmağa böyük ehtiyac var. "Sülh" sözünü işlədən hər bir kəs, heç də azadlıq və ədalətli sülhün tərəfdarı deyil. Amansız təzyiqlərə tabe olmaq və yüz minlərlə insanlara qarşı qəddarlıq törədən zalım diktatorlara passiv güzəştlər etmək, heç də gerçək sülh sayıla bilməz. Hitler dəfələrlə onun arzularına tabe olmağı nəzərdə tutan sülhə çağırırdı. Diktatorların sülhü, bir çox hallarda həbsxana və məzar sülhüdür.

---

[5] Krişnalal Şridharani, *Dinc Müharibə: Qandinin Metodları və онун Nailiyyətlərinin Öyrənilməsi* (Nyu York: Harkort, Breis, 1939, və təkrar çap Nyu-York və Londonda : Qarland Nəşriyyatı, 1972), səh. 260.

Burada başqa təhlükələr də var. Danışıq aparan müsbət -niyyətli şəxslər bəzən bu prosesin özünü danışıqların məqsədləri ilə qarışıq salırlar. Danışıqların demokratik iştirakçıları və ya danışıqlara yardım etmək üçün dəvət olunmuş xarici mütəxəssislər bir hərəkətlə diktatorları dövləti zəbt etdikləri, insan haqlarını pozduqları və vəhşiliklər törətdikləri üçün əvvəllər məhrum olunduqları daxili və beynəlxalq legitimliklə, təmin edə bilərlər. Bu qeyri-legitimlik statusu ilə diktatorlar möhtac olduqları idarəetməni ömürlük davam etdirə bilməzlər. Sülhün tərəfdarları onlara bu statusu təqdim etməməlidir.

## Ümidverici səbəblər

Yuxarıda qeyd olunduğu kimi, müxalifət liderləri demokratiya uğrunda ümidsiz mübarizə hissindən irəli gələrək, danışıqlar aparmağı vacib hesab edə bilərlər. Lakin həmin o gücsüzlük hissi dəyişilə bilər. Diktaturalar daimi deyil. Diktatura altında yaşayan insanlar zəif qalmamalıdırlar və diktaturaların da güclü qalmağına imkan verilməməlidir. Aristotel bundan uzun müddət əvvəl qeyd etmişdi: ".... Oligarxiya və tiranlıq hər hansı bir başqa quruluşdan daha qısa müddətlidir.... Tiraniya heç vaxt uzun çəkməyib."[6] Eləcə də müasir diktaturalar da kövrəkdirlər. Onların zəif nöqtələri daha da zəiflədilə və diktatorların hakimiyyəti dağıdıla bilər". (Dördüncü fəsildə biz bu zəif nöqtələri detalları ilə tədqiq edəcəyik).

Yaxın tarixə nəzər salsaq, diktaturanın kövrəkliyini və onların müqayisəcə qısa bir zaman ərzində dağıla biləcəyini görə bilərik. Dövrümüzdə, Polşada Kommunist diktaturasını dağıtmağa 10 il sərf edilmişdir (1980 - 1990), Şərqi Almaniya və Çexoslovakiyada bunun üçün bir neçə həftə lazım olub (1989). El Salvadorda və Qvatemalada 1944-cü ildə möhkəmlənmiş vəhşi hərbi diktaturaya qarşı mübarizələrin demək olar ki, hər birinə iki həftə sərf edilmişdir. İranda Şahın güclü hərbi rejiminin təməli bir neçə ay ərzində sarsıdılıb. 1986-cı ildə Filippində Markosun diktatura hakimiyyəti insanların gözü qarşısında bir neçə həftə ərzində yıxıldı: müxalifətin gücü gözəçarpan vəziyyət alan kimi, Amerika Birləşmiş Ştatları dərhal Prezident Markosdan üz döndərdi. 1991-ci ilin avqustunda Sovetlər Birliyinində köhnə rejim tərəfdarlarının çevrilişinə cəhd, siyasi itaətsizliyin köməyi ilə bir neçə gün ərzində blokadaya məruz qaldı. Bundan sonra onun tərkibində uzun müddət hökmranlıq altında yaşayan ölkələr sadəcə gunlər, həftələr və aylar ərzində öz müstəqilliyini bərpa etdilər.

---

[6] Aristotel, *Siyasət,* T. A. Sinclair tərəfindən tərcümə olunub (Harmondsvort, Midlseks, İngiltərə və Baltimor, Merilənd ştatı: Pinqvin Kitabları 1976 [1962]), Kitab V, Fəsil 12, səh. 231 və 232.

Zorakı vasitələrin həmişə tez işləməsi və dinc vasitələrin isə müəyyən zamana ehtiyac olduğu haqda, məlum köhnəlmiş fikirlər etibarsızdır. Şəraitin və cəmiyyətin dərin dəyişiklikləri üçün xeyli vaxtın tələb olunmasına baxmayaraq, bəzən dinc vasitələrlə diktaturaya qarşı fəal mübarizənin özü nisbətən tez keçir.

Danışıqlar nə davamlı məhvedici müharibə, nə də kapitulyasiya üçün yeganə alternativ deyil. Yuxarıda qeyd olunan və birinci fəsildə verilən siyahıdakı misallar təsvir edir ki, hər ikisini, həm sülhü *və* həmçinin azadlığı istəyənlər üçün başqa bir variant var: siyasi itaətsizlik.

# ÜÇ

## GÜC HARADAN GƏLİR

Həm Azadlıq, həm də sülhün mövcud olduğu cəmiyyətə nail olmaq təbii ki, asan bir məsələ deyil. Bunun üçün böyük strateji bacarıqlar, təşkilat və planlaşdırma tələb olunur. Hər şeydən öncə isə bunun üçün qüvvə tələb olunur. Demokratlar öz qüvvələrini effektiv olaraq istifadə etmək qabiliyyətinə malik olmasalar, diktaturanı yıxıb yerində siyasi azadlıq qurmağa ümid bəsləyə bilməzlər.

Amma bu necə mümkün ola bilər? Demokratik müxalifət diktaturanı və onun geniş hərbi və polis şəbəkələrini dağıtmaq üçün hansı qüvvəni səfərbər edə bilər? Cavablar çox vaxt əhəmiyyət verilməyən siyasi güc anlayışıyla bağlıdır. Bu anlayışın öyrənilməsi əslində o qədər də çətin bir məsələ deyil. Bəzi mühüm həqiqətlər kifayət qədər sadədir.

### "Meymun sahibi" haqqında hekayə

Məsələn, on dördüncü əsrdə yaşayan Çinli Liu-Cinin yazdığı bu hekayə unudulmuş siyasi qüvvə anlayışını kifayət qədər yaxşı qeyd edir:[7]

Çu feodal dövlətində bir qoca, meymunları saxlamaqla dolanırdı. Çunun camaatı onu "cu gong" (meymun sahibi) adlandırırdılar.

---

[7] Bu tarixcənin дягиг adı "Hiylə ilə İdarə etmə", müəllifi *Yu-li-zi* Liu Ci -dir(1311-1375). Sidney Tai tərəfindən tərcümə olunub, bütün haqları qorunur. Yu-li-zi isə həmçinin Liu Ci-nin ləqəbidir. Bu tərcümə ilk olaraq *Dinc Sanksiyalar*-da dərc edilmişdir: *Albert Eynştein Institutundan xəbərlər* (Cambridge, Mass.), Buraxılış IV, Sayı№ 3, (Qış 1992-1993), səh. 3.

Hər səhər qoca meymunları öz bağçasına yığıb onlardan ən böyüyü olana əmr edirdi ki, başqalarını da yığıb dağlara getsinlər və orada ağaclardan və kollardan meyvə yığsınlar. Bir qayda olaraq hər meymun yığdığının onda birini qocaya verirdi. Bunu etməyi bacarmayanlar amansızcasına qamçılanırdılar. Bütün meymunlar ağır əziyyət çəkirdilər lakin bu haqda şikayət etməyə cəsarət etmirdilər.

Bir gün balaca meymun başqa meymunlardan soruşdu: "Bütün meyvə ağaclarını və kolları qoca kişi əkib?" Başqa meymunlar cavab verdilər: "Yox onlar təbii olaraq yetişiblər". Balaca meymun soruşmaqda davam etdi: "Bəyəm biz qoca kişidən icazəsiz meyvələri götürə bilmərik?" Başqaları cavab verdilər: "Hə, biz hamımız götürə bilərik". Balaca meymun davam etdi: "Onda, biz nəyə görə bu qoca kişidən asılı olmalıyıq, nəyə görə biz hamımız ona xidmət etməliyik?"

Balaca meymun sözlərini deyib qurtarmamış bütün meymunlar başa düşdülər və qəflət yuxusundan oyandılar.

Həmin gün meymunlar qocanın yuxuladığını görən kimi, onların saxlanıldığı hasarın barrıkadalarını söküb, hasarı tamamilə dağıtdılar. Onlar həmçinin qocanın ehtiyatda saxladığı meyvələri də özləri ilə meşəyə apardılar və geri qaytarmadılar. Qoca kişi isə aclıqdan öldü.

Yu-li-zi deyir ki, dünyada bəzi insanlar öz millətlərini ədalətli prinsiplərlə yox, hiylə ilə idarə edirlər. Məgər onlar həmin meymun sahibinə oxşamırlarmı? Onlar öz çaşqınlıqlarını anlamırlar. Onların millətləri maariflənən kimi bu hiylələr artıq işləmir".

## Siyasi hakimiyyətin mühüm mənbələri

Prinsip çox sadədir. Diktatorlar idarə etdikləri insanların dəstəyini ona görə tələb edirlər ki, bunsuz onlar siyasi hakimiyyətin mənbələrini qoruya və təmin edə bilmirlər. Bu siyasi hakimiyyət mənbələri aşağıdakılardır:

- *Nüfuz,* insanlar inanmalıdırlar ki, hakimiyyət qanunidir və onların mənəvi borcu ona tabe olmaqdır;
- *İnsan resursları,* hakimiyyətə tabe olan, onunla əməkdaşlıq edən və onu dəstəkləyən fərdlərin və qrupların sayı və roludur;
- *Bacarıq və biliklər,* rejim tərəfindən xüsusi fəaliyyətləri yerinə yetirmək üçün lazımdır və əməkdaşlıq edən şəxslər və qruplar tərəfindən təmin edilir;

- *Görünməyən faktorlar,* insanları hakimiyyətə tabe olmağa və dəstəkləməyə vadar edən psixoloji və ideoloji faktorlardır;
- *Maddi resurslar*, hakimiyyətin nəzarətində olan və ya əmlaka, təbii ehtiyatlara, maliyyə resurslarına, iqtisadi sistemə, rabitə və nəqliyyat vasitələrinə olan imkanlarının səviyyəsidir;
- *Sanksiyalar*, rejimin mövcudluğu və siyasətinin yerinə yetirilməsi üçün tabeçilik və əməkdaşlıqdan imtina edənlərə və əməkdaşlıq etməyənlərə qarşı ya istifadə olunan, ya da hədələyici funksiya daşıyan cəzalardır.

Lakin bütün bu mənbələr rejimin qəbul olunmasından, millətin tabeçiliyi və itaətindən, saysız-hesabsız insanların əməkdaşlığından və cəmiyyətin bir çox təsisatlarından asılıdır. Bunlara isə etibar yoxdur.

Tam əməkdaşlıq etmək, itaət və dəstək vermək, lazımi hakimiyyət mənbələrinin qüvvədə olmasını artırır və nəticədə hər hansı bir hakimiyyətin gücünü genişləndirir.

Başqa tərəfdən isə, təcavüzkarlarla və diktatorlarla millətin və təsisatların əməkdaşlıqdan yayınması məhdudlaşır və hakimlərin asılı olduğu bütün hakimiyyət mənbələrinin qüvvəsini ayırmağa səbəb olur. Həmin mənbələr qüvvədə olmasa hakimlərin gücü zəifləyir və sonda tükənir.

Təbii olaraq, diktatorlar xaraktercə onların istədiklərini etmək imkanlarını təhlükəyə alan ideya və hərəkətlərə qarşı çox həssas olurlar. Buna görə çox güman ki, diktatorlar tabe olmayanlara, mübarizə aparanlara və ya əməkdaşlıq edə bilməyənlərə hədə-qorxu gəlirlər və yaxud onları cəzalandırırlar. Lakin bu hələ məsələnin sonu deyil. Repressiya və hətta vəhşiliklər, heç də həmişə rejimin fəaliyyəti üçün tabeçiliyin və əməkdaşlığın lazımi dərəcədə bərpa olunmasına gətirib çıxarmır.

Əgər repressiyalara baxmayaraq, güc mənbələri xeyli vaxt ərzində zəifləyib və ya parçalanıbsa, diktatura üçün ilkin nəticələr inamsızlıqdan və qarışıqlıqdan ibarət ola bilər. Bu, çox güman ki, dikaturanın gücünün açıq aydın zəifləməsinə gətirib çıxaracaq. Zaman ötdükcə, güc mənbələrinin məhdudlaşdırılması, rejimin iflic olmasına və gücsüzlüyünə, ciddi hallarda isə dağılmasına səbəb ola bilər. Diktatorların hakimiyyəti yavaş-yavaş və ya sürətlə siyasi aclıqdan ölə bilər.

Hər hansı bir dövlətdə azadlığın və tiraniyanın səviyyəsi, tabe edilənlərin, azadlığa nail olmaq və onları kölələşdirmək səylərinə qarşı müqavimət göstərmək arzusunun və niyyətinin yüksək səviyyədə qərara alınması ilə nəticələnir.

Milli düşüncəyə zidd olaraq, hətta totalitar diktaturalar belə, idarə etdikləri millət və cəmiyyətdən asılı vəziyyətdədirlər. Siyasətşünas alim Karl V. Doyçun 1953-cü ildə bildirdiyinə görə:

Totalitar hakimiyyət yalnız o zaman güclü olur ki, ondan çox istifadə etmək vacib deyil. Əgər totalitar hakimiyyət hər dəfə bütöv millətə qarşı istifadə edilirsə, çox güman ki, onun hökmranlığı uzun sürməyəcək. Başqa hakimiyyətlərlə müqayisədə totalitar rejimlərə tabeliyi altında olan insanları idarə etmək üçün daha çox güc tələb olunduğuna görə, belə rejimlər millətin itaəti kimi etibarlı və geniş yayılmış qaydalara daha çox ehtiyac duyurlar; çünki, onlar lazım olan anda ən azından əhalinin əhəmiyyətli bir hissəsinin aktiv dəstəyinə arxayın ola bilməlidilər.[8]

On doqquzuncu əsrin ingilis hüquq nəzəriyyəçisi Ostin Con diktaturanın narazı insanlarla üzləşməsi situasiyasını təsvir edib. Ostin təsdiq edirdi ki, əgər xalqın böyük bir hissəsi hakimiyyəti ləğv etmək niyyətindədirsə və bunun üçün repressiyalara hazırdırsa, bu zaman hakimiyyətin imkanları, onun tərəfdarları və hətta xaricdən gələn dəstək, bu cür nifrət doğuran hakimiyyəti qoruyub saxlaya bilməz. Ostin belə bir nəticəyə gəlmişdi ki, itaətsiz xalqı daimi tabeçiliyə və itaətə qayıtmağa məcbur etmək mümkün deyil.[9]

Nikolo Makiavelli hələ çoxdan təsdiq edirdi ki, kimə qarşı ki, bütün xalq düşməndir, o, özünü heç vaxt təhlükəsiz hiss edə bilmir; onun zalımlığı artdıqca rejimi də zəifləyir."[10]

Bu anlayışların praktiki siyasi tətbiqi Nasist işğalına qarşı Norveçin qəhrəman partizanlarının və birinci fəsildə göstərildiyi kimi, cəsur polyaklar, çexlər, slovenlər və Kommunist təcavüz və diktaturasına qarşı çıxan və sonda Avropada Kommunist hakimiyyətinin dağılmasına nail olanların vasitəsilə nümayiş etdirilmişdir. Təbii ki, bu yeni bir fenomen deyildir: Itaətsiz qarşıdurmalar ən azından miladdan 494 il əvvələ, plebeylərin öz ağaları olan Roma aristokratiyası ilə əməkdaşlıqdan imtina etmələrinə təsadüf edir.[11]

---

[8] Karl V. Doyç, "Monolitdəki Çatlar," Karl J. Fridrix, buraxılışında, *Totalitarism* (Cambridge, Mass.: Harvard Universitetinin çapı, 1954), səh. 313-314.

[9] Con Ostin, *Müsbət Qanunun Hüquq və Fəlsəfəsi Haqqında Məruzələr* (Beşinci buraxılış, Robert Kembel tərəfindən yoxlanılıb və redaktə olunub, 2 buraxılış., London: Con Mürrey, 1911 [1861]), Buraxıl. I, səh. 296.

[10] Nikolo Makiavelli, "Livinin Birinci On Kitabı Üzrə Danışıqlar" *Nikolo Makiavellinin danışıqlarında* (London: Rutlec və Kegan Pollar, 1950), Buraxiliş. I, səh. 254.

[11] Cin Şarpın, bax *Qeyri-zorakı Fəaliyyət Siyasəti.* (Boston: Porter Sarcent, 1973), səh. 75 və başqa tarixi misallar.

İtaətsizlik mübarizələrindən müxtəlif vaxtlarda, hər yerdə, yəni Asiya, Afrika, Amerika, Avstraliya, Sakit okean adalarında və həmçinin Avropa xalqları istifadə edib.

Buna görə, hakimiyyətin gücünə hansı səviyyədə nəzarət olunacağı və ya olunmayacağını müəyyən edən ən mühüm faktorlardan üçü bunlardır: (1) insan kütlələrinin hakimiyyətin gücünə məhdudiyyətlər qoymaq *arzusu*, (2) Nisbətən müstəqil təşkilatların və təsisatların kollektiv surətdə güc mənbələrini aradan qaldırmaq *bacarığı,* və (3) xalqın razılaşmaqdan və dəstək verməkdən imtina etmək *qabiliyyəti.*

### Demokratik güvvə mərkəzləri

Demokratik cəmiyyətin xarakterik cəhətlərindən biri də ondan ibarətdir ki, burada dövlətdən asılı olmayan çoxsaylı qeyri-hökumət qrupları və təsisatları mövcud olur. Məsələn, bura ailələr, dini təşkilatlar, mədəniyyət assosiasiyaları, idman klubları, iqtisadi təsisatlar, ticarət şuraları, tələbə asossiasiyaları, siyasi partiyalar, kəndlər, qonşuluq asosiasiyaları, bağçılıq klubları, insan haqları təşkilatları, musiqi qrupları, ədəbiyyat cəmiyyətləri və s. daxildir. Bu orqanlar öz məqsədlərinə xidmət etmək və sosial ehtiyacları ödəməyə kömək etmək üçün çox vacibdirlər.

Eyni zamanda bu orqanların böyük siyasi mənası var. Onlar elə qrup və təsisat əsaslarını təmin edirlər ki, onların vasitəsilə insanlar öz maraqlarına, fəaliyyətlərinə və ya niyyətlərinə qarşı ədalətsizlik gördükləri vaxt, cəmiyyətin idarə olunmasına təsir edə və ya dövlətin başqa qruplarına müqavimət göstərə bilirlər. Belə qrupların üzvləri olmayan, təcrid olunmuş şəxslər adətən cəmiyyətin başqa bir hissəsinə, hakimiyyətə və təbii ki, diktaturaya da əhəmiyyətli bir təsir göstərə bilmirlər.

Deməli əgər bu cür qrupların muxtariyyətinin və azadlığının qarşısı diktatorlar tərəfindən alınarsa, əhali nisbətən dahaköməksiz vəziyyətə düşəcək. Eyni zamanda əgər bu təsisatlar özləri mərkəzi rejim tərəfindən diktaturasayağı nəzarət olunsalar, və yaxud nəzarət olunan yeniləri ilə əvəz edilsələr, onlar həm fərdi üzvləri, həm də cəmiyyətin sahələrini idarə edə bilərlər.

Lakin əgər bu (dövlət nəzarəti olamayan) müstəqil vətəndaş təsisatlarının muxtariyyətı və azadlığı dəstəklənərsə və ya bərpa olunarsa, onlar siyasi itaətsizliyin istifadə edilməsində çox mühüm rol oynaya bilərlər. Gətirilən misalların ümumi xüsusiyyəti ondan ibarətdir ki, bu misallarda xalqın və onun

təsisatlarının cəsarətlə və kütləvi şəkildə siyasi itaətsizlikdən istifadə etməsi nəticəsində diktaturalar parçalanıb və ya zəifləyib.

Öncə qeyd olunduğu kimi, bu güc mərkəzləri xalqın təzyiq göstərə və diktatura nəzarətinə qarşı çıxa bilməsi üçün təsisatların təməlini qoyub. Gələcəkdə, bunlar azad cəmiyyətin mühüm struktur təməlinin bir hissəsi olacaqlar. Onların davamlı müstəqilliyi və yüksəlməsi, çox vaxt azadlıq mübarizəsinin uğurunun təminatıdır.

Əgər diktatura cəmiyyətin müstəqil orqanlarını sıradan çıxarmaqda və ya onların üzərində nəzarət qurmaqda kifayət qədər uğur əldə edibsə, mübarizə aparanlar, hələ mövcud olan və ya qismən nəzarət altına düşən orqanların üzərində demokratik nəzarət qurmaq məqsədilə, mütləq yeni müstəqil cəmiyyət qrupları və təsisatları yaratmalıdırlar. 1956-1957-ci illərdə davam edən Macarıstan inqilabı zamanı çoxsaylı əlaqəsiz demokratik şuralar ortaya çıxmışdı və hətta təsisatların və idarəçiliyin bütöv federal sistemini yaratmaq niyyətilə bir neçə həftə ərzində birləşmişdilər. 1980-ci illərin sonunda Polşada fəhlələr qeyri-qanuni həmrəylik şuraları yaratmışdılar və bəzi hallarda rəsmi Kommunist hakimiyyətinin həmkarlar ittifaqının nəzarətini əllərinə almışdılar.

Əlbəttə ki, bunların heç biri diktaturaların zəifləməsinin və dağıdılmasının asan olduğunu və hər cəhdin məqsədə çatacağını bildirmir. Bu, birmənalı olaraq, mübarizənin qurbansız olacağını göstərmir, çünki çox güman ki, hələ də diktatorlara xidmət edənlər əməkdaşlığı və tabeçiliyi bərpa etmək məqsədilə təzyiq etməyə cəhd göstərəcəklər.

*Lakin yuxarıda qeyd olunan güc anlayışı, diktaturanın düşünülmüş olaraq dağıtmağın mümkün olduğu mənasını daşımır.* Diktaturaların, elə bir özünəməxsus xüsusiyyəti var ki, bacarıqla həyata keçirilən siyasi itaətsizlik onları həddən artıq kövrək edə bilər. Gəlin bu xüsusiyyətləri detallarıyla araşdıraq.

# DÖRD
## DİKTATURANIN ZƏİF CƏHƏTLƏRİ MÖVCUDDUR

Çox vaxt diktaturalar əlçatmaz görünür. Xüsusi xidmət, polis, hərbi qüvvələr, həbsxanalar, ölüm düşərgələri və icra bölmələri bu güclü hakimiyyətin nəzarəti altındadır. Ölkənin maliyyəsi, təbii resursları və istehsalı çox vaxt diktatorlar tərəfindən özbaşınalıqla ələ keçirilir və onların niyyətlərini dəstəkləmək məqsədilə istifadə edilir.

Lakin bu hekayə hələ tamam deyildir.

### "Axilles dabanı"nın tapılması

Klassik Yunanıstandan olan bu mif, əlçatmaz sayılanların kövrəkliyini yaxşı təsvir edir. Döyüşçü Axillesi heç bir zərbə zədələyə bilməz və heç bir qılınc onun dərisindən içəri keçə bilməzdi. Guman edilirdi ki, Axilles hələ uşaq olarkən anası onu sehirli olan Stiks çayının sularına salmışdı və bunun nəticəsində onun bədəni hər bir təhlükədən qorunurdu. Lakin bir problem var idi. Uşağı suya salan zaman, suyun onu tamam yuyub aparmaması üçün anası uşağın dabanından tutmuşdu və buna görə də uşağın bədəninin bu kiçik hissəsinə sehirli su dəyməmişdi. Axilles artıq böyüyüb kişi olanda hamiya elə gəlirdi ki, o düşmənlərin silahları üçün əlçatmazdır. Lakin Troyaya qarşı döyüş zamanı bu zəiflik haqda bilən bir nəfər öyrədilmiş düşmən öz oxunu Axillesin, zərbəyə davamsız, yeganə kövrək yeri olan dabanına yönəltdi. Döyüş məğlubiyyətlə nəticələndi. Bu günə kimi "Axillesin dabanı" ifadəsi hər hansı bir insanın, planın və ya təsisatın zərbə vurulan zaman zərbəyə davamsız, kövrək yeri anlamına gəlir.

Həmin prinsip amansız diktaturalara da aiddir. Əgər diktatorların zəif cəhtləri aşkarlanaraq məhz o cəhətlərə zərbə yönəlsə, həmçinin onlara da daha az itkilərlə və böyük sürətlə qalib gəlmək mümkündür.

### Diktaturaların zəif cəhətləri

Diktaturaların zəif tərəfləri içirəsində aşağıdakıları qeyd etmək olar:

1. Sistemin işləməsi üçün lazım olan çoxsaylı insanlar, qruplar və təsisatlar əməkdaşlıqdan yayına və ya məhdudlaşdırıla bilər.
2. Rejimin keçmiş siyasətinin tələbləri və nəticələri, onun hal- hazırda münaqişəli siyasi həyatın tələblərini qəbul edib, yerinə yetirmək üçün olan imkanlarını bir qədər məhdudlaşdırır.
3. Davamlı olaraq yeni situasiyalara dərhal uyğunlaşmaq üçün sistemin hərəkətlərində imkanlar məhdud ola bilər.
4. Hazırki məsələlər üçün nəzərdə tutulmuş işçi heyətin və resursların, yeni tələblər üçün istifadə edilməsi asan olmaya bilər.
5. Diktatorların tabeliyində olan məmurlar öz böyüklərini narazı salmaqdan qorxaraq, onlara qərar qəbul etmək üçün vacib olan məlumatı dəqiqliyi ilə və ya tamamilə çatdırmaqdan yayına bilərlər.
6. İdeologiya tənəzzülə uğraya və sistemin mifləri və rəmzləri laxlaya bilər.
7. Əgər kiminsə reallığı görmək qabiliyyətinə təsir edən ideologiya mövcuddursa, bu ideologiyaya olan davamlı sadiqlik, mühüm şəraitə və ehtiyaclara kifayət qədər diqqətin ayrılmamasına səbəb ola bilər.
8. Bürokratiyanın gücünün və səlahiyyətinin azalması, və ya nəzarətin və təlimatların həddini aşması sistemin siyasəti və əməliyyatlarını təsirsiz edə bilər.
9. Daxili təsisatlar arasında olan münaqişələr, şəxsi ədavət və düşmənçiliklər diktaturanın əməliyyatına zərər vura və ya məhv edə bilər.
10. Ziyalılar və tələbələr şəraitə, məhdudiyyətlərə, doktrinalizm və repressiayalara cavab olaraq narahatlçılıq keçirə bilərlər.
11. Geniş kütlə bir müddətdən sonra rejimə qarşı laqeyd, inamsız və hətta düşmənçilik mövqeyində ola bilər.
12. Regional, sinfi, mədəni və ya milli fikir ayrılıqları daha da sərt şəkil ala bilər.
13. Diktaturanın iyerarxiya hakimiyyəti hər zaman hansısa dərəcədə və bəzən son dərəcədə dəyişkən olur. Şəxslər yalnız bir vəzifədə qalmırlar, onlar başqa vəzifələrə enə və ya qalxa bilərlər, və yaxud, tamamilə aradan götürülüb başqa şəxslərlə əvəz oluna bilərlər.
14. Hərbi qüvvə və polis bölmələri öz niyyətlərinə nail olmaq məqsədilə, hətta möhkəmlənmiş diktatorların istəklərinə qarşı çıxaraq, həmçinin dövlət çevrilişinə də əl ata bilərlər.
15. Əgər diktatura yenidirsə, onun köklənməsi üçün zamana ehtiyac var.
16. Diktaturada bu dərəcədə çoxsaylı qərarlar bu qədər az insanlar tərəfindən verilirsə, mühakimə, siyasət və fəaliyyətdə səhvlərin mövcudluğuna güman çoxdur.

17. Əgər rejim bu cür təhlükələrdən özünü qorumaq məqsədilə nəzarəti və qərarların qəbulunu mərkəzləşdirirsə, onun hakimiyyətin mərkəzi qollarının üzərində qurduğu nəzarətin qarşısı gələcəkdə alınacaq.

## Diktaturaların zəif tərəflərinə hücum

Bu cür zəiflikləri bilərkən, demokratik müxalifət öncədən sistemi sürətlə dəyişmək və ya parçalamaq məqsədilə "Axilles daban" larını daha da zəiflətməyə cəhd göstərə bilər.

Deməli nəticə aydındır: güclü görünməsinə baxmayaraq, bütün diktaturaların zəif cəhətləri, daxili səmərəsizliyi, şəxsi rəqabəti, təsisatlarının bacarıqsızlığı, təşkilat və bölmələri arasında münaqişələri mövcuddur. Zaman ötdükcə, adətən bu zəifliklər rejimin effektivliyini azaldaraq onu dəyişən şərait və düşünülmüş qarşıdurma üçün daha kövrək edir. Rejimin heç də nail olmaq arzusunda olduğu hər şey sona yetməyəcək. Bəzən, məsələn, hətta Hitlerin verdiyi əmrlər yerinə yetirilmirdi, çünki onun iyerarxiyası altında olanlar bu əmrləri yerinə yetirməkdən imtina edirdilər. Bizim müşahidə etdiyimiz kimi, diktatura rejimi bəzi hallarda hətta sürətlə də parçalana bilər.

Bu o demək deyil ki, diktaturalar risk və itkilərsiz sarsıla bilərlər. Azadlıq uğrunda göstərilən hər bir fəaliyyət kursuna risklər, potensial əziyyətlər daxildir və onun işləməsi üçün zamana ehtiyac duyulacaq. Təbii ki, heç bir fəaliyyət vasitəsi, hər hansı bir situasiya üçün sürətli uğuru təmin edə bilməz. Lakin diktaturanın görünə bilən zəif cəhətlərinə qarşı aparılan mübarizələr, rejimin qat -qat güclü olduğu halda, ona qarşı mübarizə etməyə cəhd göstərməkdən daha çox şansa malikdir. Sual isə bu mübarizənin *necə* həyata keçirilməsindən ibarətdir.

# BEŞ

## GÜCÜN İSTİFADƏSİ

Birinci fəsildə qeyd etdiyimiz kimi, diktaturaya qarşı hərbi müqavimət, ona zəif tərəfindən vurulan zərbə deyil, əksinə, daha çox ən güclü olan yerindən vurulan zərbə deməkdir. Hərbi qüvvələr, döyüş sursatı ehtiyatları, silah texnologiyası və s. kimi üsullarla rəqabət yolunu seçən müqavimət hərəkatları özlərini açıq aşkar əlverişli olmayan vəziyyətə salırlar. Diktaturalar, demək olar hər dəfə bu sahədə daha çox resurslar əldə edərək üstünlük təşkil edirlər. Xilas olmaq üçün xarici qüvvələrə arxalanmaq təhlükələri də müzakirə edilmişdir. Ikinci fəsildə biz diktaturaları dağıtmaq vasitəsi kimi danışıqlara etimad etməyin problemlərini təhlil etmişdik.

Bu zaman, demokratik müqavimətə aşkar üstünlüyü təklif edən və diktaturaların aşkarlanmış zəif cəhətlərini ağırlaşdırmağa yönələn hansı vasitəsələr mövcud olacaqdır? Üçüncü fəsildə müzakirə olunan siyasi hakimiyyətin texnikasını hansı fəaliyyət texnikası kapitalizasiya edəcək? Seçimin alternativi siyasi itaətsizlikdir.

Siyasi itaətsizliyin aşağıdakı xarakteri var:

- O, nəticənin diktatura tərəfindən seçilmiş mübarizə vasitələri ilə həll edilməsini qəbul etmir.
- Rejim üçün döyüşmək çətindir;
- O, unikal olaraq diktaturanın zəif cəhətlərini daha da çətinləşdirə və onun güc mənbələrini ayıra bilər;
- O, fəaliyyətdə dağınıq ola bilər, lakin eyni zamanda, xüsusi bir məqsəd üzərində cəmlənə bilər;
- O, əməldə və mühakimədə diktatorlar tərəfindən səhvlərin buraxılmasına səbəb olur;
- O, azlıqların qəddar hakimliyinə son qoymaq məqsədilə aparılan mübarizədə xalqı cəmiyyətin bütöv qrupları və təsisatları kimi effektiv olaraq istifadə edə bilər;
- O, təsirli qüvvənin cəmiyyətdə paylanmasını yayaraq, demokratik cəmiyyət qurulmasını və qorunmasını daha da mümkün edir.

### Dinc mübarizənin işlənmə yolları

Hərbi potensiallarına uyğun olaraq, rəqiblərə müxtəlif işlər görmələri üçün təsir göstərmək, münaqişənin sülh yolu ilə həlli üçün şərait yaratmaq və ya rəqib rejimin dağıdılması kimi məsələlər çərçivəsində, siyasi itaətsizlikdən müxtəlif məqsədlər üçün istifadə etmək olar. Lakin, siyasi itaətsizliyin işlədiyi yollar zorakılığın yollarından xeyli fərqlənir. Hər iki metodun mübarizəni *qazanmaq* vasitələri olduğuna baxmayaraq, onlar bunu tamamilə fərqli vasitələr və nəticələrlə edirlər. Biz zorakı mübarizənin yollarını və nəticələrini kifayət qədər tanıyırıq. Fiziki silahlardan qorxutmaq, yaralamaq, öldürmək və sıradan çıxartmaq məqsədilə istifadə edilir.

Dinc mübarizə zorakılıqdan daha mürəkkəb və fərqli mübarizə vasitələrindən ibarətdir. Burada əksinə olaraq, mübarizə əhali və cəmiyyət təsisatlarının tətbiq etdiyi psixoloji, ictimai, iqtisadi və siyasi silahlarla aparılır. Bunlar müxtəlif etiraz, nümayiş, əməkdaşlıqdan imtina, boykotlar, etimadsızlıq və əhali qarşıdurması kimi adlar altında tanınıblar. Öncədən qeyd edildiyi kimi, hər bir hakimiyyət, yalnız o vaxta qədər hökmranlıq edə bilər ki, ölkə əhalisinin və cəmiyyət təsisatlarının əməkdaşlığı, tabeçiliyi və itaəti onun hökmranlığı üçün vacib olan güc mənbələrini təmin edir. Siyasi itaətsizlik, hakimiyyətin həmin mənbələrinin parçalanması üçün zorakılıqdan daha uyğundur.

## Dinc silahlar və nizam - intizam

Ötən siyasi itaətsizlik kampaniyalarında olan ümumi səhv ondan ibarətdir ki, onların hər biri tətil və kütləvi nümayiş kimi iki vasitəyə arxalanardı. Əslində müqavimət strateqlərinə mübarizəni tələb olunan səviyyədə cəmləyib və parçalamağa imkan verən çoxsaylı metodlar məlumdur.

Dinc mübarizələrin təxminən iki yüzə yaxın xüsusi metodu qeydə alınmışdır və təbii ki, indi bu rəqəm daha da artıb. Bu metodlar üç geniş kateqoriya üzrə bölünüblər: etiraz və inandırma, əməkdaşlıqdan imtina və müdaxilə. *Dinc etirazın və inandırmanın vasitələri* (54 metod) rəmzi nümayişlər, paradlar, marşlar və gecələri yatmamaqdan ibarətdir. *Əməkdaşlıqdan imtina* üç kateqoriya üzrə bölünür: a) ictimai əməkdaşlıqdan imtina (16 metod); b) iqtisadi əməkdaşlıqdan imtina, boykotlar (26 metod) və tətillər (23 metod); c) siyasi əməkdaşlıqdan imtina (38 metod). *Psixoloji, fiziki, ictimai, iqtisadi və ya siyasi metodlarla dinc müdaxilə*, dinc işğal, və paralel dövlət (41 metod) kimi yekun qruplardır. Bu metodların 198-nin siyahısı “Əlavə” şəklində bu nəşrə daxil edilmişdir.

Geniş miqyasda, mütəmadi olaraq tətbiq edilən və diqqətlə seçilmiş həmin metodların əhəmiyyətli sayının istifadəsi, müdrik strategiya və müəyyən taktika kontekstində təlim keçilən vətəndaşlar tərəfindən mənimsənilərsə, hər hansı bir qeyri-qanuni rejim üçün ciddi problemlər yaratmaq iqtidarındadır. Bu bütün diktaturalar üçün tətbiq edilir.

Hərbi metodlardan fərqli olaraq dinc mübarizənin metodları birmənalı olaraq təhlükə altında olan məsələlər üzərində cəmlənib. Məsələn, diktatura ilk öncə siyasi problem olduğu üçün dinc mübarizənin siyasi yolları həlledici ola bilər. Bura diktatorların legitimliyinin inkar edilməsi və onların rejimləri ilə əməkdaşlıqdan imtina aid edilə bilər. Əməkdaşlıqdan imtina həmçinin xüsusi siyasətlərə qarşı da tətbiq edilə bilər. Bəzi hallarda, gecikmələr və təxirə salınmalar sakitcəsinə və hətta məhvedici şəkildə istifadə oluna bilər, baxmayaraq ki, başqa hallarda açıq tabesizlik və itaətsiz ictimai nümayiş və tətillər hər kəs üçün aşkardır.

Digər tərəfdən isə, əgər diktatura iqtisadi təzyiqlərə qarşı kövrəkdirsə və ya əhalinin ona qarşı incikliyinin çoxu iqtisadiyat ilə bağlıdırsa, boykot və tətil şəklində iqtisadi aksiyalar uyğun mübarizə metodu ola bilər. Diktatorların iqtisadi sistemi istismar etmək cəhdləri, məhdudlaşdırılmış ümumi tətillər, geriləmə və vacib ekspertlərin yardımdan imtina etməsi (və ya vacib ekspertlərin yox olması) ilə qarşılaşa bilər. Müxtəlif növ tətillərin seçilərək istifadə edilməsi, nəticə etibarilə istehsal, nəqliyyat, xammalın təminatı və məhsulların paylanması ilə müşayiət oluna bilər.

Bəzi dinc mübarizə metodları insanlardan elə bir fəaliyyətlər həyata keçirməyi tələb edir ki, onların normal yaşadıqları həyatla heç bir əlaqəsi olmur. Məsələn, vərəqələrin paylanması, gizli mətbuatın fəaliyyəti, aclıq elan etmək, küçələrdə qalmaq və s. Bu metodları, ekstremal hallar istisna olmaqla, bəzi insanlar üzərlərinə götürməkdə böyük çətinlik çəkə bilərlər.

Dinc mübarizənin başqa vasitələri isə əksinə, demək olar ki, insanlardan öz həyatlarına davam etməyi tələb edir, lakin bir az fərqli yollarla. Məsələn, vuruşmaq əvəzinə gördükləri iş haqqında hesabat verə bilərlər və sonra düşünülmüş olaraq həmişəkindən daha ləng və ya effektsiz işləyə bilərlər. "Səhvlər" şüurlu olaraq daha tez-tez buraxıla bilər. Kimsə lazım olan vaxtda işləmək üçün ya "xəstə" ya da "imkansız" ola bilər, və ya kimsə sadəcə işləməkdən imtina edə bilər. Fəaliyyətin yalnız dini deyil, siyasi inamları əks etdirdiyi halda, kimsə dini xidmətə üz tuta bilər. Kimsə uşaqları, hücumçuların təbliğatından qorumaq niyyətilə evdə və ya qeyri-qanuni dərslər zamanı maarifləndirə bilər. Kimsə öncələr rahatlıqla qoşula biləcəyi "tövsiyyə" edilən və ya tələb olunan təşkilatlara qoşulmaqdan imtina edə bilər.. Bu cür fəaliyyət

növlərinin oxşarlığı, insanların həmişəki fəaliyyətlərindən və normal həyatlarından az dərəcədə uzaqlaşması çox insanlar üçün milli azadlıq mübarizəsində iştirakını kifayət qədər asanlaşdıra bilər.
Dinc mübarizə və siyasi itaətsizlik kampaniyası zorakılıqdan əhəmiyyətcə çox fərqlənən yollarla işlədiyinə görə, hətta məhdud zorakılıq müqaviməti əkstörədici olacaq və bu səbəbdən mübarizəni diktatorların qat-qat üstün olduğu (hərbi müharibə) bir mübarizəyə döndərəcək. Dinc nizam - intizam uğur üçün bir açardır və diktatorların və onların agentlərinin törətdiyi provakasiyalara və vəhşiliklərə baxmayaraq, bu metod dəstəklənməlidir.

Güclü rəqibə qarşı dinc nizam-intizamın dəstəklənməsi, dinc mübarizədə dəyişmənin dörd mexanizminin işini asanlaşdırır (aşağıda müzakirə olunanlar). Dinc mübarizə eyni zamanda, siyasi olan silahsız döyüş prosesində həddindən artıq vacibdir. Bu prosesdə dinc hərəkatçılara qarşı rejimin hədsiz qəddarlığı, diktatorların özlərinə qarşı çevrilir və rejimin həmişəki tərəfdarları, üçüncü şəxslər və ümumi əhali arasında, müqavimətçilərə dəstək yaradaraq, öz rütbələri arasında fikir ayrılıqlarına səbəb olur.

Lakin, bəzi hallarda diktaturaya qarşı məhdud da olsa zorakılıq ortaya çıxır. Rejimə qarşı nifrət və dağıntılar zorakılığa doğru partlayış yarada bilər, və ya, bəzi qruplar dinc mübarizənin mühüm rolu ilə tanış olsalar belə, zorakı vasitələrindən əl çəkməyə bilərlər. Bu hallarda, siyasi itaətsizlikdən əl çəkməyə ehtiyac yoxdur. Lakin, zorakı aksiyaları mümkün olan dərəcədə dinc mübarizədən uzaqlaşdırmaq vacib olacaq. Bu coğrafiya, əhali qrupları, vaxt seçimi və məsələlərin şərtləri əsasında edilməlidir. Əks halda zorakılıq, siyasi itaətsizliyin potensialca qat-qat daha güclü və uğurlu ola bilən istifadəsinə çox mənfi təsir göstərə bilər.

Tarixi qeydlər göstərir ki, siyasi itaətsizlik zamanı ölən və yaralıların sayı, hərbi müharibə zamanı ola biləcək itkilərdən qat-qat az olur. Bundan başqa, bu tip mübarizə sonsuz qətl və qəddarlıq siklinə əsaslanmır.

Dinc mübarizə dövlətin güclü repressiya qorxusunun yox olmasına (və ya daha geniş nəzarətə alınmasına) meyillidir və bunu ondan tələb edir. Həmin rədd və ya qorxu üzərində olan nəzarət, diktatorların ümumi əhali üzərindəki hakimiyyətinə son qoymaq üçün yol açan elementdir.

## Aşkarlıq, məxfilik və yüksək standartlar

Sirr, hiylə və gizli konspirasiya dinc mübarizənin istifadə edildiyi hərəkat üçün çox çətin problemlər yaradır. Çox vaxt niyyətləri və planları siyasi polis və

məlumat agentlərindən məxfi saxlamaq mümkün deyildir. Hərəkatın perspektivlərindən irəli gələn məxfilik yalnız qorxu üzərində köklənməyib, lakin o müqaviməti ruhdan salan və aksiyada iştirak edəcək insanların sayını azalda bilən qorxuya səbəb olur. Bu həmçinin hərəkatın içində kiminsə xəbərçi və ya agent olması ilə bağlı, çox vaxt əsassız olan, şübhələrə və günahlandırmalara səbəb ola bilər. Məxfilik həmçinin hərəkatın dinc qalmaq qabiliyyətinə də təsir göstərə bilər. Əksinə, niyyətlər və planlarla bağlı aşkarlıq yalnız qarşı təsirə malik deyil, o həmçinin müqavimət hərəkatının gerçəkdən çox qüvvətli olması obrazını yaradır. Əlbəttə ki, problem irəli sürüldüyündən daha mürəkkəbdir və yəgin ki, müqavimət işlərində məxfi qalması tələb olunan əhəmiyyətli aspektlər də mövcuddur. Dinc mübarizə dinamikasına cəlb olunan və diktaturanın müşahidə vasitələrini bilən adamlar üçün konkret vəziyyətlərdə dəqiq informasiyaya əsaslanmış qiymətləndirmə tələb olunur.

Gizli nəşrlərin redaktəsi, çapı və paylanması, ölkə daxilindən qeyri qanuni radio verilişlərin yayımlanması və diktaturanın fəaliyyəti haqqında məlumatların yığılması, kimi işlər yüksək səviyyəli məxfiliyin tələb olunduğu xüsusi məhdud fəaliyyətlərə aiddir. Dinc mübarizədə davranışın yüksək standartlarının təmin olunması bütün mərhələlərdə vacibdir. Qorxmazlıq və dinc nizam-intizamın qorunması kimi faktorlar hər zaman tələb olunur. Xüsusi dəyişikliklər edə bilmək üçün çoxsaylı insanlara böyük ehtiyac olacağını yadda saxlamaq vacibdir. Lakin, bu çoxsaylı insanları etibarlı iştirakçı etmək yalnız hərəkatın yüksək standartlarına əməl etməklə mümkündür.

### Qüvvələr münasibətlərinin dəyişməsi

Strateqlər yadda saxlamalıdırlar ki, siyasi itaətsizliyin tətbiq edildiyi münaqişə, irəli və geri davamlı addımlayan və daima dəyişən mübarizə sahəsidir. Heç nə dəyişməz deyil. Hakimiyyətin münasibətləri, həm mütləq həm də nisbi olaraq daimi və sürətli dəyişikliklərə məruz qalırlar. Bu müqavimət göstərənlərin repressiya yerinə dinc inadlarını davam etdirmələri ilə mümkün olur.

Bu tip münaqişəli situasiyalarda mübarizə aparan tərəflərin müvafiq gücünün müxtəlif olması çox güman ki, tezliklə baş verən və dəyişik siyasi əhəmiyyətli nəticələrə meylli olan zorakı münaqişələrdən daha fövqəladədir. Bu müxtəlifliklərə görə, müqavimət göstərənlərin xüsusi hərəkətlərinin nəticələri güman ki, onların baş verdiyi xüsusi vaxt və yerdən çox uzaqda olacaq. Bu təsirlər bu və ya başqa qrupun güclənməsi və ya zəifləməsində geri çəkilə bilər.

Bundan əlavə, dinc qrup öz fəaliyyətləri ilə *rəqib qrupun* artıq dərəcədə nisbi gücünün böyüməsi və ya azalmasına təsir göstərə bilər. Məsələn, nizam-intizamlı dinc, cəsur mübarizə, diktatorların vəhşilikləri qarşısında, narahatlıq, etibarsızlıq, ümidsizlik və ekstremal vəziyyətlərdə, hətta diktatorların öz əsgərləri və xalqın arasında üsyan doğura bilər. Bu müqavimət həmçinin diktaturanın beynəlxalq mühakiməsinin artması ilə də nəticələnə bilər. Bundan başqa, siyasi itaətsizliyin bacarıqlı, nizam-intizamlı və inadkar istifadəsi, bir qayda olaraq, diktaturaya sakit dəstək verən və ya ümumiyyətlə münaqişədə neytral qalan insanların müqavimətdə iştirakının get-gedə artması ilə nəticələnə bilər.

## Dəyişmənin dörd mexanizmi

Dinc mübarizə dörd istiqamətdə dəyişiklik yaradır. Birinci mexanizm ən az rast gəlinəndir, baxmayaraq ki, bu da nə vaxtsa baş verib. Rəqib qrupun üzvləri cəsur dinc müqavimətçilərə qarşı tətbiq olunan repressiyalara məruz qalanların əziyyətləri ilə emosional şəkildə hərəkətə gətirilirlərsə və ya məntiqi olaraq inanırlar ki, mübarizə aparanların motivləri ədalətlidir, bu zaman onlar müqavimətçilərin məqsədlərini qəbul etmək qərarına gələ bilərlər. Bu mexanizm çevriliş adlanır. Baxmayaraq ki, dinc mübarizədə çevriliş halları bəzən baş verir, onlar çox nadirdirlər və münaqişələrin çoxunda bu ya tamamilə, ya da əhəmiyyətli miqyasda baş vermir.

Daha çox dinc mübarizə, münaqişə vəziyyətini və cəmiyyəti dəyişərək elə işləyir ki, rəqiblər sadəcə istədiklərini edə bilmirlər. Bu dəyişiklik daha üç başqa mexanizm yaradır: yola vermə, dinc məcburiyyət və məhv olma. Bunlardan hansının baş verməsi nisbi və ya mütləq hakimiyyət münasibətlərinin demokratların xeyrinə dəyişilməsinin səviyyəsindən asılıdır.

Əgər məsələlər fundamental deyilsə, müxalifətin tələbləri məhdud kampaniyada hədələyici sayılmırsa və güc çəkişməsi qüvvələrin münasibətlərini hansısa dərəcədə dəyişibsə, münaqişə razılaşmanın əldə edilməsilə, fərqlərin aradan qaldırılması və kompromis ilə nəticələnə bilər. Bu mexanizm *yola vermə* adlanır. Bir çox tətilllər bu üsulla tənzimlənir, məsələn, hər iki tərəf bəzi məqsədlərinə nail olur, lakin heç biri bütün istədiklərini əldə etmir. Hakimiyyət, bəzi üstünlüklər əldə etmək üçün, məsələn gərginliyi azaltmaq, “ədalətli” ifadəsinin yaranması və rejimin beynəlxalq obrazını cilalamaq məqsədilə bu cür tənzimləməyə meyilli ola bilər. Bu vacibdir, çünki, yola vermə yolu ilə tənzimlənmənin qənaətbəxş hesab edildiyi məsələlərin

seçimi çox ehtiyatla həyata keçiriləcək. **Diktaturanı yıxmaq məqsədilə aparılan mübarizə bunlardan heç biri deyildir.**

Dinc mübarizə çevriliş və ya yola vermə mexanizmlərində nəzərdə tutulanlardan daha güclü ola bilər. Əməkdaşlıqdan kütləvi şəkildə imtina etmə və itaətsizlik, siyasi və sosial vəziyyəti, xüsusən qüvvələrin münasibətlərini, elə dəyişə bilər ki, hakimiyyətin iqtisadi, sosial və siyasi proseslərinə nəzarət imkanlarını diktatorların faktiki olaraq əllərindən ala bilər. Rəqibin hərbi qüvvələri o qədər ümidsiz ola bilərlər ki, onlar artıq müqavimətçiləri yatırmaq üçün verilən əmrləri yerinə yetirməzlər. Baxmayaraq ki, rəqib liderlər öz vəzifələrində qalırlar və öz əsas məqsədlərinə sadiqdirlər, onların effektiv fəaliyyət göstərmək imkanları əllərindən alına bilər. Buna *dinc məcburiyyət* deyilir.

Bəzi ekstremal vəziyyətlərdə, dinc məcburiyyəti törədən şəraitlər hələ də davam edir. Rəqiblərin liderliyi gerçəkdən bütün fəaliyyət imkanlarını itirir və onların öz hakimiyyət strukturu sıradan çıxır. Partizanların özünü idarəetməsi, əməkdaşlıqdan imtina etməsi və itaətsizliyi o dərəcədə bitmiş bir hala çatır ki, indi rəqiblər hətta öz üzərlərində nəzarətin çatışmadığını hiss edirlər. Rəqiblərin bürokratik aparatı, öz liderlərinə tabe olmaqdan imtina edir. Rəqiblərin qoşunları və polisi üsyan edir. Rəqiblərin həmişəki tərəfdarları və ya xalq öz keçmiş liderlərindən üz çevirir və onların ümumiyyətlə idarəetməyə hər hansı bir hüququnun olduğunu inkar edirlər. Beləliklə ona keçmişdə olan yardım və tabeçilik sarsılır. Dördüncü dəyişmə mexanizmi, rəqiblərin sisteminin *yıxılması,* o dərəcədə tamdır ki, onların hətta təslim olmağa belə kifayət qədər gücü olmur. Rejim sadəcə hissələrə bölünür.

Azadlıq strategiyalarının planlaşdırılmasında bu dörd mexanizmi yadda saxlamaq vacibdir. Bunlar bəzən, sadəcə təsadüfən işləyirlər. Lakin, bunların birinin və ya daha çoxunun münaqişədə düşünülmüş dəyişmə mexanizmi kimi seçilməsi, strategiyaların ifadə edilməsini və qarşılıqlı gücləndirməsini mümkün edəcək. Hansı mexanizmin (və ya mexanizmlərin) seçilməsi, mübarizə aparan qrupların mütləq və ya nisbi qüvvəsindən və dinc mübarizə qrupunun münasibətləri və məqsədləri daxil olmaqla, çoxsaylı faktorlardan asılı olacaq.

## Siyasi itaətsizliyin demokratikləşdirici təsirləri

Zorakılıq sanksiyalarının mərkəzləşdirici təsirinə baxmayaraq, dinc mübarizə texnikasının istifadəsi, siyasi cəmiyyətin bir neçə yolla demokratikləşməsinə gətirib çıxarır.

Demokratikləşmənin nəticələrinin bir tərəfi mənfidir. Yəni, hərb vasitələrinin əksinə olaraq, bu texnika diktaturanı qurmaq və ya ona dəstək vermək

məqsədilə hakim elitanın komandası altında xalqa qarşı yönələ bilən repressiya vasitələrini təmin etmir. Siyasi itaətsizlik hərəkatının liderləri, onların davamçılarına təsir göstərə və təzyiq edə bilərlər, lakin fikir ayrılıqlarına görə və ya başqa liderlər seçdiklərinə görə onları nə həbs, nə də edam edə bilməzlər.

Demokratikləşmənin başqa bir tərəfi isə müsbətdir. Yəni, dinc mübarizə əhalini elə müqavimət vasitələri ilə təmin edir ki, onlar mövcud və ya potensial diktatorlarla mübarizədə öz azadlıqlarına nail olmaq və onu qorumaq üçün isitfadə edilə bilər. Aşağıda, dinc mübarizənin malik olduğu bir neçə müsbət demokratikləşmə nəticələri göstərilmişdir:

- Rejimin hədə qorxularına və zorakılıq repressiyalarına meydan oxumaq məqsədilə, dinc mübarizənin tətbiq edilmə təcrübəsi, əhalidə özünə əminliyin yaranması ilə nəticələnə bilər;
- Dinc mübarizə əhalinin üzərində hər hansı bir diktatura qrupları tərəfindən qurulmuş qeyri demokratik nəzarətə müqavimət göstərmək imkanını verə bilən əməkdaşlıqdan imtina və itaətsizlik vasitələrini təmin edir;
- Dinc mübarizə repressiya nəzarətinin qarşısında söz azadlığı, mətbuat azadlığı, müstəqil təşkilatlar və azad toplaşma kimi demokratik azadlıqların işləməsini irəli sürmək niyyətilə istifadə edilə bilər;
- Öncə müzakirə edildiyi kimi, dinc mübarizə cəmiyyətin xilas edilməsi, intibahı, və müstəqil qrupların və təsisatların güclənməsinə gətirib çixarır. Əhalinin gücünü səfərbər etmək və hər hansı potensial diktatorların effektiv gücünü məhdudlaşdırmaq imkanlarına malik olduqlarına görə bunlar çox vacibdirlər. Dinc mübarizə əhalini elə bir vasitələrlə təmin edir ki, o vasitələr represiya polisinə və diktatura hakimiyyətinin hərbi aksiyalarına qarşı müqavimət göstərmək üçün güc əldə etməyə imkan verir;
- Dinc mübarizə əhalini elə vasitələrlə təmin edir ki, onların köməyi ilə əhali və müstəqil təsisatlar demokratiyanın marağına uyğun olaraq hakim elitanın güc mənbələrini ya məhdudlaşdıra, ya da parçalaya bilər və bununla onun hakimiyyətinin davam etmək imkanlarına təhlükə yarada bilər.

### Dinc mübarizənin mürəkkəbliyi

Bu müzakirədən göründüyü kimi, dinc mübarizə, çoxsaylı metodların, dəyişmə mexanizminin silsiləsi və spesifik davranış tələblərinin daxil olduğu ictimai fəaliyyətin mürəkkəb texnikasıdır. Siyasi itaətsizliyin xüsusilə diktaturaya qarşı

effektiv olması üçün diqqətlə planlaşdırılması və hazırlanması tələb olunur. Ehtimal olunan iştirakçılar onlardan nəyin tələb olunduğunu başa düşməlidirlər. Resursların əldə edilməsi lazım olacaq. Strateqlər dinc mübarizənin hansı yolla daha effektiv tətbiq edilməsini təhlil etməlidirlər. Indi isə biz öz diqqətimizi bu sonuncu kritik elementə yönəldirik: Strateji planlaşdırmaya ehtiyac.

# ALTI

## STRATEJİ PLANLAŞDIRMAYA EHTİYAC

Diktaturaya qarşı siyasi itaətsizlik kampaniyası müxtəlif yollarla başlaya bilər. Əvvəllər bu mübarizə demək olar ki, hər zaman planlaşdırılmamış olub və mahiyyətcə qəza ilə nəticələnib. Əvvəlki ilkin hərəkətlərə səbəb olan müvafiq narazılıqlar geniş olaraq dəyişmişdilər lakin çox vaxt, dəyərli bir şəxsin həbsi və ya öldürülməsi, yeni repressiya siyasəti və ya qaydası, qida azlığı, dini inamlara hörmətsizlik və ya mühüm əlaqədar bir hadisənin ildönümü kimi, yeni vəhşiliklər bu hadisə ilə bağlı idi. Bəzən diktatura tərəfindən edilən xüsusi bir hərəkət kütlələri o dərəcədə qəzəbləndirib ki onlar üsyanın nə ilə bitəcəyi haqda heç bir təsəvvürə malik olmadan aksiyaya başlamışdılar. Başqa hallarda cəsur bir şəxs və ya kiçik bir qrupun hərəkəti dəstəklənir. Başqaları, müəyyən bir narazılığı özlərinin yaşadıqları haqsızlıqlarla oxşar saya bilərlər və beləliklə onlar da bu mübarizəyə qoşula bilərlər. Bəzən, kiçik bir qrup və ya bir şəxs tərəfindən müqavimətə müəyyən bir çağırış gözlənilməz geniş dəstək ala bilər.

Gözlənilməzliyin bəzi müsbət cəhətlərinin olmasına baxmayaraq, onun çox vaxt fəsadları da olur. Çox vaxt demokratik müqavimətçilər diktaturanın vəhşiliyinin onlara ciddi əziyyətlər verməsini və müqaviməti dağıtmasını gözləmirlər. Bəzən, demokratların planlarının olmamasından kritik məsələlər fəlakətlə nəticələnir. Hətta, zülmkar sistem məğlubiyyətə uğradıqdan sonra, demokratik sistemə keçidlə rəftar haqda planın olmaması, yeni diktaturanın ortaya çıxmasına səbəb olur.

### Realist planlama

Planlaşdırılmamış milli fəaliyyət şübhəsiz ki, gələcəkdə diktaturalara qarşı yönələn üsyanlarda əhəmiyyətli rol oynayacaqdır. Lakin, indi diktaturanı məğlub etmək üçün ən effektiv yolları hesablamaq, siyasi vəziyyətin və milli əhval-ruhiyyənin nə zaman hazır olmasını müəyyən etmək və kampaniyanı necə başlamağı qərara almaq mümkündür. Vəziyyəti *realist qiymətləndirməyə*

əsaslanmış ehtiyatlı düşüncə və insan kütləsinin imkanları bu cür şəraitdə azadlığa nail olmağın effektiv yollarının seçilməsi üçün vacibdir.

Əgər nəyəsə nail olmaq istəyirsinizsə, bunu necə etməyi planlaşdırmaq müdriklik olardı. Məqsəd nə qədər mühüm olsa və ya uğursuzluğun nəticələri nə qədər ciddi olsa, planlaşdırma da o qədər vacibdir. Strateji planlaşdırma bütün mümkün resursların səfərbər olmağının və daha effektli işləməyinin ehtimalını artırır. Bu, xüsusən maddi resursları məhdudlaşdıran, tərəfdarları təhlükə altında olan və yaxud güclü diktaturanı məğlub etməyə cəhd göstərən demokratik hərəkat üçün daha düzgündür... Diktaturanın isə, əksinə, adətən daha geniş maddi resursları, təşkilati gücü və qəddarlıqlar etməyə imkanları var.

Burada "strateji planlaşdırma", hal-hazırda, əldə edilərək, gələcəkdə istifadəsinin mümkünlüyü arzulanan fəaliyyət kursunun hesablanması anlamına gəlir. Hazırkı müzakirənin terminlərində bu, diktaturadan gələcək demokratiya sisteminə keçidi nəzərdə tutur. Bu məqsədlərə nail olmağın planı, adətən mərhələli kampaniya seriyasından ibarət olur və təzyiqlərə məruz qalmış xalqın və cəmiyyətin güclənməsi və diktaturanın zəifləməsi üçün nəzərdə tutulan başqa fəaliyyətləri təşkil edir. Fikir verin ki, burada məqsəd sadəcə mövcud diktaturanı sıradan çıxartmaq deyil, həm də demokratik sistemin qurulmasından ibarətdir. Sadəcə mövcud diktaturanı sıradan çıxarmaqla məhdudlaşan ən böyük strategiya, yeni tiranın yaranması riskinin altına girir.

## Planlaşdırmanın maneələri

Dünyanın müxtəlif yerlərində azadlığın bəzi nümunələri azadlığa necə nail olmaq probleminə arxalanmaq üçün bütün imkan və səylərini göstərmirlər. Nadir hallarda belə vəkillər hərəkət etməzdən öncə strategiyanın diqqətlə planlanşdırılmasının vacibliyini anlayırlar. Nəticədə, bu demək olar ki, heç vaxt edilmir.

Nəyə görə, öz xalqı üçün siyasi azadlığın qurulmasını xəyal edən insanlar, çox nadir hallarda öz məqsədlərinə nail olmaq üçün hərtərəfli strateji plan hazırlayırlar? Təəssüflər olsun ki, çox vaxt demokratik müxalifət qruplarındakı insanlar strateji planlaşdırmaya olan ehtiyacı anlamırlar və ya strateji düşüncəyə ya alışmayıblar ya da ki, təlim edilməyiblər. Bu mürəkkəb bir məsələdir. Daimi olaraq, diktaturadan narahatçılıq keçirən və gözlənilməz məsuliyyətlərlə sarsılan müqavimət liderlərinin çox vaxt strateji düşünmə bacarığını inkişaf etdirmək üçün nə vaxtı, nə də ki təhlükəsiz şəraiti olur.

Bunun əvəzində, bu sadəcə diktaturanın təşəbbüslərinə reaksiya verməyin ümumi nümunəsidir. Bu halda müxalifət hər zaman müdafiə mövqeyində dayanaraq azadlığın məhdud üstünlüyünü və ya möhkəmlənməsini təmin etməyə çalışır və ən yaxşı halda diktaturanın nəzarətinin irəliləməsinin sürətini azaldır və ya rejimin yeni siyasətçiləri üçün bəzi problemlər törədir.

Təbii ki, bəzi şəxslər və qruplar, azadlıq hərəkatının geniş və uzun müddətli planlaşdırılmasına ehtiyac görməyə bilərlər. Bunun əvəzində onlar sadəlövhcəsinə düşünə bilərlər ki, sadəcə öz məqsədlərini bərk, möhkəm və kifayət qədər uzun müddət ərzində tutsalar, bu, gec ya tez həyata keçəcək. Başqaları isə güman edirlər ki, əgər onlar sadəcə çətinliklərin qarşısında öz prinsiplərinə və ideallarına uyğun olaraq yaşayıb müşahidə edirlərsə, onlar yerinə yetirə biləcəkləri hər şeyi edirlər. Humanist məqsədlərin dəstəklənməsi və ideallara qarşı sadiqlik heyranedicidir, lakin diktaturaya son qoymaq və azadlığa nail olmaq üçün tamamilə uyğun deyildir.

Diktaturanın başqa rəqibləri sadəlövlüklə düşünə bilərlər ki, əgər onlar kifayət qədər zorakılıq işlətsələr, azadlığa nail olacaqlar. Lakin, əvvəllər qeyd edildiyi kimi, zorakılıq uğurun təminatçısı deyildir. Bu azadlıq əvəzinə ya uğursuzluğa, ya kütləvi faciyəyə, ya da hər ikisinə gətirib çıxara bilər. Əksər hallarda, diktatura zorakılıqlı mübarizə üçün ən yaxşı təchiz olunmuşdur və hərbi reallıqlar nadir hallarda (əgər belə bir hal mümkündürsə) demokratların xeyrinədir.

Burada həmçinin elə aktivistlər olur ki, onlar öz fəaliyyətlərini "nə hiss edirlərsə onu da etməlidirlər" üzərində qururlar. Bu yanaşma eqosentrik olmaqla yanaşı, azadlığın böyük strategiyasını inkişaf etdirmək üçün də heç bir yol təklif etmir.

Kiminsə ağlına gələn "parlaq fikir" üzərində qurulmuş fəaliyyət artıq məhdudlaşdırılmışdır. Diktaturanı yıxmaq üçün "gələcək addımların" diqqətlə hesablanmasını tələb edən bu fəaliyyətin əvəzində nəyə ehtiyac var? Strateji təhlil olmasa, müqavimət liderləri çox vaxt həmin o "gələcək addımın" necə olacağını bilmirlər, çünki onlar qələbə üçün tələb olunan ardıcıl, xüsusi addımlar haqda lazımi dərəcədə düşünməyiblər. Yaradıcılıq və parlaq ideyalar çox vacibdir, lakin onlar demokratik qüvvələrin strateji vəziyyətlərini irəlilətmək üçün istifadə edilməlidirlər.

Diktaturalara qarşı görüləcək işlərin çoxsaylı olması haqqında bilən və nədən başlamağı müəyyən edə bilməyən bəzi insanlar "Hər şeyi bir vaxtda etməyi" məsləhət görürülər. Bunun köməyi ola bilər, lakin, təbii ki, ələlxüsus nisbətən zəif olan hərəkatlar üçün bu mümkün deyil. Həm də bu cür yanaşma, nədən

başlamaq, gücü nəyin üzərində cəmləşdirmək və çox vaxt məhdud olan resursların necə işlədilməsi üçün heç bir yol göstərmir.

Başqa şəxslər və qruplar planlaşma üçün azacıq ehtiyac duya bilərlər, lakin bu haqda yalnız qısa müddətli və ya taktiki əsasda düşünə bilirlər. Onlar uzunmüddətli planlaşdırılmanın vacib və ya mümkün olması haqda düşünə bilmirlər. Bəzən onlar, öz diqqətlərini nisbətən kiçik məsələlərə tez-tez yayındırmaqla, çox vaxt demokratik müqavimətin təşəbbüsünü öz əllərinə almaq əvəzinə, rəqiblərin hərəkətlərinə cavab verərək strateji müddətdə düşünməyə və təhlil etməyə qadir olmurlar. Qısa müddətli fəaliyyətlərə bu qədər enerji sərf edərək, həmin liderlər çox vaxt bütün səyləri məqsədə yaxınlaşdırmağa yönəldən bir neçə alternativ fəaliyyət kursunu tədqiq etməyə qadir olmurlar.

Həmçinin o da mümkündür ki, bəzi demokratik hərəkatlar diiktaturanı məğlub etmək üçün hərtərəfli strategiyanı planlaşdırmırlar və onun əvəzində bilavasitə yalnız başqa səbəblərlə yaranmış problemlərdə təmərküzləşirlər. Əslində, onlar öz özlərində inanmırlar ki, onların səyləri nəticəsində diktaturaya son qoyula bilər. Buna görə, nəyi necə etməyin planlaşması onlar tərəfindən romantik vaxt-itirmə və ya bihudə cəhd kimi qiymətləndirilir. Azadlıq uğrunda köklənmiş qəddar diktaturalara qarşı mübarizə aparan insanlar çox vaxt o dərəcədə böyük hərbi və polis qüvvəsi ilə üzbəüz dayanırlar ki, onlara elə gəlir ki, diktatorlar hər nə istəsələr ona nail olacaqlar. Real ümidin yoxluğunu hiss edərək, bu insanlar yenə də düzgünlük və bəlkə də tarix naminə diktaturalara qarşı hərəkət edəcəklər. Baxmayaraq ki, onlar bunu heç vaxt boyunlarına almayacaqlar və ola bilər ki, bunu heç vaxt şüurlu olaraq qəbul etmirlər, onların fəaliyyətləri özləri üçün də ümidsiz görünür. Beləliklə, onlar üçün uzun müddətli, hərtərəfli strateji planlaşdırılmanın heç bir keyfiyyəti yoxdur.

Strateji planlaşdırma üçün bu cür uğursuzluqlar çox vaxt həlledici olur: kiminsə gücü dağınıqdır, kiminsə işləri effektsizdir, enerji kiçik məsələlərə sərf olunur, üstünlüklər istifadə olunmur və qurbanlar heç bir şey naminə verilir. Əgər demokratlar strategiyanı planlaşdırmasalar çox güman ki, onlar öz məqsədlərinə nail olmaqda süquta uğrayacaqlar. Zəif planlaşdırılan və qarışıq fəaliyyətdən ibarət işlər müqavimət hərəkatını irəli apara bilməz. Onun əvəzində bu, çox güman ki, diktaturalara öz gücü və nəzarətini artırmaq üçün imkan yaradacaq.

Təəssüflər olsun ki, azadlıq uğrunda hərtərəfli strateji planlaşdırma nadir hallarda inkişaf etdirildiyinə görə (əgər ümumiyyətlə bu edilirsə) diktaturalar mövcud ola biləcəyindən daha da uzun sürür. Onlar lazım olduğundan illər və ya onilliklər artıq sürür.

## Strateji planlaşdırmanın dörd mühüm termini

Strateji düşünməyə yardım məqsədilə dörd əsas terminin mənalarına aydınlıq gətirmək vacibdir.

*Böyük strategiya* münaqişədə öz məqsədlərinə nail olmağa cəhd göstərən bir qrupun uyğun və mümkün resurslarının (insan, iqtisadi, mənəvi, siyasi, təşkilati və. s.) tənzimlənməsi və düzgün istifadəsini nəzərdə tutan bir anlayışdır.

Böyük strategiya, ilkin diqqəti qrupun məqsədləri və resurslarında cəmləyərək, münaqişədə istifadə olunacaq fəaliyyətin ən münasib texnikasını (adi hərbi müharibə və ya dinc mübarizə kimi) müəyyən edir. Müqavimət liderləri rəqiblərə hansı təzyiq və təsirlərin göstərilməsini qiymətləndirərək, böyük strategiyanın planlaşdırmalıdırlar. Gələcək strateji planlaşdırma uyğun şəraitlərə əsaslanan qərarları qəbul edərək, ilkin və qarşıdan gələn müqavimət kampaniyalarını başladacaq.

Böyük strategiya mübarizə aparmaq üçün daha məhdud strategiyaların seçilməsində əsas çərçivəni quraşdırır. Böyük strategiya həmçinin ümumi məsələlərin xüsusi qruplara ayrılmasını və mübarizədə istifadə etmək üçün onlara resursların paylanmasını müəyyən edir.

*Strategiya* böyük strategiyanın imkanları çərçivəsində işləyən, münaqişədə müəyyən məqsədlərə nail olmağın ən yaxşı yolları kimi başa düşülür. Strategiyanı maraqlandıran, nə zaman və necə mübarizə aparmaq, yoxsa aparmamaq və həmçinin məlum sonluq uğrunda mübarizə zamanı, maksimum effektə necə nail olmaqdır. Strategiya rəssam anlayışı ilə müqayisə olunur, çünki strateji plan arxitektorların layihəsidir.[12]

*Strategiyaya* həmçinin strateji vəziyyəti inkişaf etdirəcək elə əlverişli səylər daxil ola bilər ki, rəqiblər qabaqcadan onlara məğlubiyyət gətirəcək, bu açıq münaqişəni görən kimi, güman ki, sonradan özləri açıq mübarizəsiz təslim ola bilərlər. Və ya, əks halda, inkişaf etmiş strateji vəziyyət mübarizədə demokratların uğurunu təmin edəcək. Strategiyaya həmçinin uğurun əldə edilməsindən sonra onu  istifadə etmək üçün necə hərəkət etmək yolları da daxildir.

---

[12] Robert Helvey, şəxsi əlaqə, 15 Avqust 1993.

Mübarizə kursunun özünə tətbiq edilmiş strateji plan, kampaniyanın necə inkişaf etdirilməsi və onun digər komponentlərinin məqsədlərinə nail olunması üçün ən əlverişli işlənmə yolları ilə uyğunlaşmalıdır. Bu nisbətən kiçik miqyaslı əməliyyatlarda xüsusi fəaliyyət qruplarının bacarıqlı yayılmasını cəlb edir. Müdrik bir strategiyanın planlaşdırılması seçilmiş mübarizə texnikasının əməliyyatında uğurun tələblərini nəzərə almalıdır. Fərqli texnikaların fərqli tələbləri olacaq. Təbii ki, yalnız "tələbləri" yerinə yetirmək uğuru təmin etmək üçün kifayət deyildir. Həmçinin əlavə faktorlara da ehtiyac duyula bilər.

Strategiyaları yaradarkən, demokratlar öz məqsədlərini aydın müəyyən etməlidirlər və onlara nail olmaq üçün səylərin effektliyini necə ölçməyi qərara almalıdırlar. Bu müəyyənləşmə və təhlil strateqə hər bir məqsədin qorunması üçün dəqiq tələbləri tanımağa imkan verir. Aydınlığa və müəyyənliyə duyulan bu ehtiyac, bərabər olaraq taktiki planlaşdırmaya da tətbiq olunur.

Taktikalar və fəaliyyət metodları strategiyanı həyata keçirmək üçün istifadə edilir. *Taktika* məhdud situasiyada kiminsə gücünün bacarıqla ən böyük mənfəət üçün istifadə edilməsi ilə bağlıdır.

Taktika - məhdud olan məqsədə nail olmaq üçün işlədilən məhdud fəaliyyətdir. Taktikanın seçimi, münaqişənin məhdud mərhələsində strategiyanı həyata keçirmək üçün mümkün mübarizə vasitələrinin ən yaxşı istifadəsi anlayışı ilə ifadə olunur. Ən effektiv yol, taktika və vasitələrin seçilməsi və tətbiq edilməsi, strateji məqsədlərin nailiyyətlərinə daimi diqqətin ayrılması ilə həyata keçirilməsidir. Strateji məqsədlərin uğurlarını möhkəmlətməyən taktiki nailiyyətlər sonda gücün boş yerə sərf edildiyini ortaya qoya bilər.

Beləliklə, taktika elə bir məhdud fəaliyyət kursu ilə məşğul olur ki, həmin fəaliyyət kursu böyük strategiya çərçivəsinə uyğun olduğu kimi, geniş strategiya çərçivəsinə də uyğun gəlir. Baxmayaraq ki, taktikaya daha geniş mülahizələr aiddir, lakin o, hər zaman mübarizə ilə bağlıdır. Xüsusi bir taktika, yalnız bütöv döyüş və ya kampaniya strategiyasının bir hissəsi kimi başa düşülə bilər. Taktikalar strategiyalardan daha qısa müddətdə, daha kiçik sahələr üzrə (coğrafi, təsisat, və s) və yaxud daha məhdud insan sayı və daha məhdud məqsədlər üçün tətbiq edilir. Dinc mübarizədə taktiki və strateji məqsədlər arasında olan fərq, fəaliyyətin seçilmiş məqsədinin ikinci dərəcəli və ya əsas olması ilə göstərilir.

Hücum xarakterli taktiki öhdəliklər, məqsədlərin nailiyyətlərini dəstəkləmək üçün seçilirlər. Taktiki öhdəliklər, rəqibə qarşı həlledici hücumları hazırlamaq və əlverişli şərait yaratmaq üçün strateqin alətləridir. Bu çox vacibdir, çünki planlaşdırma və taktiki əməliyyatların yerinə yetirliməsinə cavabdeh olanlar,

vəziyyəti qiymətləndirməkdə və bunun üçün ən uyğun metodları seçməkdə bacarıqlı olmalıdırlar. Gələcək iştirakçılar, seçilən texnika və xüsusi metodların işlədilməsi üçün təlim keçməlidirlər.

*Metod* ya xüsusi bir silaha, ya da ki, fəaliyyət vasitələrinə aiddir. Dinc mübarizənin texnikası çərçivəsində, bura Beşinci Fəsildə qeyd olunan çoxsaylı xüsusi fəaliyyət formaları daxildir (tətillərin müxtəlif növləri, boykotlar, siyasi əməkdaşlıqdan imtina və s.). (Əlavəyə bax).

Dinc mübarizə üçün nəzərdə tutulmuş məsuliyyətli və təsirli strateji planın inkişafı, böyük strategiyanın, strategiyaların, taktikaların və metodların ifadə edilməsindən asılıdır.

Bu müzakirənin əsas mahiyyəti ondan ibarətdir ki, diktaturadan azad olmaq yolunda diqqətlə hazırlanmış strateji plan üçün kiminsə intellektindən istifadə tələb olunur. Planlaşdırma zamanı buraxılan səhvlər fəlakətlərə gətirib çıxara bilər, amma, kiminsə intelektual bacarığının effektiv istifadəsi strateji kurs formalaşdırar və bu da, mümkün resursların ağılla istifadə olunmasına şərait yaradar, cəmiyyəti azadlıq və demokratiyaya doğru hərəkətəı gətirər.

# YEDDİ

## STRATEGİYANIN PLANLAŞDIRILMASI

Müvəffəqiyyətin ehtimalını artırmaq məqsədilə müqavimət liderlərinə əziyyət çəkən insanları gücləndirmək, diktaturanı zəiflətmək və sonra sıradan çıxarmaq və davamlı demokratiyanın qurulmasına qadir olan hərtərəfli fəaliyyət planını ifadə etməlk lazımdır. Belə fəaliyyət planına nail olmaq üçün vəziyyətin və təsirli fəaliyyətin variantlarının ehtiyatla qiymətləndirilməsi lazımdır. Bu cür hərtərəfli təhlildən irəli gələrək azadlığa nail olmaq üçün həm böyük strategiya, həm də xüsusi strategiya kampaniyası inkişaf etdirilə bilər. Bağlı olmalarına baxmayaraq, böyük strategiyanın inkişafı və kampaniya strategiyası bir birindən fərqlənən iki prosesdir. Yalnız böyük strategiyanın inkişaf etməsindən sonra, xüsusi kampaniya strategiyası bitmiş şəkildə inkişaf etdirilə bilər. Kampaniya strategiyaları böyük strategiyanın məqsədlərini möhkəmləndirmək və onlara nail olmaq məqsədilə nəzərdə tutulmalıdır.

Müqavimət strategiyasının inkişaf etdirilməsi çoxsaylı suallara və məsələlərə diqqət yetirməyi tələb edir. Burada bizim, həm böyük strategiyanın, həm də kampaniya strategiyasının səviyyəsi üçün nəzərdə tutulan bəzi mühüm faktorları, öyrənməyimiz məqsədəuyğun olardı. Lakin, bütün strateji planlaşdırmalar müqaviməti planlaşdıranların (fiziki, tarixi, dövlət, hərbi, mədəni, ictimai, siyasi, psixoloji, iqtisadi və daxili faktorlar daxil olmaqla) münaqişə situasiyasını bütövlüklə dərindən anlamasını tələb edir. Strategiyalar yalnız spesifik mübarizə və onun arxa planı kontekstində inkişaf etdirilə bilər.

İlk olaraq vacib olan odur ki, demokratik liderlər və strateji planı hazırlayanlar uğrunda vuruşduqları işin məqsədlərini və onların mühümlüyünü qiymətləndirmək istəyəcəklər. Bu məqsədlər uğrunda mübarizə aparmağa dəyərmi? Mübarizənin real məqsədini müəyyən etmək təhlükəlidir. Burada biz sübut etdik ki, diktaturanın yıxılması və ya mövcud diktatorların aradan qaldırılması kifayət *deyil*. Bu münaqişələrin məqsədi azad cəmiyyətin, dövlətin demokratik sistem ilə qurulması olmalıdır. Bu məqamda olan aydınlıq, böyük strategiyanın və gözlənilən xüsusi strategiyaların inkişafına təsir göstərəcək.

Strateqlər xüsusən qarşıdakı çoxsaylı fundamental suallara cavab verməli olacaqlar:

- Azadlığa nail olmaq üçün əsas maneələr nədən ibarətdir?

- Hansı faktorlar azadlığa nail olma prosesini asanlaşdıracaq?
- Diktaturanın əsas gücü nədən ibarətdir?
- Diktaturanın müxtəlif zəif cəhətləri nədən ibarətdir?
- Diktaturanın güc mənbələri nə dərəcədə kövrəkdirlər?
- Demokratik qüvvələrin və ümumi əhalinin gücü nədən ibarətdir?
- Demokratik qüvvələrin zəif cəhətləri nədən ibarətdir və onları necə düzəltmək olar?
- Dərhal münaqişəyə cəlb olunmayan, həm diktaturanı, həm də demokratik hərəkatı dəstəkləyə bilən və ya artıq dəstəkləyən üçüncü şəxslərin statusu necədir və əgər elədirsə bunu hansı yollarla edirlər?

## Vasitələrin seçilməsi

Böyük strateji səviyyədə, planı hazırlayanlar gözlənilən münaqişədə istifadə ediləcək əsas mübarizə vasitələrini seçməli olacaqlar. Bir neçə alternativ mübarizə texnikalarının xidmətləri və məhdudiyyətləri, adi hərbi müharibə, partizan müharibəsi, siyasi itaətsizlik və başqaları kimi qiymətləndirilməlidir.

Bu seçimi edərkən strateqlər qarşıdakı sualları nəzərə almalıdırlar: Seçilən mübarizə növü demokratların imkanları çərçivəsinə sığırmı? Seçilmiş texnika idarə olunan əhalinin gücündən istifadə edirmi? Bu texnika diktaturanın zəif cəhətlərini hədəf tutub yoxsa, onun ən güclü nöqtələrinə zərbə endirir? Vasitələr demokratlara daha da özlərinə arxayın olmağa kömək edir, yoxsa onlardan üçüncü şəxslərdən və ya xarici dəstəkdən asılı olmaq tələb olunur? Diktaturaların yıxılması üçün seçilmiş vasitələrdən istifadə etməyin qeydiyyatı nədən ibarətdir? Onlar qarşıdakı münaqişədə ola biləcək itkilərin və dağıntıların sayını artıracaq və ya azalda biləcəkmi? Diktaturaya son qoyulanda, güman edilən uğurun sonunda, mübarizə nəticəsində əmələ gələn hakimiyyətin növü ilə bağlı seçilmiş vasitələr hansı əhəmiyyətə malik olacaqlar?

Əks-təsirli olduğunun müəyyənləşdiyi fəaliyyət növləri inkişaf etdirilmiş böyük strategiyadan xaric olmalıdırlar.

Əvvəlki fəsillərdə biz sübut etmişdik ki, siyasi itaətsizlik başqa mübarizə texnikalarına, nisbətən əhəmiyyətli fayda təklif edir. Strateqlər öz spesifik münaqişə situasiyalarını təhlil etməli və siyasi itaətsizliyin yuxarıdakı sualları təsdiqedici cavablarla təmin edə biləcəyini müəyyən etməlidir.

## Demokratiya üçün planlaşdırma

Yadımıza salmalıyıq ki, diktaturaya qarşı böyük strategiyanın məqsədləri sadəcə diktatorları yıxmaqdan ibarət deyil, həm də demokratik sistemi quraraq yeni diktaturanın yaranmasını qeyri mümkün etməkdən ibarətdir. Bu məqsədlərə nail olmaq üçün cəmiyyətdə effektiv gücün paylanmasından ötəri seçilmiş mübarizə vasitələrində dəyişikliyə ehtiyac duyulacaq. Diktatura altında əhali və cəmiyyətin vətəndaş təsisatları həddən artıq zəif, hakimiyyət isə həddən artıq güclü olurlar. Bu natarazlıq dəyişməsə, yeni hakimlər dəstəsi (əgər istəsələr) köhnələri kimi diktaturalaşmış ola bilər. Buna görə də, "Saray inqilabı" və ya dövlət çevrilişi arzu olunan deyildir.

Beşinci fəsildə müzakirə edildiyi kimi, siyasi itaətsizlik cəmiyyətin diktaturaya qarşı səfərbər edilməsi yolu ilə təsirli gücün daha da bərabər paylanmasına gətirib çıxarır. Bu proses bir neçə istiqamətdə baş verir. Dinc mübarizə imkanlarının inkişafı o deməkdir ki, diktaturanın zorakı repressiya üçün olan imkanları artıq xalq arasında asanlıqla qorxu və tabeçilik yaratmayacaq. Xalqın əlində müqavimət göstərmək üçün güclü vasitələri və bəzən diktatorların gücünun istifadəsini əngəlləmək imkanları olacaq. Getdikcə siyasi itaətsizlik vasitəsilə əhalinin gücünün səfəbər edilməsi cəmiyyətin müstəqil təsisatlarını gücləndirəcək. Bir dəfə işlənmiş təsirli gücün təcrübəsi asan unudulmur. Əhalinin mübarizə zamanı əldə etdiyi bilik və bacarıqlar, artıq onu potensial diktatorlar tərəfindən asanlıqla idarə etməyə imkan verməyəcək. Qüvvələrin münasibətlərində bu cür dəyişikliklər nəticədə davamlı demokratik cəmiyyətin qurulması ehtimalını artıracaq.

## Xarici dəstək

Böyük strategiyaya hazırlığın bir hissəsi kimi, diktaturanın parçalanmasında daxili müqavimətin və xarici təzyiqlərin rolunun nədən ibarət olacağını öyrənmək vacibdir. Bu təhlildə biz təsdiq etdik ki, mübarizənin əsas gücü, ölkənin öz içindən qalxmalıdır. Beynəlxalq dəstəyin ümumiyyətlə nə dərəcədə veriləcəyinə gəlincə isə, bu, daxili mübarizə ilə təhrik olunacaq.

Sadə bir əlavə şəkilində, dünya ictimaiyyətinin fikrini humanitar, mənəvi və dini əsaslarla diktaturaya qarşı səfərbər etmək üçün səy göstərmək olar. Həmçinin diktaturaya qarşı dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən diplomatik, siyasi və iqtisadi sanksiyalara nail olmaq üçün səy göstərmək olar. Bunlar iqtisadi və hərbi silah embarqosu, diplomatik tanınma səviyyəsində məhdudlaşdırılmalar, diplomatik əlaqələrin kəsilməsi, diktatura ölkəsinə iqtisadi yardımın və vəsaitlər qoymağın qadağan olunması, diktatura ölkəsinin müxtəlif beynəlxalq təşkilatların və BMT-nin üzvlüyündən qovulması halını ala bilər.

Gələcəkdə beynəlxalq yardım, maliyyə və rabitə dəstəyi kimi şəraitlər, demokratik qüvvələr üçün bilavasitə təmin oluna bilərlər.

## Böyük strategiyanın hazırlanması

Situasiyanın qiymətləndirilməsinə, vasitələrin seçimi və xarici yardımın rolunun müəyyən edilməsinə riayət edərək böyük strateji planı hazırlayanlar münaqişənin ən yaxşı aparılmasının geniş eskizinə ehtiyac duyacaqlar. Bu geniş plan, mövcud vəziyyətdən gələcək azadlıq və demokratik sistemin təsis olunmasına qədər uzana bilər. Böyük strategiyanı planlaşdırarkən planı hazırlayan kəslər özlərinə müxtəlif suallar verməlidirlər. Qarşıdakı suallar (öncəkindən daha da spesifik yolla) siyasi itaətsizlik mübarizəsi üçün böyük strategiyanın kəşfində tələb olunan mülahizələrin növlərini ortaya qoyur:

Uzunmüddətli mübarizəni başlamağın ən yaxşı yolu nədən ibarətdir? Təzyiqə məruz qalan xalq diktaturaya əvvəlcə məhdud yollarla olsa belə, meydan oxumaq məqsədilə hərəkət etmək üçün özündə kifayət qədər inamı və gücü necə toplamalıdır? Xalqın əməkdaşlıqdan imtina etməsi və itaətsizliyin tətbiqi üçün olan imkanları zamanla və təcrübə ilə necə artırılacaq? Cəmiyyət üzərində məhdud kampaniya sıralarının demokratik nəzarətini bərqərar etmək və diktaturanı məhdudlaşdırmaq üçün məqsədlər nədən ibarət ola bilər?

Diktaturadan canını qurtaran və azadlığın qurulması üçün istifadə oluna biləcək elə bir müstəqil təsisat mövcuddurmu? Cəmiyyətdə diktaturanın nəzarətindən çıxarıla bilən və ya diktaturanın davam etməsinə baxmayaraq, demokratlar tərəfindən öz ehtiyaclarını ödəmək üçün və demokratiyanın sahələrini qurmaq üçün yenidən yaranması lazım olan hansı təsisatlar mövcuddur?

Müqavimət zamanı təşkilati qüvvə necə inkişaf etdirilə bilər? İştirakçılar necə təlimlənə bilərlər? Mübarizə zamanı hansı resurslar (maliyyə, təchizat) tələb olunur? Əhalinin səfərbər edilməsində hansı növ rəmzlər ən təsirlilər ola bilər?

Hansı növ fəaliyyət və hansı mərhələdə diktatorların güc mənbələri əlverişli olaraq zəifləyə və parçalana bilər? Müqavimət göstərən əhali öz itaətsizliyinin üstündə təkid etməklə, eyni zamanda vacib olan dinc nizam intizamı necə qoruya bilər? Cəmiyyət mübarizə kursu zamanı öz əsas ehtiyacları ilə üzləşməyə necə davam edir? İctimai qayda münaqişənin ortasında necə qorunub saxlanıla bilər? Qələbə yaxinlaşdıqca demokratik müqavimət qüvvələri diktatordan

sonraki keçid dövrünün mümkün qədər asan başa çatması üçün demokratik təsisatların yaradılmasını necə davam etdirə bilər?
Yada salaq ki, diktaturaya qarşı hər bir azadlıq hərəkatının strategiyasını planlaşdırmaq üçün yeganə bir layihə mövcud deyil və yaradıla da bilməz. Diktaturanın yıxılması və demokratik sistemin qurulması üçün mübarizələr bir qədər fərqlənəcəklər. Heç vaxt iki situasiya tamamilə bir birinə bənzəməyəcək, hər bir diktaturanın özünə məxsus xarakteristikaları olacaq və azadlıq axtarışında olan xalqın imkanları da müxtəlif olacaq. Siyasi itaətsizlik mübarizəsi üçün böyük strategiyanı planlaşdıranlar, münaqişə vəziyyətində yalnız öz spesifik imkanlrını deyil, həmçinin seçilən mübarizə vasitələrini dərindən anlamalıdırlar.[13]

Mübarizə üçün nəzərdə tutulmuş böyük strategiya diqqətlə hazırlandıqdan sonra onun geniş olaraq öyrənilməsi üçün mühüm səbəblər var. Iştirakı tələb olunan geniş sayda insanlar ümumi anlayışı xüsusi situasiya kimi anlasalar ola bilər ki, onlar daha çox iştirak etməyə meylli və qadir olsunlar. Bu bilgi potensial olaraq onların mənəviyyatına, iştiraka olan həvəsinə, münasib iştirakına müsbət təsir göstərə bilər. Böyük strategiyanın ümumi qeydləri hər halda diktatorlara bəlli olacaq və onun potensial əlamətlərinin bəlli olması diktatorları repressiyalarının qəddarlığını azaltmağa vadar edə bilər, çünki diktatorlar bunun siyasi mənada onların özlərinin əksinə işləyə biləcəyindən xəbərdardırlar. Böyük strategiyanın xüsusi xüsusiyyətlərini bilmək, diktaturanın öz düşərgələrində fikir ayrılıqlarına və xəyanətə səbəb ola bilər.

Diktaturanın yıxılması və demokratik sistemin qurulması üçün hazırlanmış böyük strategiya planını qəbul edərək, demokratik qrupların bunun tətbiqində təkid etməsi vacibdir.

Yalnız nadir hallarda mübarizə ilkin böyük strategiyadan kənara çıxmalara yol verə bilər. Ancaq, böyük strategiyanın yanlış olduğunun anlaşıldığı halda və ya mübarizənin şəraitinin fundamental olaraq dəyişilməsinə bol dəlillərin mövcud olduğu halda, böyük strategiyanı planlaşdıranlar onu dəyişməli ola bilərlər. Bu, yalniz o halda edilməlidir ki, əsas qiymətləndirmə aparılıb və yeni daha adekvat olan böyük strategiya planı inkişaf etdirilib və qəbul olunub.

### Kampaniya strategiyalarının planlaşdırılması

Lakin diktaturaya son qoymaqla demokratiyanın qurulmasını vəd edərək, inkişaf etdirilmiş böyük strateji plan öz-özünə həyata keçmir. Diktatura hakimiyyətinin sıradan çıxarılması məqsədilə spesifik strategiyalar əsas

---

[13] Tövsiyə edilmiş dədqiqat bütün təfərrüatı ilə Gene Şarp, *Dinc Fəaliyyətin Siyasət*i (Boston, MA: Porter Sargent, 1973) və Piter Akerman və Kristofer Kruegler, *Dinc Strateji Münaqişə* (Vestport, Konnektikut ştatı: Praeger, 1994). Həmçinin Gen Şarpın, *Dinc Mübarizəni Apararaq: İyirminci Əsrin Təcrübəsi və İyirmi Birinci Əsrin Potensialı*na bax.

kampaniyaların aparılması üçün inkişaf etdirliməli olacaqlar. Bu strategiyalar öz növbələrində diktatorların rejiminə həlledici zərbələr vurmaq məqsədilə taktiki işlər silsiləsini birləşdirib idarə edəcəklər. Fəaliyyətin taktikaları və xüsusi metodları elə diqqətlə seçilməlidir ki, hər bir xüsusi strategiyanın məqsədinə çatmasına gətirib çıxara bilsin. Burada müzakirə eksklüziv olaraq strategiyanın səviyyəsində cəmlənib.

Əsas kampaniyaları planlaşdıran strateqlər böyük strategiyanı planlaşdıranlar olduqları üçün, tələb edəcəklər ki, seçdikləri mübarizə texnikasının təbiəti və iş rejimi bütünlüklə başa düşülsün. Hərbi məmurlara hərbi strategiyanı hazırlamaq üçün güc strukturlarını, taktikanı, məntiqi, döyüş sursatlarını, coğrafi təsirləri və s. öyrənmək lazım olduğu kimi, siyasi itaətsizliyi planlaşdıranlar üçün dinc mübarizənin strateji prinsiplərinin təbiətini öyrənmək vacibdir. Lakin, hətta bundan sonra belə, dinc mübarizənin öyrənilməsi, bu kitabdakı tövsiyyələrə diqqətin yetirliməsi və burada qoyulan sualların cavablandırılması öz özünə strategiya yaratmayacaq. Mübarizə strategiyalarının hazırlanması biliklərlə möhkəmləndirilimiş yaradıcılıq tələb edir.

Siyasi itaətsizlik strateqləri xüsusi olaraq seçilmiş müqavimət kampaniyaları və azadlıq uğrunda mübarizənin uzunmüddətli inkişafı üçün strategiyaların planlaşdırılmasında müxtəlif məsələləri və problemləri nəzərə almalı olacaqlar. Onlar aşağıdakılardır:

- ✓ Kampaniyanın xüsusi məqsədlərinin müəyyən edilməsi və onların böyük strategiyanın həyata keçirilməsinə verəcəyi töhvə.
- ✓ Xüsusi metodların və ya seçilən strategiyaların həyata keçirilməsi üçün yaxşı istifadə edilə bilən siyasi silahların baxışdan keçirilməsi. Hər bir xüsusi strateji kampaniya üçün bütöv plan çərçivəsində diktaturanın güc mənbələrinə qarşı qoyulacaq məhdudiyyətlər və təzyiqlərin istifadə edilməsi üçün kiçik taktiki planlar və xüsusi fəaliyyət metodlarının müəyyən edilməsi vacibdir. Bunu da yadda saxlamalıyıq ki, əsas məqsədlərə çatmaq ehtiyatla seçilmiş və həyata keçirilmiş daha kiçik olan xüsusi addımların nəticəsində əldə olunacaq.

İqtisadi məsələlərin tamamilə siyasi mübarizə ilə bağlılığı nə dərəcədə olmalıdır və ümumiyyətlə olmalıdırmı? Əgər mübarizədə iqtisadi məsələlər mövcuddursa, iqtisadi problemlərin diktaturaya son qoyulduqdan sonra faktiki olaraq düzəlməsinə diqqət yetirmək lazımdır. Əks halda, yəni demokratik cəmiyyətə keçid zamanı problemin sürətli həlli təmin olunmasa, məyusluq və etibarsızılıq yarana bilər. Bu cür məyusluq, iqtisadi böhranın sonunu vəd edən diktatura qüvvələrinin qalxmasını asanlaşdıra bilər.

- Liderlik strukturları və rabitə sistemlərinin öncədən müəyyən edimәsi müqavimət mübarizəsini başlamaq üçün məqsəduyğundur.

Müqavimətçilərə və ümumi əhaliyə davamlı aparıcılıq vermək məqsədilə aparılan mübarizə kursu zamanı qərarların qəbulu və rabitənin hansı vasitələri mümkün ola bilər?

-  Müqavimət xəbərlərinin ümumi əhaliyə, diktatura qüvvələrinə və beynəlxalq mətbuata yayımlanması; tələblər və hesabatlar hər zaman dəqiq reallığa söykənməlidirlər. Şişirdilmiş və əsassız edilən tələblər müqavimətə olan etibarı azaldacaqdır.
-  Sərbəst faydalı ictimai, təhsil, iqtisadi və siyasi fəaliyyətlər üçün planlar, kiminsə gözlənilən münaqişə zamanı öz millətinin ehtiyaclarını ödəməsi üçündür. Bu cür layihələr bilavasitə müqavimətə qarışmayan bir şəxslə aparıla bilər.
-  Ümumi azadlıq uğrunda mübarizə və ya xüsusi kampaniyanın dəstəklənməsində hansı formada xarici köməyin məqsədəuyğun olmasının müəyyən edilməsi. Daxili mübarizəni qeyri dəqiq xarici faktorlardan asılı etmədən xarici yardımın ən yaxşı səfərbər və istifadə edilməsi yolları nədən ibarət ola bilər? Yardım etmək imkanı olan hansı xarici qrupların qeyri hökümət təşkilatlarının (ictimai hərəkatlar, dini və ya siyasi qruplar, əmək birlikləri), dövlətlərin və ya BMT-nin və onun müxtəlif orqanlarının və s. münasibinə diqqət yetirilməlidir. Qarşıda ola biləcək müqaviməti planlaşdıranlar, diktatura nəzarətinə qarşı kütləvi müqavimət zamanı öz güvvələri ilə qayda-qanunu qorumaq və ictimai ehtiyacları həll etmək üçün tədbir görməlidir. Bu hərəkət nəinki alternativ müstəqil demokratik struktur yaradacaq və əsl ehtiyacları qarşılayacaq, həm də qarışıqlıq və qanunsuzluğun qarşısının alınması üçün mütləq qəddar repressiyanın lazimliliğına inami azaldacaq.

## Əməkdaşlıqdan imtina ideyasının yayılması

Diktaturaya qarşı uğurlu siyasi itaətsizlik üçün, xalqın əməkdaşlıqdan imtina ideyasından yapışması əhəmiyyətlidir. “Meymun sahibi” adlı hekayədə təsvir edildiyi kimi, (Üçüncü Fəsilə bax), əsas ideya sadədir: əgər tabelikdə olanların çox hissəsi repressiyalara baxmayaraq, uzun müddət ərzində əməkdaşlığı davam etdirməkdən imtina edirsə, əzici sistem zəifləyərək sonda dağılacaq.

Diktatura altında yaşayan insanlar ola bilsin ki, müxtəlif mənbələrdən atrıq bu anlayış ilə tanış olublar. Bu halda demokratik qüvvələr əməkdaşlıqdan imtina ideyasını düşünülmüş olaraq yayıb və populyarlaşdırmalıdırlar. “Meymun sahibi” hekayəsi və ya ona bənzər olan hekayələr cəmiyyətdə hərtərəfli yayıla bilər. Elə bir hekayə ki, asan başa düşülən olsun. Əməkdaşlıqdan imtina anlayışı əhali tərəfindən mənimsənilən kimi, insanlar anlayacaqlar ki, gələcəyin tələbi diktatura ilə əməkdaşlıqdan imtinanı təcrübə etməyə çağırır. Onlar həmçinin sərbəst olaraq əməkdaşlıqdan imtinanın çoxsaylı xüsusi formalarını yeni situasiyalar üçün quraşdıra biləcəklər.

Baxmayaraq ki, diktatura altında yaşayan zaman ideyaları, xəbərləri və müqavimət təlimatlarını ifadə etmək çətindir və təhlükələr və səylərin mövcudluğuna baxmayaraq, demokratlar dəfələrlə bunun mümkün olmasını sübuta yetirmişdilər. Hətta Nasist və Kommunist hakimiyyəti altında partizanlar yalnız başqa şəxslərlə deyil, hətta qeyri qanuni qəzetlər, vərəqələr, kitablar və son illərdə audio və video lentlərini buraxmaqla geniş ictimaiyyət auditoriyası ilə belə əlaqə saxlamağa müvəffəq olublar.

Öncəki strateji planın üstünlükləri ilə, müqavimət üçün ümumi aparıcı prinsiplər hazırlana və yayıla bilər. Bunlar əhalinin etiraz və əməkdaşlıqdan imtina edəcəyi şəraiti, məsələləri və onları həyata keçirmək yollarını göstərəcək. Sonra isə, əgər hətta demokratik liderliyin təbliğatı parçalansa və xüsusi təlimatlar verilməsə və ya alınmasa, insanlar müəyyən vacib məsələlər üzrə necə fəaliyyət göstərməyi biləcəklər. Bu cür aparıcı prinsiplər, gözdən salma fəlaiyyətinə sövq etmək və siyasi polis tərəfindən hazırlanan saxta "müqavimət təlimatlarını" tanımaq üçün yoxlamanı təmin edəcək.

## Repressiya və ona qarşı tədbirlər

Strategiyanı planlaşdıranlar diktaturanın güman edilən reaksiyasını və repressiyalarını, xüsusilə diktaturanın zorakılığının demokratik müqavimətin fəlaiyyətinə girişini qiymətləndirməlidirlər. Mümkün olan dərəcədə artırılan repressiyadan tabe olmadan can qurtarmaq və ya müqavimət və reaksiya göstərməyin yollarını müəyyən etmək vacibdir. Taktiki olaraq, xüsusi hallarda xalqa və müqavimətçilərə iştirakın risklərindən xəbərdar olmaları üçün gözlənilən repressiya haqda uyğun xəbərdarlıqların edilməsi məqsədəuyğun olardı. Əgər repressiya ağır ola bilərsə, yaralanmış müqavimətçilərə göstəriləcək tibbi yardımın hazırlıqları qabaqcadan görülməlidir.

Repressiyanı gözləyən strateqlər azadlıq uğrunda aparılan kampaniyanın xüsusi məqsədlərinin nailiyyətinə yönələcək taktika və metodların istifadəsini qabaqcadan yaxşı nəzərə alacaqlar, lakin bu qəddar repressiyanın imkanlarını məhdudlaşdırmayacaq. Məsələn, ekstremal diktaturalara qarşı küçə nümayişləri və ya paradlar həyəcan doğura bilər, lakin onlar həmçinin minlərlə nümayişçilərin ölümü ilə nəticələnə bilər. Buna baxmayaraq, nümayişçilərin çoxsaylı itkiləri, hər kəsin evdə qalması, tətillə, və ya mülki məmurların əməkdaşlıqdan kütləvi şəkildə imtina etməsi vasitəsilə diktaturaya göstərilən təzyiqdən heç də daha artıq təzyiq göstərməyəcək.

Əgər yüksək itkilərə risk edən provakasiyon müqavimətin strateji niyyətlər üçün tələb olunduğu irəli sürülsə, o zaman həmin təklifin dəyəri və mümkün nailiyyətləri diqqətlə nəzərə alınmalıdır. Əhalinin və partizanların mübarizə kursu zamanı nizam intizamlı dinc üsulda hərəkət etmələrinə güman varmı? Onlar zorakılığa olan provakasiyaların qarşısında dayana biləcəklərmi? Planı hazalrlayanlar dinc nizam intizamı qorumaq və qəddarlıqlara baxmayaraq müqaviməti qurmaq üçün hansı tədbirləri nəzərə almalıdırlar? Vədlər, siyasi bəyanatlar, nizam - intizam vərəqələri, nümayişlər üçün sərəncamlar və zorakılıq tərəfdarlarına boykotun elan edilməsi kimi tədbirlər mümkün və effektiv ola bilərmi? Liderlər hər zaman *provakator agentlərin* iştirakından ayıq olmalıdırlar. Çünki, onların missiyası nümayişçiləri zorakılığa təhrik etməkdən ibarətdir.

### Strateji plana riayət etmə

Güclü strateji plan hazır olan andan etibarən diktatura demokratik qüvvələri böyük strategiyadan və spesifik kampaniya strategiyalarından yayındırmağa təhrik edəcəkdir. Demokratik qüvvələr əsas fəaliyyətlərini diktaturanın vacib olmayan məsələləri üzərində cəmləməyə çalışan əhəmiyyətsiz addımlarına yönəltməməlidir. Demokratik müqaviməti ani emosiyalara görə (yəgin ki, diktaturanın yeni qəddarlıqlarına reaksiya olaraq ortaya çıxan) onun böyük strategiyası və ya kampaniya strategiyasından yayınmağa imkan vermək olmaz. Belə qəddarliqlar xüsusu olaraq nəzərdə tutula bilər ki, bilavasitə demokratik qüvvələri hərtərəfli hazırlanmış planlarından imtina etməyə və ya hətta zorakılıq aktı törətməyə vadar etsinlər, və bu da diktatorlara imkan versin ki, o qüvvələri məhv etsinlər.

Fundamental analizlərin düzgünlüyünə əmin olandan sonra demokratik qüvvələrin işi mərhələ - mərhələ irəliləməkdən ibarətdir. Təbii ki, taktikadakı dəyişikliklər və ara məqsədlər ortaya çıxacaq və yaxşı liderlər, hər zaman imkanlardan istifadə etməyə hazır olacaqlar. Bu düzəlişlər, böyük strategiya və ya xüsusi kampaniyanın məqsədləri ilə qarışıq salınmamalıdır. Böyük strategiya və xüsusi kampaniyaların strategiyalarından ehtiyatlı istifadə uğura gətirib çıxaracaq.

# SƏKKİZ

## SİYASİ İTAƏTSİZLİYİN TƏTBİQİ

Əhalinin gücsüzlük və qorxu hissi keçirdiyi situasiyalarda, ictimaiyyət üçün ilkin məsələlər, aşağı riskli və inamın formalaşmasına yönəldilmiş fəaliyyətlər olmalıdır. Bu növ aksiyalar - kiminsə geyimini qeyri ənənəvi yolla geyinmək kimi - fikir ayrılıqları xalq tərəfindən qeyd ediləcək və belə aksiyada xalqın əhəmiyyətli iştirakını təmin edəcək. Başqa hallarda isə, nisbətən kiçik (səthi) olan qeyri siyasi məsələlər (su təminatının təhlükəsizliyinin qorunması kimi) qrupun fəaliyyətinin əsası kimi götürülə bilər. Strateqlər elə bir məsələni seçməlidirlər ki, onun inkar edilməsi çətin olsun və xidmətləri geniş olaraq tanınsın. Bu cür məhdud kampaniyalarda uğur yalnız xüsusi narazılıqları aradan qaldırmır, həmçinin əhalini inandırır ki, gerçəkdən güc potensialına malikdir.

Uzunmüddətli mübarizələrdə kampaniyaların strategiyalarının çoxunda diktaturanın dərhal tamamilə yıxılması məqsədinə deyil, məhdud məqsədlərə nail olmağa çalışmalıdırlar. Heç də hər bir strategiya əhalinin bütün təbəqələrinin iştirakını tələb etmir.

İtaətsizlik strateqləri uzun müddətli mübarizənin kampaniyalarının, başlanğıcında, ortada və sona yaxınlaşanda böyük strategiyanın həyata keçirilməsi üçün xüsusi kampaniyaların sırasına nəzərə salaraq, onların bir birindən fərqli olduğunu nəzərə almalıdırlar.

### Seçilmiş müqavimət

Mübarizənin ilkin mərhələlərində müxtəlif xüsusi məqsədləri olan ayrı-ayrı kampaniyalar çox faydalı ola bilər. Bu cür seçilmiş kampaniyalar bir birinin ardınca gedə bilər. Bəzən ikisi və yaxud üçü qismən vaxtında baş verə bilər.

“Seçilmiş müqavimət” üçün strategiyanın planlaşdırılmasında xüsusi məhdud olan məsələlərin və ya diktaturanın ümumi təzyiqlərini təcəssüm etdirən narazılıqların tanınması vacibdir. Bu cür məsələlər böyük strategiyanın çərçivəsində, aralıq strateji niyyətlərə nail olmaq məqsədilə kampaniyaların aparılması üçün uyğun hədəf ola bilərlər.

Aralıq (yardımçı) strateji məqsədlər, demokratik qüvvələrin mövcud və layihələşdirilən güc imkanları çərçivəsində olmalıdır. Bu kiçik qələbələr əldə etməyə imkan verər və o da öz növbəsində mübarizə ruhunun saxlanması və

həmçinin uzun müddətli mübarizə uçun qüvvələr nisbətində əlverişli irəliləyişlər təmin edər.

Seçilmiş strategiyalar ilkin olaraq xüsusi ictimai, iqtisadi və siyasi məsələlərdə cəmlənməlidirlər. Ola bilsin ki, bunlar ictimai və siyasi sistemin bir hissəsini diktatura nəzarətindən qıraqda saxlamaq, hal hazırda diktatura nəzarəti altında olan bəzi tərəflərin nəzarətinə nail olmaq və ya diktatorları spesifik məqsəd kimi inkar etmək üçün seçiliblər. Əgər mümkündürsə, öncə müzakirə edildiyi kimi seçilmiş müqavimət kampaniyası eyni zamanda diktaturanın bir və ya daha çox zəif cəhətlərinə zərbə endirməlidir. Beləliklə, demokratlar bu cür güc imkanları ilə mümkün olan ən böyük təsiri göstərə bilərlər.

Strateqlər, ilk əvvəl ən azından birinci kampaniyanın strategiyasını hazırlamalıdırlar. Bunun məhdud məqsədləri nədən ibarət olacaq? Bu seçilmiş böyük strategiyanın yerinə yetirilməsinə necə yardım edəcək? Əgər mümükündürsə, ikinici və üçüncü kampaniya üçün ən azından strategiyanın ümumi qeydlərini ifadə etmək müdriklik olardı. Bütün bu növ strategiyalar seçilmiş böyük strategiyanın yerinə yetirilməsinə və onun ümumi aparıcı prinsipləri çərçivəsində işləməsinə hesablanmalıdır.

## Rəmzi çağırış

Diktaturanı sıradan çıxarmaq üçün nəzərdə tutulmuş yeni kampaniyanın əvvəlində, daha spesifik olan siyasi fəaliyyətin məhdud imkanları ola bilər. Onlar hissələrlə elə hazırlanmalıdırlar ki, əhalinin əhval ruhiyəsini yoxlayaraq, ona təsir edə bilsinlər və onları əməkdaşlıqdan imtina və siyasi itaətsizlik yolları ilə aparılacaq davamlı mübarizəyə hazırlasınlar.

Ilkin fəaliyyət çox güman ki, rəmzi etiraz formasını alacaq və ya əməkdaşlıqdan məhdudiyyətli yaxud da müvəqqəti imtinanın rəmzi fəaliyyəti ola bilər. Əgər fəaliyyət göstərmək istəyən insanların sayı azdırsa, bu zaman ilkin fəaliyyət, məsələn, rəmzi əlaməti olan mühüm yerlərə güllərin qoyulması ola bilər. Başqa tərəfdən, əgər fəaliyyət göstərmək istəyən insanların sayı böyükdürsə, bütün işlərin beş dəqiqəlik dayandırılması və ya bir neçə dəqiqəlik sakitlik istifadə edilə bilər. Başqa situasiyalarda bir neçə şəxsin aclıq aksiyası keçirməsi, rəmzi əlamətin mühümlüyünü bildirən bir yerdə yuxusuz qalmaq, tələbələrin dərsləri qısa bir müddət üçün boykot etməsi və ya vacib bir idarədə oturaq tətilin keçirilməsi mümkündür. Diktatura altında daha aqressiv olan hərəkətlər çox güman ki, kəskin repressiyalarla üzləşəcəklər.

Dəqiq rəmzi hərəkətlər, məsələn, diktatorların sarayı və ya polis qərargahlarının qarşısında fiziki işğal, yüksək risk yarada bilər və buna görə də kampaniyanın planlaşdırılması üçün məsləhətli deyildir.

Ilkin rəmzi etiraz aksiyaları bəzən əsas milli və beynəlxalq diqqəti oyatmışdır (Birmada 1988-ci ildə keçirilən kütləvi küçə nümayişi, 1989-cu ildə Pekində, Tiananmen Meydanında tələbə işğalı və ya aclıq aksiyası). Hər iki halda nümayişçilərin yüksək itkiləri strateqlərə kampaniyanın planlaşdırılmasının böyük ehtiyatla işlədilməsinə işarə edir. Böyük mənəvi və psixoloji təsirin mövcud olduğu halda, bu cür hərəkətlər diktaturanı sərbəst yıxa bilməz, çünki onlar rəmzi olaraq qalır və diktaturanın hakimiyyətinin vəziyyətini dəyişmir.

Adətən mübarizənin əvvəlində diktatorların güc mənbələrinin imkanlarını tamamilə və sürətlə sarsıtmaq mümkün olmur. Rejimi tamamilə inkar etmək və onu kütləvi və güclü şəkildə qəflətən yıxmaq üçün əməkdaşlıqdan imtina - faktiki olaraq öncələr əhəmiyyətli dərəcədə tabe olan bütün xalqı və demək olar ki, cəmiyyətin bütün təsisatlarını tələb edir. Hələ ki, belə bir hal baş verməyib və buna nail olmaq çox çətindir. Buna görə, əksər hallarda diktaturaya qarşı hazırlanan erkən kampaniya üçün itaətsizlik və əməkdaşlıqdan tamamilə imtina, real strategiya deyildir.

## Məsuliyyətin bölünməsi

Seçilmiş müqavimət kampaniyası zamanı, mübarizənin əsas ağırlığını, müvəqqəti olaraq, adətən əhalinin bir və ya daha artıq təbəqəsi çəkir. Müxtəlif məqsədli sonrakı kampaniyalarda mübarizənin davamı başqa əhali qruplarına ötürülür. Məsələn, tələbələr təhsil məsələsinə görə tətil apara bilərlər, dini liderlər və dindarlar dini məsələlərin azadlığı məsələsi üzərində cəmlənə bilərlər, qatar nəqliyyat sisteminin sürətini azaltmaq məqsədilə qatar işçiləri texniki qaydalara tabe olmağı bəhanə tuta bilərlər, jurnalistlər senzuraya meydan oxuyaraq, üzərində qadağan olunmuş yazıları dərc edərək, səhifələri boş olan qəzetlər buraxa bilərlər və ya polis istənilən müxalifət liderlərinin yerini müəyyən edib həbs etməyi bacarmaya bilər. Müqavimət kampaniyalarının ayrı-ayrı məsələlərə və əhali qruplarına bölünməsi, müqavimət davam edə-edə sonuncuların müəyyən hissəsinin dincəlməsinə imkan verəcək.

Yuxarıda qısa müzakirə olunduğu kimi, müstəqil ictimai, iqtisadi və siyasi qrupların və təsisatların mövcudluğu və muxtariyyatını diktaturanın nəzarətindən qıraqda *qorumaq* üçün seçilmiş müqavimət vacibdir. Bu güc mərəkəzləri əhalinin diktaturanın nəzarətinə təzyiq və ya müqavimət göstərə

bilən təsisatlarının əsasını təmin edir. Diktatura ilə mübarizədə onların birinci hədəflər sırasında olmaq ehtimalı var.

### Diktatura hakimiyyətini hədəfə alma

Uzunmüddətli mübarizə strategiyaların daha iddialı və ciddi ilkin mərhələlərinə keçdiyinə görə strateqlər diktatorların güc mənbələrini sonradan necə məhdudlaşdırmağı hesablamalı olacaqlar. Hədəf əhalinin əməkdaşlıqdan imtina etməsini, demokratik qüvvələr üçün yeni daha əlverişli strateji situasiyanın yaranmasında istifadə etməkdir.

Demokratik müqavimət qüvvələrinin tam gücə nail olduğu halda, strateqlər siyasi iflicliyi artırmaq və sonda diktaturanı dağıtmaq məqsədilə onun güc mənbələrini parçalamaq üçün daha böyük hədəflərlə əməkdaşlıqdan imtina və itaətsizlik hazırlamalıdırlar.

Əhalinin və qrupların diktaturaya əvvəllər göstərdiyi dəstəyin zəiflədilməsi yollarının diqqətlə planlaşdırması demokratik qüvvələr üçün vacibdir. Rejim tərəfindən törədilən qəddarlıqların, diktaturanın siyasətinin iqtisadi böhrana səbəb olmasının aydınlaşması və diktaturaya son qoymağın mümkün olması barədə yeni anlayış ilə onların dəstəyi zəifləyə bilərmi? Diktaturanın tərəfdarları ən azından "neytral" edilməlidirlər (bitərəflər) yaxud da demokratiya hərəkatının aktiv tərəfdarları olmaları daha yaxşı olardı.

Hərbi qüvvələrin, həm əsgərlərin, həm də zabitlərin diktaturaya olan sadiqliyinin səviyyəsi diqqətlə qiymətləndirilməlidir və hərbçilərə demokratik qüvvələrin təzyiq etməsinin mümkün olub olmamasının öyrənilməsi ilə müəyyən edilməlidir. Ola bilər ki, adi əsgərlərin çoxu bədbəxt və qorxudulmuş çağırışçılardır? Ola bilər ki, əsgərlərin və zabitlərin çoxu şəxsi, ailə və siyasi səbəblər üzündən, rejimdən uzaqlaşıblar? Hansı başqa faktorlar əsgər və zabitləri demokratik hərəkat üçün kövrək edə bilər?

Azadlıq uğrunda mübarizənin əvvəlində diktatorların qoşunları və funksionerləri ilə əlaqə yaratmaq üçün xüsusi strategiya inkişaf etdirlilməlidir. Demokratik qüvvələr sözlə, işarələrlə və hərəkətlərlə qoşunları xəbərdar etməlidirlər ki, azadlıq uğrunda mübarizə güclü, müəyyən edilmiş və daimi olacaq. Qoşunlar bilməlidirlər ki, mübarizə onların həyatını təhlükə altına almadan diktaturanı sıradan çıxarmaq üçün hazırlanıb, lakin spesifik xüsusiyyətli olacaq. Nəticədə bu cür səylər demokratik hərəkatın xeyrinə onların sadiqliyini və tabeçiliyini aradan qaldırmağı hədəf tutaraq diktaturanın

qoşunlarını mənəvi cəhətdən sarsıdacaq. Oxşar strategiyalar polisi və dövlət məmurlarını hədəf tuta bilər.

Rəğbət qazanmaq səyləri, nəticədə, diktaturanın qüvvələri arasında tabesizlik doğurmaq anlamını açıqlamamalıdır, lakin hərbi fəaliyyətin və hərbi qüvvələrin dəstəyi vasitəsilə mövcud diktaturaya tezliklə son qoymaq mənasını daşımalıdır. Bu cür ssenari çətin ki, işləyən demokratiya qursun, öncə müzakirə edildiyi kimi dövlət çevrilişi, əhali və hakimlər arasında olan güc münasibətlərinin qeyri-tarazlığını bərpa etmək üçün çox az şey edə bilər. Buna görə də, elə plan hazırlanmalıdır ki, müxalifətə rəğbət hissi bəsləyən zabitlərə başa salınsın ki, diktaturaya qarşı hərbi çevriliş və vətəndaş müharibəsinin aparılması hec vəchlə nə məqsədəuyğundur, nə də ki, tələb olunur.

Hərbi qüvvələr arasında inamın yox olması və əməkdaşlıqdan imtina etmə, uğursuz fəaliyyət, əmrlərə biganə qalma və repressiyanı yerinə yetirməkdən imtina etmək kimi hərəkətlərlə rəğbət hissi keçirən zabitlər demokratik mübarizədə həyati rol oynaya bilərlər. Hərbi heyət həmçinin təhlükəsiz keçid, məlumat, qida, tibbi ləvazimatlar kimi yardımın müxtəlif yollarını dinc demokratik hərəkata təklif edə bilər.

Ordu diktatorların ən vacib güc mənbələrindən biridir, çünki onlar nizam intizamlı hərbi hissələri və silahları bilavasitə tabe olmayan əhaliyə təcavüz göstərmək və onu cəzalandırmaq üçün istifadə edə bilərlər. İtaətsiz strateqlər yadda saxlamalıdırlar ki, polisin, bürokratların və hərbi qüvvələrin tamamilə diktaturanın tərəfdarı olaraq qaldığı və onun bütün komandalarını yerinə yetirməyə tabe olduqları halda diktaturanı dağıtmaq ya inanılmaz dərəcədə çətin, ya da qeyri mümkün olacaq. Buna görə də, diktaturanın qüvvələrinin dağılmasına yönələn strategiyalara demokratik strateqlər tərəfindən böyük önəm verilməlidir.

Demokratik qüvvələr yadda saxlamalıdırlar ki, hərbi qüvvələr və polis içərisində inamsızlıq və tabesizlik, həmin qrupların üzvləri üçün yüksək təhlükə yarada bilər. Əsgərləri və polisi hər bir tabesizlik və ya üsyan üçün edilən hərəkətə görə ciddi cəza gözləyə bilər. Demokratik qüvvələr əsgər və zabitlərdən dərhal üsyan etməyi xahiş etməməlidirlər. Bunun əvəzində onlara anlatmaq lazımdır ki, əlaqələrin mümkün olduğu halda onların ilkin olaraq yerinə yetirə biləcəyi "maskalanmış tabesizliyin" çox sayda nisbətən daha təhlükəsiz yolları mövcuddur. Məsələn, polis və qoşunlar repressiya üçün verilən göstərişləri effektsiz yerinə yetirə, lazım olan insanların yerini müəyyən etməyə bilərlər, müqavimətçiləri gözlənilən repressiyalar, həbslər, ölkədən çıxarılmalar barədə xəbərdar edə və yüksək rütbəli zabitlərə mühüm məlumatların hesabatını çatdırmaya bilərlər. Inamsız zabitlər öz növbələrində

repressiya komandalarını aşağı komanda sırasına ötürməkdən imtina edə bilərlər. Əsgərlər nümayişçilərin başı üstündən atəş aça bilərlər. Eyni ilə onların bir hissəsi olan dövlət məmurları təlimatlar və işlər olan qovluqları itirə, effektsiz işləyə və "xəstələnə" bilərlər ki, "sağalana" kimi evdə qalmalı olsunlar.

## Strategiyada dəyişikliklər

Siyasi itaətsizliyin strateqləri daimi olaraq böyük strategiyanın və xüsusi kampaniya strategiyasının necə yerinə yetirlidiyini qiymətləndirməlidirlər. Məsələn, mübarizənin gözlənildiyi kimi gedəcəyi mümkün deyil. Bu halda strategiyada hansı dəyişikliklərin tələb olunduğunu müəyyən etmək lazımdır. Hərəkatın gücünü artırmaq üçün və təşəbbüsə yenidən nail olmaq üçün nə edilməlidir? Bu cür vəziyyətdə problemi tanıtmaq, strateji qiymətləndirməni yenidən etmək, bəlkə də mübarizənin məsuliyyətlərini müxtəlif əhali qruplarına ötürmək, əlavə güc mənbələrini səfərbər edib, fəaliyyətin alternaitv kursunu inkişaf etdirmək. Bunlar edilibsə, yeni plan dərhal həyata keçirilməlidir.

Əksinə, əgər mübarizə gözlənildiyindən daha da yaxşı keçirsə və diktatura öncə hesablandığından daha erkən dağılırsa, demokratik qüvvələr gözlənilməz nailiyyətləri necə kapitalizasiya edəcək və diktaturanı iflic etmək üçün necə hərəkət edəcək? Biz bu sualı gələn fəsildə tədqiq edəcəyik.

# DOQQUZ

## DİKTATURANIN DAĞILMASI

Taktiki və uğurlu siyasi itaətsizlik kampaniyasının cəmlənmiş gücü müqaviməti gücləndirib cəmiyyətin elə bir sahələrini genişləndirir ki, orada diktatura öz təsirli nəzarətinin məhdudlaşdırılması ilə üzləşir. Bu kampaniyalar həmçinin əməkdaşlıqdan imtina etməyin yolları və siyasi itaətsizliyin təqdimatı təcrübəsi ilə təmin edilir. Kütləvi miqyasda əməkdaşlıqdan imtinanın və siyasi itaətsizliyin vaxtı çatanda, həmin təcrübə böyük dəstək alacaq.

Üçüncü Fəsildə müzakirə edildiyi kimi, tabe olmaq, əməkdaşlıq və itaət etmək diktatorların güclü olacağı halda əhəmiyyətlidir. Siyasi hakimiyyətin mənbələrinə daxil olmaq üçün yol yoxdursa, diktatorların hakimiyyəti zəifləyir və nəhayət yıxılır. Bu səbəbdən, dəstəyin geri alınması diktaturanın parçalanması üçün əsas tələb olunan fəaliyyətdir. Siyasi itaətsizliyin güc mənbələrinə necə təsir etməsini gözdən keçirmək faydalı olardı.

Rəmzi rədd etmə və itaətsizlik fəaliyyətləri rejimin mənəvi və siyasi nüfuzunu (*onun qanuniliyini)* sarsıtmaq üçün mümkün olan vasitələrdəndir. Rejimin nüfuzu nə qədər böyük olsa onun aldığı tabelik və əməkdaşlıq da o qədər böyük və etibarlı olacaq. Mənəvi narazılıq diktaturanın mövcudluğunu ciddi olaraq təhlükə altına almaq məqsədilə fəaliyyətdə ifadə edilməlidir. Əməkdaşlığın və tabeliyin geri götürülməsi rejimin gücünün qüvvədə olan başqa mənbələrini parçalamaq üçün lazımdır.

Güc mənəbələri arasında vacib olan ikincisi isə *insan resurslarıdır,* hakimləri dəstəkləyən və ya onlarla əməkdaşlıq edib, tabe olan insan və qrupların sayı və vacibliyi. Əgər itaətsizlik geniş əhali hissələri tərəfindən istifadə olunursa, rejim ciddi problem içində olacaq. Məsələn, əgər dövlət məmurları artıq öz normal effektliyi ilə çalışmırlarsa və ya hətta evdə otururlarsa, bu adminitrasiya aparatına ciddi təsir göstərəcək.

Beləliklə, əgər əvvəllər mütəxəssis kimi bacarıqlarını və biliklərini istifadə edənlər əməkdaşlıq etməyən insanlara və qruplara, qoşulsalar diktatorlar görəcəklər ki, onların öz arzularını yerinə yetirmək imkanları ciddi şəkildə zəifləyib. Hətta, onların hərtərəfli məlumatlar əsasında qərarlar qəbul etmək və təsirli siyasət hazırlamaq imkanları da ciddi şəkildə məhdudlaşacaq.

Əgər, insanları tabe olmağa və dəstəkləməyə vadar edən psixoloji və ideoloji təsirlər (bunlar görünməyən *faktorlar* adlanırlar) zəiflədilsə və ya

tamamilə dəyişilsə, əhali daha çox tabe olmamağa və əməkdaşlıqdan imtina etməyə yönələcək.

Diktatorların *maddi resurslara* olan imkanları həmçinin onların hakimiyyətinə təsir göstərir. Maliyyə resurslarına, iqtisadi sistemə, sahibkarlığa, təbii resurslara, nəqliyyata və rabitə vasitələrinə nəzarətin rejimin hazırkı və ya potensial rəqiblərinin əlində olması, onların hakimiyyətinin daha bir əsas mənbəsini ya kövrəldir ya da ki, aradan götürür. Tətillər, boykotlar və iqtisadiyatda, rabitədə və nəqliyyatda müxtariyyatın artırılması rejimi zəiflədəcək.

Öncə müzakirə olunduğu kimi diktatorların hədələdiyi və ya tətbiq etdiyi sanksiyaları (inadçı, tabe olmayan və əməkdaşlıq etməyən əhali hissələrinə qarşı cəzaları) onların hakimiyyətinin mərkəzi mənbəsidir. Bu güc mənbəsi iki yolla zəiflədilə bilər. Birincisi, müharibədə olduğu kimi, əgər əhali itaətsizlik dəyəri kimi ciddi amillərlərlə risk etməyə hazırdırsa mümkün sanksiyaların təsiri həlledici dərəcədə azalır (yəni, diktatorların repressiyası arzu etdiklərini təmin etməyəcək); Ikincisi, əgər polis və hərbi qüvvələr məyyusluq içindədirsə onlar fərdi və ya kütəvi şəkildə partizanları həbs etmək, döymək və ya güllələmək kimi əmrlərdən yayınırlar və ya açıqcasına tabe olmurlar. Əgər diktatorlar repressiyalarını həyata keçirmək üçün artıq polis və hərbi qüvvələrə arxalana bilmirlərsə, o zaman diktatura ciddi təhlükə altındadır.

Xülasə, möhkəm köklənmiş diktaturaya qarşı mübarizədə uğur qazamaq üçün, əməkdaşlıqdan imtinanı və itaətsizliyi, rejimin güc mənbələrini azaltmaq və aradan qaldırmaq tələb olunur. Əgər diktatura özünün vacib güc mənbələrini daimi olaraq təzələməsə, o, zəifləyəcək və nəhayət parçalanacaq. Bunun üçün diktaturaya qarşı hazırlanmış siyasi itaəsizliyin müdrik strateji planı, diktatorların ən vacib güc mənbələrini hədəf tutmalıdır.

**Azadlığın yüksəlməsi**

Seçilmiş müqavimət mərhələsi zamanı siyasi itaətsizliklə birgə müstəqil sosial, iqtisadi, mədəni və siyasi təsisatlar ardıcıl olaraq cəmiyyətin "demokratik ab-havasını" genişləndirir və diktaturanın nəzarətini azaldır. Diktaturanın qarşısında cəmiyyətin ictimai təsisatları gücləndiyi üçün diktaturanın niyyətləri nə olursa olsun, əhali onun nəzarətindən kənarda müstəqil olaraq istədiyi kimi cəmiyyət qurmaqdadır. Əgər diktatura bu "azadlığın yüksəlişini" dayandırmaq üçün müdaxilə edirsə, yeni qazanılmış imkanları müdafiə etmək məqsədilə dinc mübarizə tətbiq edilə bilər və diktatura mübarizədə daha bir "cəbhə" ilə üzləşə bilər.

Müqavimətin və təsisat quruculuğunun vaxtında birləşməsi diktaturanın dağılmasını və demokratik sistemin formal qurulmasını mübahisəsiz edərək *faktiki* azadlığa apara bilər. Çünki, cəmiyyət içində hakimiyyət münasibətləri əhəmiyyətli olaraq dəyişilib.

Polşada 1970 və 1980-ci illərin hadisələri, cəmiyyətin müqavimət yolu ilə funksiyaları və təsisatlarını geri almaq nümunəsi ilə təmin edir. Katolik kilsəsi hər zaman sıxışdırılırdı, lakin heç vaxt tamamilə Kommunist nəzarəti altına düşmədi. 1976-cı ildə müəyyən ziyalılar və fəhlələr öz siyasi ideyalarını irəli sürmək məqsədilə K.O.R. kimi (Fəhlələrin Müdafiə Komitəsi) kiçik bir qrup formalaşdırdılar. Ticarət birliyi olan Həmrəylik təşkilatı effektiv tətillər keçirmək gücü ilə 1980-ci ildə öz qanunlarını qəbul etməyə məcbur etdi. Kəndlilər, tələbələr və bir çox başqa qruplar həmçinin öz müstəqil təşkilatlarını qurdular. Kommunistlər anlayanda ki, bu qruplar güc reallıqlarını dəyişiblər, həmrəylik təşkilatı yenidən qadağan olundu və Kommunistlər hərbi hakimiyyəti bərpa etdilər.

Hətta hərbi vəziyyət altında çoxsaylı həbslər və kəskin sıxışdırmalarla cəmiyyətin yeni müstəqil təsisatları fəaliyyət göstərməyə davam edirdilər. Məsələn, böyük həcmdə qeyri-qanuni qəzetlər və jurnalların çapı davam edirdi. Qeyri-qanuni nəşriyyatlar hər il yüzlərlə kitab buraxırdılar, eyni zamanda, məşhur yazıçılar Kommunist nəşrlərini və dövlət nəşriyyatlarını boykot edirdilər. Oxşar aksiyalar cəmiyyətin başqa hissələrində də davam edirdi.

Jaruselskinin hərbi rejiminin altında hərbi Kommunist hakimiyyəti bir anda cəmiyyətin zirvəsində hərlənən kimi təsvir edilmişdi. Məmurlar hələ də dövlət idarələrini və binalarını işğal etməkdə idilər. Rejim hələ də cəzalarla, həbslərlə, mətbuat nəşrlərini ələ keçirməklə cəmiyyətə təcavüz edə bilirdi. Lakin diktatura cəmiyyəti nəzarət altında saxlaya bilmirdi. Bu baxımdan cəmiyyətin rejimi tamamilə yıxmağa nail olması yanlız vaxt məsələsi idi.

Hətta əgər diktatura hələ dövlət vəzifələrini işğal edibsə, bəzən demokratik "paralel hakimiyyət" qurmaq mümkün olur. Bu böyüyərək əhalinin və cəmiyyətin təsisatlarının sadiqliyini, dəstəyini və əməkdaşlığını qazanaraq rəqib hakimiyyət kimi, fəaliyyət göstərə bilərdi. Nəhayət, paralel demokratik hakimiyyət demokratik sistemə keçidin bir hissəsi kimi, tamamilə diktatura rejimini əvəz edə bilərdi. Tələb olunduğu kimi, o zaman keçidin bir hissəsi kimi, konstitusiya qəbul olunar və seçkilər keçirilərdi.

### Diktaturanın dağılması

Cəmiyyətin təsisat dəyişikliyinin mövcud olduğu zaman itaətsizlik və əməkdaşlıqdan imtina hərəkatı arta bilər. Demokratik qüvvələrin strateqləri qabaqcadan nəzərə almalıdırlar ki, elə bir vaxt gəlib çata bilər ki, demokratik qüvvələr seçilmiş müqavimətdən kənara çıxaraq kütləvi itaətsizlik yarada bilərlər. Əksər hallarda müqavimət üçün imkanların yaradılması, qurulması və genişlənməsi üçün zaman tələb olunur, kütləvi müqavimət isə yalnız bir neçə ildən sonra baş verə bilər. Bu fasiləli dövr ərzində, daha çox mühüm siyasi məqsədləri olan seçilmiş müqavimət kampaniyası, davam etdirilməlidir. Cəmiyyətin bütün səviyyələrində geniş əhali kütləsi cəlb olunmalıdır. Siyasi itaətsizliyin cəsarətli və intizamlı şərtlərilə fəaliyyətin belə genişlənməsi zamanı diktraturanın daxili zəiflikləri daha da gözəçarpan olacaq.

Birləşərək güclü siyasi itaətsizlik və müstəqil təsisatların qurulması güman ki, birlikdə demokratik qüvvələr üçün xeyirli olan geniş beynəlxalq diqqəti doğuracaq. Bu həmçinin demokratik qüvvələri dəstəkləyən beynəlxalq diplomatik mühakimələr, boykotlar və embarqolar doğura bilər (Polşada olduğu kimi).

Strateqlər bilməlidilər ki, 1989-cu ildə Şərqi Almaniyada olduğu kimi, bəzi hallarda diktaturanın dağılması, həddindən artıq sürətli şəkildə baş verə bilər. Bu o zaman baş verə bilər ki, bütöv əhalinin diktaturaya qarşı nifrəti nəticəsində güc mənbələri kütləvi şəkildə parçalanıb. Baxmayaraq ki, bu nümunə o qədər də alışqan deyil, bunu uzun-müddətli mübarizə üçün planlaşdırmaq daha yaxşı olardı (lakin qısa zaman ərzində hazırlanmalıdır).

Azadlıq uğrunda mübarizə kursu ərzində, hətta kiçik məsələlər üzərində baş verən qələbələr qeyd edilməlidir. Qələbəni qazanan kəslər tanınmalıdır. Piketlərlə bayram keçirmək, həmçinin gələcək mübarizə mərhələləri üçün lazım olan mənəvi ruhun dəstəklənməsinə yardım edir.

### Müvəffəqiyyətə məsuliyyətli yanaşma

Böyük strategiyanı planlaşdıranlar, yeni diktaturanın yaranmasının qarşısını almaq və uzunmüddətli demokratik sistemin tədriclə qurulmasını təmin etmək üçün, uğurlu mübarizənin başa çatdırılmasının mümkün və təqribi yollarını qabaqcadan hesablamalıdırlar. Demokratlar mübarizənin sonunda diktaturadan müvəqqəti hakimiyyətə keçidin necə ələ alınmasını hesablamalıdırlar. Yaxşı olardı ki, həmin vaxt, yeni fəaliyyət göstərən hakimiyyət tezliklə qurulsun. Lakin, sadəcə köhnə hakimiyyət yeni tərkibdə olmamalıdır. Köhnə hakimiyyətin strukturunun hansı sahələrinin (siyasi polis

kimi) özlərinə məxsus anti-demokratik xüsusiyyətlərinə görə tamamilə ləğv edilməsinin və hansılarının gələcəkdə demokratik qüvvəyə tabe edilməsi üçün qorunub saxlanılmasının hesablanması vacibdir. Tam hakimiyyət boşluğu qarışıqlığa və yeni diktaturaya yol aça bilər.

Diktatura dağıldıqdan sonra onun yüksək rütbəli məmurları haqqında siyasəti müəyyənləşdirən fikirlər öncədən dəqiqləşməlidir. Məsələn, diktatorlar məhkəmədə mühakimə ediləcəklərmi? Onlara tədricən ölkəni tərk etməyə imkan veriləcəkmi? Qələbənin ardınca demokratiyanın yaranması və ölkənin yenidən qurulmasına lazım olan və siyasi itaətsizliyə uyğun gələn, başqa hansı variantlar mümkün ola bilər? Gələcək demokratik sistemin qurulması üçün qanın tökülməsinə əl atmaq düzgün deyildir.

Diktaturanın zəiflədiyi və dağıldığı vaxt da demokratiyaya keçidin konkret planları tətbiq edilmək üçün hazır olmalıdır. Bu cür planlar başqa qruplar tərəfindən dovlət çevrilişi vasitəsilə dövləti ələ keçirməyin qarşısını almağa yardım edəcək. Bütövlükdə siyasi və şəxsi azadlıqlarla birgə demokratik, konstitusional idarəetmənin qurulması planına da ehtiyac var. Yüksək qiymətləndirilən dəyişikliklər plandakı boşluqların ucbatından itirilməməlidir.

Xalq məsuliyyətinin artması diktaturanın nəzarət altında saxlaya bilmədiyi müstəqil qruplar və təsisatların yüksəlməsi ilə üzləşdikdə diktatorlar anlayacaqlar ki, onların bütöv müəssisəsi sıradan çıxıb. Cəmiyyətin kütləvi qapanması, ümumi tətillər, kütləvi evdə-oturmalar, itaətsiz yürüşlər və s. başqa aksiyalar diktaturaya məxsus təşkilatı və onunla bağlı təsisatları sıradan çıxaracaq. Bu cür itaəsizlik və əməkdaşlıqdan imtinanın insanların kütləvi iştirakı ilə ağıllı surətdə həyata keçirilməsi nəticəsində diktatorlar gücdən düşəcək və demokratiyanın müdafiəçiləri dinc yolla qalib gələcəklər. Diktatura itaətsiz əhalinin qarşısında dağılacaq.

Bu səylərin heç də hər biri asan, uğurlu və ən nadir hallarda sürətlə baş verməyəcək. Yadda saxlamaq lazımdır ki, hərbi müharibələrdə uduzanlar qazananlardan daha çox olur. Lakin, siyasi itaətsizlik real qələbə imkanı təqdim edir. Öncə qeyd edildiyi kimi bu imkan böyük və müdrik strategiya, diqqətlə hazırlanmış strateji planlaşdırma, inadla işləmək və nizam - intizamlı cəsur mübarizə vasitəsilə artırıla bilər.

# ON

## DAVAMLI DEMOKRATİYANIN TƏMƏLİ

Diktaturanın dağılması təbii ki, əsas bayram üçün səbəbdir. Uzun müddət ərzində əziyyət çəkən və böyük itkilərlə mübarizə aparan insanlar bir müddətlik sevinc, dincəlmək və nüfuz qazanmışlar. Onlar, özləri və onlarla birlikdə siyasi azadlıq uğrunda mübarizə aparanlarla  qürur duymalıdırılar. Bu günü görmək heç də hər kəsə nəsib olmayacaq. Yaşayanlar və ölənlər öz ölkələrinin azadlıq tarixinin formalaşdırılmasına yardım edən qəhrəmanlar kimi yadda qalacaqlar.

Təəssüflər olsun ki, hələ də sayıqlığın azaldılması vaxtı deyil. Hətta diktaturanın siyasi itaətsizlik vasitəsilə müvəffəqiyyətlə dağıdıldığı halda, əmələ gələn qarışıqlığın içindən yeni bir zalım rejimin ortaya çıxmasının qarşısını almaq məqsədilə  ehtiyat işləri görülməlidir. Demokratik qüvvələrin liderləri, öncədən demokratiyaya nizamlı keçidi hazılamalıdırlar. Diktatura strukturları hissələrə parçalanmalıdırlar. Davamlı demokratiyanın davranışının konstitusion və qanunvericilik əsasları və standartları qurulmalıdır.

Heç kəs inanmamalıdır ki, diktaturanın yıxılması ilə dərhal ideal bir cəmiyyət ortaya çıxacaq. Diktaturanın dağılması sadəcə başlanğıcdır və azadlığın genişləndiyi şəraitdə, səylərin uzunmüddətli olması üçün, cəmiyyətin inkişaf etdirilməsi və insanların ehtiyaclarının yerinə yetirilməsi daha məqsədəuyğun olardı. Ciddi siyasi, iqtisadi və ictimai problemlər, onların həllinin axtarışında olan çoxsaylı insanların və qrupların əməkdaşlığını tələb edərək illər boyu davam edəcək. Yeni siyasi sistem gələcəkdə problemlərlə məşğul olmaq üçün, insanları müxtəlif perspektivli və əlverişli tədbirlərlə, faydalı iş və siyasətin inkişafını davam etdirmək imkanları ilə təmin etməlidir.

### Yeni diktatura təhlükəsi

Aristotel uzun müddət bundan əvvəl xəbərdar edirdi ki, ".... tiranlıq həmçinin başqa bir tiranlığa çevrilə bilər...."[14] Fransadan (Yakobins və Napoleon), Rusiyadan (Bolşeviklər), İrandan (Ayatollah), Birmadan (SLORC) və başqa yerlərdən kifayət qədər nümunələr var ki, zalım rejimlərin dağılması bəzi şəxslər və qruplara yeni sahiblər kimi müdaxilə etmək imkanı kimi görünür. Onların motivləri müxtəlif ola bilər, lakin nəticələr demək olar ki, hər zaman

[14] Aristotel, *Siyasət* , Kitab V, Fəsil 12, səh 233.

eynidir. Yeni diktatura öz nəzarətində hətta köhnədən daha da zalım və sərt ola bilər.

Hətta diktaturanın dağılmasından öncə köhnə rejimin üzvləri demokratiya uğrunda itaətsizlik mübarizəsini qısa yolla həyata keçirməyə cəhd göstərərək, xalqın müqaviməti vasitəsilə qələbəni ələ keçirməyə hesablanmış dövlət çevrilişi təşkil edə bilərlər. O, diktaturanı qovduğunu irəli sürərək, əslində faktiki olaraq köhnə rejimin yeni cilalanmış modelini tətbiq etmək məqsədini güdəcək.

## Çevrilişlərin əngəllənməsi

Yeni azad olunmuş cəmiyyətlərə qarşı hazırlanan çevrilişlərə qalib gəlməyin yolları mövcuddur. Həmin qorunma imkanlarının öncədən öyrənilməsi bəzən cəhdləri durdurmaq üçün kifayət ola bilər. Hazırlıq onun qarşısının alınmasını doğura bilər.[15]

Dərhal çevrilişin başlanmasından sonra putçistlər qanunilik, yəni onlar idarə etməyə mənəvi və siyasi haqlarının qəbul olunmasını tələb edirlər. Buna görə, çevrilişdən qorunmanın birinci ən vacib prinsipi putçistlərin qanuniliyini inkar etməkdən ibarətdir.

Putçistlər həmçinin vətəndaş lidelərinin yardımçı, qarışıq və ya sadəcə passiv olmalarını tələb edirlər. Putçistlər təsirə malik qalan cəmiyyətin üzərində nəzarəti qurmaq üçün mütəxəssilərin və məsləhətçilərin, bürokratların və dövlət məmurlarının, idarə başçılarının və hakimlərin əməkdaşlığını tələb edirlər. Putçistlər həmçinin onların sifarişi və siyasəti ilə dəyişilən siyasi sistemi, cəmiyyətin təsisatlarını, iqtisadiyyatı, polisi, hərbi qüvvələri işlədən çoxsaylı insanlardan tələb edirlər ki, həmişəki fəaliyyətlərini yerinə yetirmək üçün sakitcəsinə onlara tabe olsunlar.

Çevrilişdən qorunmanın ikinci əsas prinsipi, putçistlərə əməkdaşlıqdan imtina və itaətsizlik vasitəsilə müqavimət göstərməkdən ibarət olacaq. Onlara lazım olan əməkdaşlıqdan və yardımdan imtina edilməlidir. Əhəmiyyətcə diktaturaya qarşı istifadə edilən mübarizə vasitələri yeni təhlükəyə qarşı da istifadə edilə bilər, lakin bu dərhal edilməlidir. Əgər hər ikisindən, yəni həm qanunilik, həm də əməkdaşlıqdan imtina edilərsə, çevriliş siyasi aclıqdan ölə bilər və demokratik cəmiyyət qurmağın şansı bərpa edilər.

15 Çevrilişə qarşı müqavimət haqqında daha çox məlumat üçün, bax. Gene Şarpın *Çevriliş Əleyhinə* (Boston, MA, Albert Eynşteyn İnstitutu, 2003)

## Konstitusiyanın tərtib edilməsi

Yeni demokratik sistemdə demokratik hakimiyyətin arzu olunan çərçivəsini yaradan konstitusiya tələb olunacaq. Konstitutsiya hökumətin məqsədlərini, dövlət hakimiyyətinin sərhədlərini, hökumət məmurlarının və qanunvericilərin seçiləcəyi seçkilərin üsulunu və vaxtını, insan hüquqlarına münasibəti və həmçinin milli hökumətin yerli idarəetmə orqanlarına münasibətini müəyyən etməlidir., Hakimiyyət əgər demokratik olaraq qalırsa, o, mərkəzi hakimiyyət çərçivəsində dövlətin qanunverici, icra və məhkəmə qanadları arasında bərabər bölünməlidir. Polisin, kəşfiyyat xidmətinin və və hərbi qüvvələrin fəaliyyətinə sərt məhdudiyyətlər yaratmaq lazımdır və onların siyasətə hər hansı bir müdaxiləsi qadağan olunmalıdır.

Demokratik sistemin qorunması və diktatura təmayüllü tədbirlərin əngəllənməsi marağından çıxış edərək konstitusiyanın mühüm imtiyazlarla federal sistem qurması və idarəetməni regional, inzibati və yerli səviyyədə paylaşdırması arzu ediləndir. Bəzi situasiyalarda İsverçrənin kantonlar sistemi nəzərə alına bilər, hansında ki, nisbətən kiçik ərazilər bütöv ölkənin bir hissəsi qalaraq əsas imtiyazları qoruyub saxlayırlar.

Əgər yeni azad olunmuş ölkənin yaxın tarixində bu özəlliklərin çoxunun əks olunduğu konstitusiya mövcud olarsa, ola bilsin ki, onun işləməsini bərpa edərək, vacib və arzu olunan müddəaları dəyişmək müdriklik olardı. Əgər hal hazırda uyğun gələn köhnə konstitusiya mövcud deyilsə, müvəqqəti konstitusiyanın işlədilməsi vacib sayılır. Əks halda yeni konstitusiya hazırlanmalı olacaq. Yeni konstitusiyanın hazırlanması zaman və beyin işi tələb edəcək. Yeni mətnin və düzəlişlərin ratifikasiyası üçün əhalinin bu prosesdə iştirakı arzu və tələb olunandır. Konstitusiyanı tərtib edərkən xüsusilə diqqətli olmaq lazımdır, çünki sonradan həyata keçirilməsi imkansız ola bilən vədlərin və ya yüksək mərkəzləşdirilmiş dövlətin tələb olunduğu şərtlərin ora daxil edilməsi hər iki halda yeni diktaturaya yol aça bilər.

Konstitusiyanın yazılış tərzi əhalinin əksər hissəsinin başa düşməsi üçün asan olmalıdır. Konstitusiya yalnız hüquqşunasların və başqa elitaların onu başa düşməsi üçün mürəkkəb və çoxmənalı olmamalıdır.

## Demokratik müdafiə siyasəti

Azad olunmuş ölkə həmçinin qorunma imkanlarının tələb olunduğu xarici təhlükələrlə də üzləşə bilər. Xarici dövlətlər iqtisadi, siyasi və ya hərbi hakimiyyət qurmaq cəhdləri də edə bilərlər.

Daxili demokratiyanın müdafiə olunması marağından irəli gələrək, milli müdafiəyə münasibətdə siyasi itaətsizliyin əsas prinsiplərinin qəbul olunması məsələsinə baxmaq lazımdır.[15] Müqavimət imkanlarını bilavasitə vətəndaşlara verərək, yeni azad olmuş dövlətlər özü-özünü təhlükələrdən xilas edə bilən demokratiya və digər ehtiyaclar üçün lazım olan, böyük iqtisadi resurslar tələb edən möhtəşəm müdafiə qüvvələrini yaratmaqdan yayına bilərlər. Yadda saxlamaq lazımdır ki, bəzi qruplar özlərini yeni diktatorlar kimi yerləşdirmək məqsədilə heç bir konstitusion şərtlərə əhəmiyyət verməyəcəklər. Buna görə əhalinin potensial diktatorlara qarşı siyasi itaətsizlik və əməkdaşlıqdan imtinanı tətbiq etmək və demokratik strukturları, haqları və prosedurları qorumaq roluna hər zaman ehtiyac olacaq.

### Dəyərli məsuliyyət

Dinc mübarizənin gücü yalnız diktatorları zəiflədərək aradan qaldırmaqdan deyil, həmçinin zülm altında olanlara səlahiyyət verməkdən ibartədir. Bu texnika keçmişdə özlərini yalnız əsir və qurban kimi hiss edən insanlara bilavasitə öz səyləri nəticəsində böyük azadlıq və ədalətə nail olmaq üçün hakimiyyətə sahib olmaq imkanı verirdi. Keçmişdə gücsüz olanların özünə hörmət, özünə inam kimi hisslərinin artmasına səbəb olan həmin mübarizə təcrübəsinin mühüm psixoloji nəticələri var.

Demokratik dövlətin qurulması uğrunda dinc mübarizədən istifadə etməyin mühüm, davamlı və faydalı nəticələrindən biri də ondan ibarətdir ki, cəmiyyət davam edən və gözlənilən problemlərlə məşğul olmağa daha çox qadir olacaq. Bura gələcək hakimiyyətdən sui istifadə və korrupsiya, hər hansı bir qrupla pis rəftar, iqtisadi ədalətsizlik və siyasi sistemin demokratik keyfiyyətlərinin məhdudlaşdırılması və s. aid edilə bilər. Siyasi itaətsizliyi təcrübə edən əhali gələcək diktatura üçün bir o qədər kövrək deyil.

Azadlıq əldə edildikdən sonra dinc mübarizə ilə tanış olanlar demokratiyanın, vətəndaş azadlıqlarının, azlıqların hüquqlarının və regional, inzibati, yerli hakimiyyət orqanlarının və qeyri-hökümət təsisatlarının qorunması yollarını təqdim edəcək. Bu cür vasitələr, həmçinin bəzən müxalifət

---

[15] Bax Gene Şarp, *Sivil - Əsaslı Müdafiə: Sabiq-Hərbi Silah Sistemi* (Prinston, Nyu Jersi: Prinston Universitetinin Nəşri, 1990).

qruplarını terrora və vətəndaş müharibəsinə əl atmağa vadar edəcək qədər vacib sayılan məsələlər haqqında insanların və qrupların fikir ayrılıqlarını sülh yolu ilə ifadə etmək imkanlarını təmin edir.

Bu tədqiqatdakı siyasi itaətsizlik və ya dinc mübarizə haqqında düşüncələr öz millətinin üzərindən diktatura təzyiqlərini götürmək və cəmiyyəti inkişaf etdirmək üçün insan azadlıqları və milli fəaliyyətə hörmət bəsləyən, davamlı demokratik sistemi qurmaq niyyətində olan hər bir insan və qruplara yardım etmək niyyətindən irəli gəlir.

Burada üç əsas ideyaların nəticələri öz əksini tapıb:

- Diktaturadan azad olmaq mümkündür;
- Buna nail olmaq üçün diqqətlə hazırlanmış strateji planlaşdırma və düşüncə tələb olunur;
- Yüksək ayıqlıq, davamlı işgüzarlıq və tez-tez böyük qurbanlar tələb edən nizam - intizamlı mübarizə lazım olacaq

Geniş şəkildə səslənən "Azadlıq azad olmur" ifadəsi düzgündür. Heç bir xarici qüvvə gəlib zülm çəkən insanların arzuladığı azadlığı onlara vermir. Insanlar özləri azadlığın alınması yollarını öyrənməlidirlər. Bu isə asan ola bilməz.

Əgər insanlar öz azadlıqları üçün tələb olunanları əllərinə keçirə bilsələr, onlar böyük əziyyətlərdən keçərək, nəhayət onlara öz azadlıqlarını verə biləcək fəaliyyətin kursunu cıza bilərlər. Sonra, isə çalışqanlıqla onlar yeni demokratik qaydaları qura və onun qorunması üçün hazırlıq işləri görə bilər. Bu tip mübarizə yolu ilə qazanılmış azadlıq davamlı olacaq. Bu onun qorunmasına və zənginləşdirilməsinə sadiq olan inadkar insanlarla qoruna bilər.

# ƏLAVƏ

## DİNC MÜBARİZƏ METODLARI[16]

### Dinc etiraz və inandırma metodları

**Rəsmi bəyanatlar**

1. İctimai nitqlər
2. Etiraz və ya dəstək məktubları
3. Təşkilatlar və təsisatlar tərəfindən qəbul olunmuş bəyannamələr
4. İmzalanmış ictimai bəyanatlar (tanınmış adamlar tərəfindən)
5. İttiham və məqsəd bəyannamələri
6. Qrup və ya kütlələrin müştərək ərizələri

**Daha geniş auditoriya ilə əlaqələr**

7. Şüarlar, karikaturalar və rəmzlər
8. Bayraqlar, afişalar, əyani vasitələr
9. Vərəqələr, broşürlar və kitablar
10. Qəzet və jurnallar
11. Lent yazıları, radio və televiziya
12. Hava və yer reklamları (təyyarənin üzərində yazma), (torpağda şumla yazma, bitkilərin əkilməsi ilə yazma, daşlarla yazma və s.)

**Qrup təmsilolunmaları**

13. Nümayəndə göndərmələr
14. Ələsalma (gülüşdoğurucu) mükafatlar
15. Qrup halında lobbiçilik
16. Piketlərin keçirilməsi
17. Yalançı seçkilər

**Rəmzi ictimai aksiyalar**

18. Bayraqların və rəmzi rənglərin nümayişi
19. Rəmzlərin əyində gəzdirilməsi
20. İbadət və itaət etmə

[16] Tərif və tarixi nümunələrlə zəngin bu siyahı Gene Şarpın *Dinc Aksiya Siyasəti* kitabından götürülüb, İİ HISSƏ, *Dinc Aksiyaların Metodları*

21. Rəmzi hədəflərin təqdim edilməsi
22. Etiraz soyunmaları
23. Şəxsi əmlakın dağıdılması
24. Rəmzi işıqlar (Lampalar, fonarlar, və sairə işıqlandıdıcı cihazlar)
25. Portretlərin nümayişi
26. Etiraz rəsmləri
27. Küçələrin yeni işarə və adlarla bəzənməsi
28. Rəmzi səslər
29. Rəmzi olaraq torpaqların "zəbt edilməsi"
30. Kobud jestlər

**Fərdlərə təzyiqlər**

31. Məmurların daban-dabana "izlənməsi"
32. Məmurların ələ salınması
33. Əsgərlərlə qardaşlaşma
34. Gecələr keşikdə durma

**Drama və musiqi**

35. Yumoristik parodiyalar və kobud zarafatlar
36. Pyes və musiqi tamaşaları
37. Mahnı oxuma

**Hərəkatlar**

38. Marşlar
39. Paradlar
40. Dini hərəkatlar
41. Zəvvarliq
42. Maşın korteji

**Ölənlərə ehtiram**

43. Siyasi matəm
44. Lağlağı dəfnlər
45. Nümayişkəranə dəfnlər
46. Dəfn yerlərinə ziyarət

**İctimai yığıncaqlar**

47. Etiraz və ya dəstək yığıncaqları
48. Etiraz mitinqləri
49. Gizli etiraz mitinqləri

50. Müzakirə xarakterli seminarlar

**Geri çəkilmələr və imtinalar**

51. Nümayişkəranə tərk etmələr
52. Susmalar
53. Şan-şöhrətdən imtina
54. Arxa çevirmə

## İCTİMAİ ƏMƏKDAŞLIQDAN İMTİNA METODLARI

**Adamların cəmiyyətdən qovulması (ostrakizm)**

55. İctimai boykotlar
56. Seçilmiş ictimai boykotlar
57. Ər-arvad borcunu yerinə yetirməkdən imtina (Lisistat üzrə)
58. Məscitdən, ibadətgahlardan (kilsədən) uzaqlaşdırılma
59. Dini ibadətin dayandırılması

**Ictimai hadisələrdən, ənənələrdən və təsisatlarla əməkdaşlıqdan imtina**

60. İctimai və idman fəaliyətlərinin dayandırılması
61. İctimai işlərin boykot edilməsi
62. Tələbə tətilləri
63. İctimai itaətsizlik
64. İctimai təsistatlarda üzvlükdən imtina və geri çəkilmə

**İctimai sistemdən geri çəkilmə**

65. Evdə qalmalar (çölə çixmaqdan imtina)
66. Şəxsi olaraq əməkdaşliqdan tam imtina
67. Fəhlələrin qaçışı (iş yerlərini kütləvi tərk etmələr)
68. Sığınacaqda gizlənmə
69. Kollektiv şəkildə yox olmalar
70. Etiraz miqrasiyaları (hicrət)

## İQTİSADİ ƏMƏKDAŞLIQDAN İMTİNA METODLARI

### (1) İQTİSADİ BOYKOTLAR

**Istehlakçıların aksiyaları**

71. İstehlakçıların boykotu
72. Boykot edilmiş malların istehlak ediməsindən imtina
73. Asketizm (sərtlik) siyasəti
74. İcarə haqqını ödəməkdən imtina

75. İcarəyə götürməkdən imtina
76. Milli istehlakçıların boykotu
77. Beynəlxalq istehlakçıların boykotu

**Fəhlə və istehsalçıların aksiyaları**

78. Fəhlələrin boykotu
79. İstehsalçıların boykotu

**Vasitəçilərin aksiyaları**

80. Təchizatçı və vasitəçilərin boykotu

**Sahibkarların və idarələrin aksiyaları**

81. İş adamlarının boykotu
82. Əmlakın satılması və ya icarəyə verilməsindən imtina
83. Lokautlar (sahibkar tərəfindən istehsalın dayandırılması)
84. Sənaye dəstəyindən imtina
85. İş adamlarının "ümumi tətili"

**Maliyyə resursları sahiblərinin aksiyaları**

86. Bank depozitlərinin geri alınması
87. Qonararları, haqları və vergiləri ödəməkdən imtina
88. Gəlirlərin və borcların ödənilməsindən imtina
89. Pulların və kreditlərin ayrılmasının sərtləşdirilməsi
90. Gəlir vergilərinin ödənilməsindən imtina
91. Dövlətin pulundan imtina

**Hökumətin aksiyaları**

92. Daxili embarqo
93. Ticarət edənlərin "qara siyahı"sının hazırlanması
94. Beynəlxalq satıcıların embarqosu
95. Beynəlxalq alıcıların embarqosu
96. Beynəlxalq ticarət embarqosu

## İQTİSADİ ƏMƏKDAŞLIQDAN İMTİNA METODLARI

### (2) TƏTİL

**Rəmzi tətillər**

97. Etiraz tətili
98. Gözlənilməz tətil (xəbərdarlıqsız tətil)

**Kənd təssərüfatı tətilləri**

99. Kəndlilərin tətili
100. Kənd təsərrüfatında çalışanların (Ferma işçilərinin) tətili

**Xüsusi qrupların tətilləri**

101. Məcburi işdən imtina
102. Məhbusların tətili
103. Peşə sahiblərinin tətili
104. Sənətkarların tətili

**Adi sənaye tətilləri**

105. Təşkilati tətillər
106. Sənaye tətilləri
107. Həmrəylik tətili

**Məhdud tətillər**

108. Müfəssəl tətillər
109. Növbəli tətillər
110. İşin sürətinin azaldılması
111. Ciddi təlimat üzrə iş
112. “Xəstəlik” üzündən işə çixmama
113. İstefa ilə tətil
114. Məhdudlaşdırılmış tətil
115. Seçki tətili

**Çoxsahəli tətillər**

116. Yayılan və ümumiləşən tətillər
117. Ümumxalq tətili

**Tətillər və iqtisadi müəssisələrin, idarələrin fəaliyyətinin dayandırılmasının kombinasiyası**

118. İşin və ticarətin etiraz əlaməti olaraq dayandırılması
119. Bütün İqtisadi faəliyyətin dayandırılması

## SİYASİ ƏMƏKDAŞLIQDAN İMTİNA METODLARI

### Hakimiyyətin rədd edilməsi

120. Hakimiyyətə sadiq qalmaqdan geri çəkilmə və imtina
121. İctimai dəstəkdən imtina
122. Müqaviməti təbliğ edən ədəbiyyat və nitqlər

### Vətəndaşların hakimiyyətlə əməkdaşlıqdan imtina etməsi

123. Qanunverici orqanların boykot edilməsi
124. Seçkilərin boykot edilməsi
125. Dövlət idarələrində işə düzəlməyi və dövlət vəzifələrini tutmağı boykot etmə
126. Dövlət idarələrini, agentliklərini və başqa orqanlarını boykot etmə
127. Dövlətin təhsil təsisatlarından çıxma
128. Dövlətin dəstəklədiyi təşkilatların boykot edilməsi
129. Mühafizə orqanlarına dəstək verməkdən imtina
130. Küçə xətlərinin və özünə məxsus şəxsi əmlak işarələrinin pozulması
131. Təyin olunmuş məmurları qəbul etməkdən imtina
132. Mövcud təsisatların buraxılmasından imtina

### Vətəndaş itaətsizliyinin alternativləri

133. Könülsüz və asta tabeçilik
134. Bilavasitə nəzarətin mövcud olmadığı halda tabesizlik
135. Xalqın tabesizliyi
136. Gizli tabesizlik
137. Yığıncaq və ya mitinqlərdə dağılışmaqdan imtina etmə
138. Oturaq tətil
139. Hərbi qulluqdan və deportasiyalardan imtina
140. Gizlənmə, qaçış və saxta şəxsiyyət vəsiqələrinin hazırlanması
141. "Qeyri-legitim" qanunlara vətəndaşların itaətsizliyi

### Dövlət məmurlarının aksiyaları

142. Hökumət müşavirlərinin, nümayəndələrinin kəməyindən imtina
143. Əmr və məlumatların ötürülməsinin əngəllənməsi
144. İdarələrin işini ləngitmə və əngəl törətmə
145. İnzibati əməkdaşlıqdan ümumi imtina

146. Hüquqi əməkdaşlıqdan imtina

147. Düşünülmüş şəkildə effektsizliyin yaradılması və icra orqanları ilə əməkdaşlıqdan imtina

148. Qiyam

DAXILI HÖKUMƏT AKSIYALARI

149. Qanuni (güya) yayınma və gecikmə

150. Aşağı hökumət orqanları ilə əməkdaşlıqdan imtina etmə

BEYNƏLXALQ HÖKUMƏT AKSİYALARI

151. Diplomatik və digər nümayəndəliklərdə dəyişiklik

152. Diplomatik hadisələrin gecikməsi və təxirə salınması

153. Diplomatik tanınmaların dayandırılması

154. Diplomatik əlaqələrin pisləşməsi

155. Beynəlxalq təşkilatlardan çıxma

156. Beynəlxalq təşkilatlarda üzvlükdən imtina

157. Beynəlxalq təşkilatlardan çıxarılma

BEYNƏLXALQ MÜDAXİLƏ METODLARI

Psixoloji müdaxilə

158. Özünü təbii fəlakətlərin güdazına vermək (özünü yandırma, özünü boğma)

159. Aclıq

a) mənəvi təzyiq aclığı
b) aclıq aksiyası
c) Satyaqraha (Mahatma Gandi tərəfindən işlədilən sözdür, onu "dinc üsullarla həqiqət axtarışı" kimi başa düşmək olar) ruhunda oruc tutma

160. Əks məhkəmə (müttəhimin məhkəmədən ittihamçı tərəfi günahlandırmaq üçün istıfadə etməsi)

161. Dinc yolla opponentin psixoloji cəhətdən haldan salınması

Fiziki müdaxilə

162. Oturaq tətil

163. Ayaq üstə tətil
164. İctimai nəqliyyatdan düşməmə
165. İrsi ayrı-seçkilik zamanı seqreqasiya edilmiş çimərliklərdən istifadə edilmə
166. Yerində addımlama
167. Seqreqasiya olunmuş məscit və kilsələrdə ibadət etmə (dini tətil)
168. Dinc marşlar
169. Dinc hava uçuşları (opponetlərin nəzarətində olan ərazilərə dinc hava uçuşları)
170. Qadağan olunmuş zonalara dinc müdaxilə
171. Opponentin işlətdiyi zora qarşı öz bədəni ilə dinc üsullarla maneələr törətmə (psixoloji təsir)
172. Işlədilən zora qarşı öz bədəni ilə dinc üsulla sipər çəkmə (fiziki təsir)
173. Dinc işğal

**İctimai müdaxilə**

174. Yeni sosial-ictimai modellərin qurulması
175. Yerlərin, mənzillərin, binaların həddən artiq doldurulması
176. Yolların bağlanması
177. Dayanmadan nitq söyləmə
178. Küçələrdə özfəaliyyət partizan səhnələrinin tamaşaya qoyulması
179. Alternativ ictimai təsisatlar
180. Alternativ rabitə sistemi

**İqtisadi müdaxilə**

181. Əks tətil
182. Oturaq tətil (iş qurtarandan sonra da iş yerini tərk etməmək)
183. Dinc torpaq işğalı
184. Blokadanı yerinə yetirməyə itaətsizlik göstərmək
185. Siyasi motivli saxta pul əskinaslarının hazırlanması
186. Strateji vacib malların xəbərdarliq formasında kütləvi şəkildə alınması
187. Əmlakların işğalı
188. Damping (ucuz ixrac etmə)
189. Seçilmiş himayə (xüsusi olaraq seçilmiş firma və idarələr üzərində nümayişkarənə himayədarliq)
190. Alternativ bazarlar
191. Alternativ nəqliyyat sistemləri

192. Alternativ iqtisadi təsisatlar

## Siyasi müdaxilə

193. İnzibati sistemlərin daha çox yüklənməsi
194. Gizli agentlərin ifşa olunması
195. Həbs olunmağa çalışmaq
196. “Neytral” qanunlara vətəndaşların tabesizliyi
197. Əməkdaşlıqdan imtina edərək işə davam etmə
198. İkili suverenlik və paralel hakimiyyətin yaradılması

## MÜƏLLIF HAQQINDA

Cin Şarp Masaçusets ştatının Boston şəhərindəki Albert Eynşteyn İnstitutunda baş alim vəzifəsində çalışır. O, Ohayo Dövlət Universitetində bakalavr və magistr dərəcəsi almış və sonradan siyasi nəzəriyyə sahəsində Oksford Universitetində Doktorluq dərəcəsinə qədər yüksəlmişdir. Həmçinin o, Masaçusets Universitetinin siyasi elmlər üzrə təqaüddə olan əməkdar professorudur. Artıq 30 ilə yaxındır ki, Harvard Universitetinin Beynəlxalq məsələlər üzrə Mərkəzində elmi tədqiqat işi aparır. *"Dinc Mübarizə Siyasəti"* (1973), *"Qandi, Siyasi Strateq kimi "* (1979), "*Sosial Hakimiyyət və Siyasi Azadlıq*" (1980), *"Avropanın məğlubedilməz edilməsi"* (1985), *"Sivil Müdafiə"* (1990), və "*Diktaturadan Demokratiyaya doğru"* (1993 və 2002), kimi bir sıra kitabların müəllifidir. Hal-hazırda "*Dinc Mübarizənin tətbiqi: İyirminci əsrin təcrübəsi və İyirmi birinci əsr imkanları"* mövzusunda yeni bir kitabın hazırlıq işləri gedir. Onun əsərləri 30 dan artıq dildə çap olunmuşdur.